# ADAYIŞ RİSALƏSİ

(Azərbaycan dilinə tərcümə)

**Mustafa İslamoğlu**

**Bakı - 2007**
**www.azerislam.az**

Aziz Kur'an talebesi,
minnettarım, duakarım, hizmetkarım...
Kitaplarınız gelecek, siz okuyun, anlayın,
yaşayın ve başkalarına da ulaştırın.
Allah yardımcınız olsun.

*Aziz Kur'an talebesi Gülşen Gafarova, aleykum selam ve rahmetullah. Memnun ve mesrur oldum. Siz yeter ki istifade edin, canımız feda. Siz Islamı talim etmek icin gayret edersiniz de, biz size yardımcı olmazmıyız.*

*Tum eserlerim sizin adresinize postalanacaktır. Hediyyemizdir. Bedelini Allah yolunda calışarak odersiniz. Ayrıca Adayıs Risaylesi ve Yurek Devleti'ni Azerice'ye cevirmenize cok sevindim. Hemen bastırın, insanlar istifade etsin. Onlar ananızın ak sutu gibi helaldır. Para kazanmak icin yapılmayan bu tür faaliyetlerden telif talebim olmaz. Siz yeter ki muslumanlara ulaştırın.*

**Mustafa İslamoğlu**

# TƏRCÜMƏÇİLƏRDƏN

*Sözlər kəlam sahibi «Rəhman, Rahim olan Allahın adıyla» başlayar. Biz də bizi sevən, bizə ağıl, şüur, idrak, düşüncə, tərbiyə verən Rəbbimiz Allahın adı ilə başlayırıq. O-nun sevgili Nəbisinə, salat, Nəbimizin əhli-beytinə, əshabına, onun izi, yolu ilə gedənlərə, yaşayan və bu yolda ölənlərə salam olsun deyirik. Salam olsun dünyamıza, salam olsun axirətimizə.*

Mustafa İslamoğlunun «Adayış risaləsi» kitabını tərcümə etməkdə müəyyən niyyətlərimiz və bir sıra məqsədlərimiz olmuşdur.

1. Qurani Kərimdə verilən ibrətamiz hekayələrin möhtəşəm hikmətə sahib olması faktı ilə həmvətənlərimizin tanışlığı və agah olması.
2. «Adayış risaləsi» – Əli-İmran, 33-45-ə dair fərqli yanaşma. İbrətlər nümunə götürmək üçündür. Dünyamızın xilası üçün İsalara, Musalara, İbrahimlərə ehtiyac duyulduğu bir fakt. Xilasediciləri gözləmək deyil, xilasedici olmaq və ya yetişdirmək lazım olduğu faktına əminliyimiz. Quran bizə qadının məqamını tanıdır. Məryəm oğlu İsa Məsih. Bu gün insanlığın xilaskarlarının doğulması üçün Hənnalara ehtiyacımız var. Əlinizdəki kitab Hənnanı tanıdır.
3. Mustafa İslamoğlu - «Quran aşiqi» və hər kəsə İslam dünyasına «Quran» qapısından daxil olmağı tövsiyə edən alim ilə Azəri dilli oxucu kütləsini tanış etmək. Peyğəmbərlik bitsə də insanların rifahı üçün yaşayan, çalışan, risaləti çiyinlərində daşıyan insanlar hər zaman Allahın təqdiri ilə var olacaq. Quran məşəlini əlində tutub qaranlıq yolları aydınlatmağa can atan alimlər də olacaq. Mustafa İslamoğlu da bu məşəli əlində tutmaqla, *lə ilahə illəllah* deyərək insanları qaranlıqdan, adət–ənənə buxovundan, məzhəbçilikdən, firqəçilikdən, «o»çu, «bu»çuluqdan xilas olaraq, Qurana sahib olmağa çağırır. Məqsədimiz Mustafa İslamoğluna tərəf çağırmaq deyil. Niyyətimiz Allaha tərəf çağıran Muhəmmədin sevgi məktəbindən dərs alan və bu

yolu çör-çöplərdən təmizləyərək Allaha tərəf çağıran alimlə tanış etməkdir. Onun dəyərli fikirlərinin, özünəməxsus Quran anlayışlarının, şərhlərinin sizin də içinizdə bir inqilab edəcəyinə inanırıq. Dəyərli möminlər, amma bunu da sizə bildirməyi özümüzə borc bilirik ki, hər şey orjinalda daha gözəldir. Türk dilində oxumaq mənə çətindir deyən, əzizlərimiz, inanın ki, siz cəhd etsəniz Allah sizi mükafatlandıracaq. Bu dünya həyatı Cənnətin kiçik bir maketidir. Maket reallığın yerini verə bilməz. Dünya Cənnətlə müqayisə edilə bilmədiyi kimi, tərcümə də orijinal mətnlə müqayisə edilə bilməz.

Hər hansısa bir qüsurumuz varsa ilk əvvəl Allahdan, müəllifdən, sonra isə sizlərdən üzr istəyirik. Allah niyyətimizdən xəbərdardır.

P.S. Nədən kitabın adını tərcümə etməmisiniz, deyə soruşsanız - ad etməyin (adamaq) nə olduğunu izah etməyə ehtiyac görmədik deyərdik. Adamaq ad etməkdir. Adamaq layiqli olana nəzir verməkdir. Bir qulu bir qula deyil, qulu qul sahibinə adamaqdır. Ad etməyi öyrənək və adayaq.

El adətində qızı evdən gəlin köçürməmişdən öncə onu adaxlayırlar. Yəni, ömrünü başqa birinin ömrünə sərf etmək üçün qızı oğlana ad edirlər. El adətinə görə qız ər evinə geri dönməmək şərtilə köç edir. Adamaq sözünün qədim türk sözü olduğu səbəbilə biz də Hannənin yeganə ciyərparəsi Məryəmi Allaha qurban etməsi, nəzir verməsi qissəsini, «Adayış risaləsi» olaraq saxladıq.

Tərcümə əsnasında daha bir məqsədimiz də olmuşdur ki, o da dilimizdən çıxarılmış Quran qaynaqlı ərəb dili sözlərini olduğu kimi saxlayaraq, yenidən leksikonumuza qaytarmaqdan ibarətdir.

Uca Yaradandan diləyimiz budur ki, bu işi Mustafa İslamoğlundan və dəryada zərrədən də kiçik iş görmüş bizlərdən qəbul etsin. Qəlbimizi Qurana açsın, bizləri Quran aşiqi etsin.

*fil.e.n.* MİRZƏYEVA Yeganə
QAFAROVA Gülşən

# TƏQDİM

[redacted]

«Dünyanın ən çox oxunub əzbərlənən kitabı hansıdır?» deyə soruşsanız heç tərəddüd etmədən «Quran»dır deyərdim. Yenə «Ən çox oxunub əzbərləndiyi halda ən az anlaşılan kitab hansıdır?», deyə soruşsanız yenə cavabım eyni olacaq: «Quran»

Quranın fərdi və kütləvi mənada həyata hakim edilməsinin ilk və dəyişməz şərti onu düzgün bir şəkildə anlamaqdır. Quranın anlaşılmasına yardımçı olmaq üçün keçmişdə bir çox işlər görülmüş, heç bir mədəniyyət və dində bənzəri olmayacaq qədər əzəmətli külliyyat toplanılmışdır. Əsasən «təfsir» adını verdiyimiz bu çalışmalar zaman və məkanüstü olmadığına görə əksər halda yazıldıqları dövrün şərtlərindən yola çıxaraq, sözügedən dövrün insanına xitab edən, zaman və məkanla əlaqəli izahlardır. Əlbəttə, onlar arasında zamanüstü mesajın izahını ona yaraşan bir şəkildə, zamanüstü baxışla izah edənlər də mövcuddur. Məhz bu cür çalışmalar hər dövrün insanı tərəfindən gözəl qəbul edilmiş, alınıb oxunmuş və nəsildən–nəslə bir elm mirası olaraq ötürülmüşdür.

Bu gün də Qurana göstərilən xidmətlər keçmişdə olduğu kimi fədakar insanların fəaliyyətləri sayəsində davam etməkdədir.

Gördüyüm qədəri ilə təfsirlər zənn edildiyindən daha az oxunur. Həm də hər kəsin oxuması da gözlənilmir. Oxumağın yerini seyr etməyin aldığı çağımızda iri cildli kitabları, həyatında ciddi bir oxumaq səfərbərliyi başlatmayan insanların görər–görməz qorxmaları anlaşılan bir şeydir. Oxumaq, «zaman»dan da artıq «mühit» istəyən bir işdir.

Quranı anlayıb yaşamaq məqsədiylə oxuyan insanlarımız isə əksər halda nəyi, necə oxuyacaqları, oxuyarkən nəyə diqqət etmələri mövzusunda bir sıra ciddi çatışmamazlıqlarla üz-üzədirlər. Bəlkə, üsulu bilməyənlərə müəyyən qədər oxumağın üsulunu öyrətmək mümkün; ancaq bilmədikləri şey düşünmək,

təfəkkür etmək, tədəbbür[1] etməkdirsə bunu necə öyrətmək olar?

Düşünmək - ən sağlam bir şəkildə yenə düşünülərək öyrənilir; bir də səlim[2] bir Qurani təfəkkürün məhsulu olan örnəklər oxunaraq...

Əlinizdə tutduğunuz risalə klassik mənada bir təfsir olmağın bütün keyfiyyətlərini daşımaya bilər. Beləki, bu çalışma Quran qissələri üzərində işlənilmiş orijinal çalışmaların təvazökar nümunəsi sayıla bilər. Bu əsər Qahirədə verdiyimiz təfsir dərslərinin kitablaşmış halıdır.

Əslində bu risalənin yazılma məqsədi praktiki qayğılardan qaynaqlanaraq müsəlmanların yaşadıqları problemlərin həllində Quranın inkar edilməz yardımına diqqət çəkmək, səadət və qurtuluşun qaynağı olan Kitabi Kərimimizdən hər tərəfli istifadəni artırmaqdır.

«Allah alimdir» və «O, hər şeyin özünü biləndir»

**M.İSLAMOĞLU**

*Fevral 1992, Qahirə*

---

[1] *(ər)Tədbir düşünmə, bir işin nəticəsini fikirləşmə. düşünmə, (ibrət götürmək)*
[2] *(ər) Səhv etməyən, peşiman olacaq bir iş görməyən, təmiz, ayıq və s.*

# BİRİNCİ BÖLÜM

# ADAMAQ[3]

[redacted]

Adamaq, sahib olduğunun şüurunda olmaqdır.

Adamaq və adanmaq - xərcləmək və xərclənmənin ziddidir.

Nə deməkdir sahib olduğunun şüurunda olmaq? Sahibi olub şüurunda olmadığımız idrak etmədiyimiz şeylər də varmı? Sahib olduğumuzu zənn etdiyimiz hər şeyin həqiqətən də sahibiyikmi?

Hər şeyin bir sahibi varmı? O halda bizim sahibimiz kimdir?

Bir şeyə sahib olmağın ölçüsü nədir? Sahibi olub şüurunda olmadığımız şeylər olduğu kimi, bizə sahib olduğu halda, əksini zənn etdiyimiz, daha açığı, bir ömür boyu qulu – köləsi olduğumuz, lakin özümüzü onun sahibi, ağası hesab etdiyimiz şeylər də varmı?

Bu suallar kitab sualları deyil. Bu suallar həyatın suallardır. Həyatı ciddi qəbul edən bir insan təbii ki, bu sualların cavablarını da ciddi surətdə axtarmaq məcburiyyətindədir.

Əlbəttə, elə insanlar vardır ki, sahibdirlər, amma sahib olduqlarının şüurunda deyildirlər. Bu səbəbdən də o şeylərə sahib çıxmazlar. Əslində təsərruf[4] haqqı özlərinə verilmiş olan şeyləri qorumazlar, mühafizə etməzlər, istifadə etməzlər.

Bu cür insanlara təsərrufu özlərinə verilən şeylərə sahib çıxmaları, onları qoruyub mühafizə etmələri xatırladılır.

**«Ey inananlar! Özünüzü və ailənizi atəşdən qoruyun»** (Tahrim,7)

İnsanın sahibi edildiyi şeylərə sahib çıxması, sözün tam mənasında «mükəmməliyə yüksəlişin sübutu» hadisəsidir. Sözügedən sübut yaşdan çox məsuliyyət və əhliyyətlə[5] əlaqəlidir.

Elə insanlar vardır ki, onların özlərinə başqaları sahibdirlər[•].

---

[3] *(qurban vermək, ən layiqli olana nəzir etmək, ad etmək,)*

[4] *(ər) təsərruf – sərf etmək sözündəndir. yəni yaşayışı, keçimi üzərimizdə olan insanlara sərf etdiklərimiz. yeməyi, geyimi, mənəvi dynuasına belə cavabdenlik daşıdığımız insanlar*

[5] *(ər) ləyaqət, iqtidar, etibarlılıq, səlahiyyət, səriştə, mötəbər, bilikli.*

[•] *Heç düşünməzmisiniz? Kimdir sizin sahibiniz? Sahib oluqlarınızmı? Sahib olduğunuzu düşündüklərinizmi? Sizmi sahibsiniz, ya onlarmı? (tər.)*

Bunlardan bir qisminin sahibi qadın, övlad, nazir, müdir, lider, avtoritet kimi öz cinsindən olan insanlar; digər bir qisminin sahibi isə mal, məqam, sərvət, gözəl ev – eşik kimi şərəf baxımından özlərindən daha aşağı olan şeylərdir. Əslində tam tərsi olduğu halda özlərini o şeylərin sahibi hesab etmələri bu ikincilərin ən qəribə tərəfləridir. Amma nədənsə bu insanlar «kim kimə tabedir» sualını özlərinə heç vaxt vermək istəməzlər. Cəsarət tapıb özlərinə bu sualı verə bilsələr nə nəyin sahibidir, kim kimə tabedir sualının cavabı açıq-aydın ortaya çıxacaqdır.

Sahib olana tabe olunur. Əgər sahib olduğumuz şeyə tabe oluruqsa bu halda rollar dəyişir, əslində sahibi olduğumuzu hesab etdiyimiz şey bizim sahibimiz olur. İnsanın sahibi tabe olduğu şey deyilmi?

Bu zaman ağla bir sual gələcək: Sahib olan və sahib olunan, tabe[6] və mətbu[7] yer dəyişdirdikdə nə olur? Ya da tutaq ki, sahibi olduğumuz şeylərdən xəbərdar olduq. Sonra nə olacaq?

Bax elə bu məqamda mövzumuz olan «adamaq» işin içinə daxil olur; xərcləməmək və xərclənməmək üçün adamaq.

Sahib olduğumuz dəyərlərin ən şərəflisi şübhəsiz ki, öz nəfsimiz və təsərrufu əlimizdə olan insanlardır. Tarixin heç bir dönəmində bu dəyərlər günümüzdəki kimi ucuz satılmamış, xərclənməmişdir.

İnsanoğlunun özü-özünü alçaltmasının ən acınacaqlı nümunələrindən biri şərəfli etdirilmiş varlığını öz cinsindən* olan birinə ya da daha aşağı dəyərdə bir şeyə adamasıdır (yəni onun qulu olması)**.

Bu mənada adamaq demək olar ki, qədər-qismətdir. Əgər əldə etmək istədiyiniz bir şey varsa və varlığınızı onu əldə etməyə sərf etmiş; duyğu, düşüncə və fəaliyyətinizi onun uğrunda israf etmisinizsə, siz o şeyin adağı (qulu) olmusunuz.

Bu mənada özünü bir şeyə adamamış bir insanın olmadığını,

---

[6] *İtaət edən, tabe olan, birinin arxasınca gedən*

[7] *Təbəələri olan,tabe edən, başçı, rəis, komandan.*

* *insan cinsindən olan biri nəzərdə tutulur. (tər.)*

** *Çünki, əslində qul olmaq insanın fitrətindədir. Doğru qapıya qul olmazsa, qul olacağı yanlış qapılar axtarıb tapar. (tər.)*

olmayacağını görürük.

Bütün dəyərlərin baş aşağı çevrildiyi çağdaş dünyada nə nələrin uğrunda qurban verilmir ki? Yaxşılar pislərə, şərəflilər şərəfsizlərə, dəyərlilər dəyərsizlərə, fəzilətlər rəzilətlərə, insanlar əşyalara, ölümsüzlər ölümlülərə, qalıcı və uca dəyərlər keçici və yalançı dəyərlərə qul olmaqdadır....

Şəhvətinə adananlar...

Mədəsinə adananlar....

Məqamına adananlar...

Damaq və vücüd zövqünə adananlar...

İstəyinə, hissinə, nəfsinə və şeytanına adananlar...

Adəmoğlu özünü adayacaq büt icad etməkdə nə qədər mahir olduğunu tarixi boyu isbat etmişdir. İnsan nəslinin bu qədim adətinin təməlində onun yaradılışındakı adanmaya meylli xüsusiyyəti dayanır. Belə ki, həqiqi İlahını itirdiyi zaman özünə həmən saxta ilahlar tapmaqda heç çətinlik çəkmir, bir yerdən axtarıb tapıb sığınmağa başlayır; adanacaq həqiqi qapını itirdiyi zaman özünə saxta qapılar tapmaqda da çətinlik çəkmir.[...]

Bəzi zamanlarda isə hakim siyasi, iqtisadi və ənənəvi dini qüvvələr qurduqları istismar çarxını zəiflədəcək bir şüura sahib olmasınlar və oynayıb başlarını qatsınlar deyə, toplumların önünə oyuncaqlar atarlar. Siyasi qüvvələrin oyuncağı - ideologiyaya, fəlsəfəyə və elmə bənzəyən  mücərrəd oyuncaqlar ola biləcəyi kimi, musiqi, idman, cinsəllik, texnika, kütləvi informasiya vasitələri (televiziya və digərləri) kimi müşəxxəs[8] oyuncaqlar da ola bilər. Hakim iqtisadi güclər isə dayanmadan körüklədikləri istehlakı qarşılaya bilmək üçün daha artıq zülm etməyə, daha artıq zülm və istismar etmək üçün də mallarını böyük uşaqların kiçik tanrıcıqları kimi dönə-dönə süsləyib yarışa girərlər. Hakim ənənəvi dini qüvvələr isə təhrif edilmiş Xristianlıqda göründüyü kimi əslində müqəddəs olmadığı halda, davamlı bir şeyləri

[...] *həqiqi qapını deyil saxta qapıları döyməklə özünü zillətə salmış olduğunun fərqində olmadan bu qapıların qulu olur. Qul olmaq fitrətindədir dedik... Qul olmazsa olmaz. QUL olmazsa qulluqçu olar, kölə olar. Amma mütləq bir şeylər olar. (tər.)*

[8] *Şəxsiyyəti bəlli edilmiş, tanınmış, seçilmiş, müəyyən edilmiş*

müqəddəsləşdirib, özlərini və bəslədikləri qapıları gücləndirmə yarışına girirlər. Hakim siyasi, iqtisadi və dini qüvvələrin dünyəvi mənfəətləri və varlıqları təhlükə ilə qarşılaşdığı zaman dövlətdən bayrağa, torpaqdan milli sərhədlərə və «milli sərvət» adını verdikləri alın təri tacirlərinin zülm müəssisələrinə qədər, bir sıra şeyi müqəddəsləşdirib ülvüləşdirmək də bu sonuncuların vəzifələri arasındadır.

İnsanlar başlarını qatsın, bu zümrələrin mənfəətləri qarşısında bir problem çıxarmasınlar deyə, önlərinə çox inkişaf etmiş oyuncaqlar atılır. Onlar bu oyuncaqlarla oynayıb vaxt itirərkən, hakim güclər də «malı götürmüş» olurlar. İş bununla bitmir. Müəyyən zaman sonra bu oyuncaqların məqsədini unudan zavallı kütlələr onlara sığınılacaq, güvəniləcək bir şey olaraq baxmağa, hətta həyatlarını oyuncaqlarına adamağa başlayarlar.

Bütün bu nəzirlər əslində bir adayış deyil, xərcləmək və xərclənməkdir: öz varlığını, əhlini, əyalını, təsərrufunu əlində tutduğu hər bir şeyini zövq üçün xərcləməsidir. Bu istehsala deyil, istehlaka yönələn bir xərclənmədir. İnsanın əlindəki ən böyük sərmayəsi olan varlığını qumara qoyaraq uduzmasıdır. Quran bu cür adayışa «iflas», adananlara isə «müflis» deyir.

İnsan nə olursa olsun, bir qapıya qul olacaq və ya qul olmaq üçün nəzir deyiləcəksə, bu qapı özündən daha dəyərli, daha uca birinin qapısı olmalıdır ki, dəyərini əlləriylə alçaltmış olmasın, xərclənməsin, ucuz satılmasın və tükənməsin...

Elə isə insanın qul olmalı olduğu bu qapının özəlliyi nələr olmalıdır? Və insan bu qapını hansı ünvanda axtarmalıdır? Yaradılmışlar arasında insanın özünü qurban verib xərclən-məyəcəyi bir qapı tapmaq olarmı?

Əsla: Ağılla, məntiqlə yox. Yaradılmışların içərisində insandan daha şərəflisi yoxdur ki, insan onun uğruna adansın. Məxluqatın ən şərəflisi insan olduğuna görə, adanacaq qapını yaradılmışlar içərisində axtarmaq mənasız bir cəhd olacaqdır. Bu qapı yaradılmışların arasında axtarılmayacaqsa, yalnız bir yol qalır; o da Yaradan…

Şübhəsiz ki, qul olunacaq qapıların ən şərəflisi Yaradanın qapısıdır. Nəzirlərin ən şərəflisi Ona nəzir olunan, nəzir verənlərin ən ağıllısı və xeyirlisi Onun yoluna nəzir verəndir.

Ona adanmaq bir haqq qazanmaq, bir ləyaqət işidir. Və Onun təmiz yoluna ancaq təmizlər nəzir verər və ancaq təmizlər nəzir olunar.

Tarixən və günümüzdə də toplumlar cəhalət, şirk və əxlaqsızlığın bataqlığında bataraq öz dəyərlərini öz əlləri ilə alçaltdıqları zaman Allah bir qrup insanların əli ilə o toplumlara bataqlıqlardan xilas olub şərəflə yaşamağın və ölməyin yolunu göstərir. Bu tarixdə də belə idi, günümüzdə də belədir.

Nəbilər, siddiqlər, şəhidlər, alimlər, salehlər! Məhz onlar Allahın o toplumun qaranlıq gecəsini aydınlatmaq üçün seçdiyi öndər kadrlardır. Allah Rəsulu ilə nəbilik bitmişsə də, ancaq əbədi risalətin mirası bir məsuliyyət və bir qulluq borcu olaraq bütün möminlərin çiyinlərində insanlıq var olduğu müddətcə də daşınmağa davam edəcəkdir. Bu toplumlar keçmişdə hansı üsullarla səadətə qovuşmuşdularsa, gələcəkdə də eyni üsullarla səadətə qovuşacaqlar. Bunun ilk şərti isə o toplum içində bir toxum, bir özək, bir qığılcım vəzifəsini yerinə yetirəcək, az sayda olsa da «sağlam kadr»ların olması və o toplumun dəyişməsində «maya» rolunu oynaması ilə mümkündür.

**«İçərinizdə yaxşılığa çağıran, xeyirli işləri görməyi əmr edən və pis əməlləri qadağan edən (əmri bil-maruf nəhyi anil-munkər) bir camaat olsun! Məhz onlar nicata çatanlardır»** (Ali – İmran 104)

Şübhə yoxdur ki, Allahın içimizdə olmasını istədiyi bu adanmış kadrların yetişməsi inananlar arasından çıxan səmimi insanların fədakarlıqlarına bağlıdır. Beləliklə, adayış - Allahın bir toplumu toplumlar arasından seçib öndər etməsinin gerçəkləşməsi müddətində aparıcı rolu üzərinə götürən sözügedən kadrın seçilməsində rol oynayan səbəb və ünsürlərdən biridir.

Ümmətin ləyaqətli saleh lider ola biləcək insanlara ən çox ehtiyac duyduğu bir çağda bu önəmli vəzifəni yerinə yetirəcək ləyaqətdə insanların yox deyiləcək qədər az olması, bir az da ləyaqətli namizədlərin olmamasındandır. Yəni, xammalın yoxluğu... İnsanların bir çoxu İslami hərəkatın ən böyük problemlərdən birinin, bəlkə də birincisinin «öndərlik problemi» olduğunda həmfikirdir. Yenə bir qrup insan əlləri-qolları bağlı halda oturmaqlarını öndərlik probleminin həll olunmasına

bağlamaqdadırlar. Amma yenə bu problemdən şikayət edən insanların demək olar ki, heç biri onun həll edilməsi üçün gərəkli səy göstərmir, üzərlərinə düşən vəzifələri bilmir və yerinə yetirmir. Onlar öndərlik probleminin həllini tamamən Allaha həvalə etmiş vəziyyətdədirlər.

Rəbbimiz isə bu problemin həllinə aid formulanı Quranında bizlərə təqdim edir. Belə olan vəziyyətdə ehtiyac yeni formullara deyil, əslində mövcud olan formulları və çıxış yollarını gözəl qavrayıb, onların həyata tətbiq edilməsinədir. Mövcud vəziyyətdən hər addımbaşı şikayətçi olan insanların bu şikayətlərindəki səmimiyyət və ciddiyətləri də beləcə yoxlanmış olacaq.

Bir insan düşünün ki, nə Məryəm kimi onu Allah yolunda adayan bir ata – ana və mühitə sahib ola bilmiş, nə özü belə bir valideyn olub «adayan»lar arasına qarışmış, nə Zəkəriyyə kimi, Yəhya kimi adanan və adayanlara yardımçı olmuşdur. Üstəlik bu fərd bu halına baxmadan «öndərlik problemin»dən şikayət edirsə, onun ciddiliyinə nə Allah, nə də qullar inanacaqlar.

# TOPLUMLAR VƏ XİLASLARI

**«Allah Adəmi, Nuhu, İbrahim ailəsini və İmran ailəsini seçərək aləmlərə üstün qıldı»** (Ali – İmran 33)

Bu ayədə seçildiyi bildirilənlər içərisində Adəm (ə), Nuh (ə) və İbrahim (ə) kimi peyğəmbərlər olduğu kimi, İmran və zövcəsi Hannə kimi peyğəmbər olmayanlar da var. Bununla seçimin sırf nəbilər üçün deyil, toplumun qurtuluş prosesində rol oynayacaq bütün öndər şəxsiyyətlərin yetişəcəyi mühüt üçün də keçərli olduğuna, ola biləcəyinə diqqət çəkilməkdədir.

Allahın bu seçimi təsadüfi bir seçimdirmi? Yoxsa bu seçimin hər hansı bir ölçüsü və ya özəlliyi varmı? Yəni bu namizədlərdə hər hansı bir keyfiyyət axtarılırdımı? Sözügedən bu seçimdə namizədlərə üstünlük verə biləcək hər hansı bir keyfiyyətdən söz edilə bilərdimi?

Səbəblər aləmində yaşadığımız bir gerçək. Kainatda hər şeyin səbəb - nəticə əlaqəsi daxilində cərəyan etməsi Allahın sünnəti və hikmətinin bir gərəyidir. Bu baxımdan ən fövqəladə hadisələrin belə, bir izahı, səbəb – nəticə əlaqəsi içərisində bir «hikmət»i var. Quran buna sünnətullah deyir. Sünnətullah çərçivəsində gerçəkləşən bəzi hadisələrin mahiyyətini, nədənsənliliyini, səbəbini anlamaqda insan zehni aciz qala bilir. Belə bir vəziyyətdə onun insan ağlından daha üstün və kamil bir ağıl tərəfindən qavranıla bilən bir açıqlaması və səbəbinin var olduğuna hökm edilir. Bunun belə olması yenə də Rəbbimizin bir «hikmət»idir.

Bəli, Allahın seçdiyi fərd və ailələrdə hansı xüsusiyyətlər vardır ki, namizədlər namizədləri arasından seçildilər? Varsa, bu xüsusiyyətlərdən bizlərə bildirilənlər olmuşdurmu?

Bu suala Quranın verdiyi cavab «bəli»dir.

Əlinizdəki kitabda hekayəsini xırdalıqları ilə ələ alacağımız «adayış qissə»sini bizə özündə heç bir şəkk - şübhə olmayan bir Kitab anlatmaqdadır. Bu elə bir Kitabdır ki, daşıdığı mesaj nə zaman və məkanla, nə də müəyyən və qeyri müəyyən adlarla sərhədləndirilmir. Belə ki, sözügedən Kitab bu cahanşümül və zamanüstü mesajını bəzən zaman və məkanla əlaqəli müəyyən

hadisələr və şəxslər ətrafında dilə gətirir. Bu səbəblə Quranda seçilən adlar, hadisələr, faktlar, qissələr və məkanlar öz daxil-lərində nə qədər yer, zaman və şəxslərlə əlaqəli olsa da mesaj olaraq bu üslub onun zaman, məkan və şəxs ümumiliyinə bir xələl gətirməz. Qurandakı örnəklər, yaratdığı insanın və insanlığın keçmiş və gələcək problemlərini bilən Allahın xüsusi olaraq seçdiyi örnəklərdir. Nə üçün minlərlə peyğəmbərlərdən sadəcə bir hissəsi Qurana alınmış, onların hekayələri bildirilmişdir?

Quran verdiyi nümunələrlə bir problemə diqqət çəkirsə, tərəddütsüz bilmək lazımdır ki, bu problem gələcəkdə insanlığı narahat edən əsas problemdir. Hətta Qurana alınan nümunələrdən yola çıxaraq insanlığın gələcək problemləri mövzusunda təxmini bir xəritə çıxarmaq belə mümkündür.

Bu mövzuda ən gözəl örnəklərdən biri Yəhudi hadisəsidir. Quran endiyi dövrlərdə dünyada Yəhudi problemi deyilən ciddi bir problem yox idi. Yəhudilər o dövrün nə siyasətində, nə də sistemində  liderlik edə biləcək söz sahibi deyildilər. Söz sahibi olmaq bir yana, yer üzündə hegemon dövlətə belə sahib deyildilər. Şəriətləri belə o günün dünyasının hər hansı bir yerində qüvvədə deyildi. Babilli Nəbukadnazarın, sonra Roma İmperatoru Titusun daş üstündə daş, çiyin üzərində baş buraxmadığı dəhşətli hücumlarından sonra bir daha özünə gəlməyəcək qədər zəifləmiş, siyasi birliyini tamamilə itirmiş, Roma idarəçilərinin təsiri ilə yurdlarını tərk edib, dağınıq vəziyyətdə İspaniyadan Şərqi Avropaya, Ərəbistandan Fasa qədər dağılmış, artıq qövm ola bilmək xüsusiyyətini itirmiş bir İsrail övladı qarşımızda dayanmışdı.

Lakin cahanşümul və zamanüstü mesajın sahibi olan Quran, nazil olduğu dönəmdə yer üzündə mövqeyi olmayan Yəhudi hadisəsinə, xüsusi ilə bir qövm və din olmaqdan çox bir məktəb olan «yəhudiləşmə təmayülünə» diqqət çəkmiş, bu insanlıq bəlasının xüsusiyyətlərini ən incə xırdalıqlarına qədər daha ilk səhifələrində şərh etmişdir.

Əgər biri çıxar və mesajı əbədi olan Quranın Yəhudi mövzusunda göstərdiyi həssaslığın səbəbini tamamilə Mədinə və onun ətrafında bir neçə kiçik toplum halında yaşayan Yəhudi varlığından qaynaqlandığını söylərsə, biz məkanın seçimini də

yenə Allah tərəfindən bir hikmətə dayanaraq seçildiyini söyləyə bilərik. Bu da bir həqiqətdir ki, bu səbəbin özü belə Quranın mövzuya verdiyi önəmi açıqlamağa yetərli deyil. Çünki bu tələbi boşa çıxaran başqa nümunələr var. Məsələn Lut qövmünün qissəsi. Tarixi bir həqiqətdir ki, Quran nazil olduğu dönəmdə həmin bölgədə lutilik yox idi. O toplumun hər cür əxlaqsızlığını nəql etdiyi, dövrün cahiliyyəsini anladan heç bir qaynaq belə bir şeydən söz etməməkdədir. Buna başqa nümunələr də verilə bilər.

Bu xüsusiyyət Quranın möcüzələrindən biridir ki, bu gün Yəhudilik və Yəhudilər, Siyonizm adını verdikləri yerüzü tarixinin gördüyü ən təhlükəli üstün irqçiliyilə, bir peyğəmbərinin adına qurduğu terror dövlətiylə, əlində tutduğu dünya informasiya toru ilə, bir çox beynəlxalq şirkətləri, kartelləri, Masson, Lions və Rotary kimi yalnız öz mənafelərinə xidmət edən quruluşlarıyla, hamısından betər isə ən təhlükəli silahlı mediyası və daha saya bilmədiyim sosial, siyasal, ekonomik, təşkilatlı və təşkilatsız fəaliyyət və cəmiyyətləri ilə dünyanın başının bəlasıdır.

Quranın, ona inananları ilk surələrdən etibarən dönə-dönə xəbərdar etdiyi «Yəhudiləşmə təmayülü» isə Müsəlmanların başının bəlasıdır ki, tarixdə Yəhudilərin dinlərinə, kitablarına, peyğəmbərlərinə qarşı göstərdiyi münasibətin tam eynisini Müsəlmanlar da öz dinlərinə, kitablarına, alimlərinə göstərmək təhlükəsiylə daim üz–üzədirlər. Müsəlmanların qarşısındakı ən böyük problem bizcə «yəhudiləşmə» problemidir.

Beləliklə, Quranın digər örnəkləri də bunun kimi insanlığın əsas problemləri ilə əlaqəli ibrət səhnələrini və örnək hadisələri əhatə etməkdə və insanlığın diqqətini bunlara çəkməkdədir. Quranın zəngin insanlıq təcrübəsini aid olduğu zaman və məkandan çıxarıb gələcək nəsillərə ünvanlaması Allahın Rəhman olmağının saysız təcəllilərindən birini təşkil edir.

İnsanlıq imtahanının problemlərini açmaqda açar rolunu icra edən sözügedən qissələrdən biri də «İmranın qadını Hannə+Məryəm+İsa» müddətində gerçəkləşən adayış hekayəsidir.

Ana, övlad və nəvədən təşkil olunmuş üç nəsillə tamamlanan adayış prosesini başladan İmranın qadını Hannənin nəzir vermə məktəbidir. Ayələrin zahirindən aydın olan, sözügedən nəzir hərəkəti İmran ailəsini seçilmişlər arasına daxil etmişdir. Yəni İlahi

seçimə səbəb olaraq bu adayış göstərilməkdədir.

Hannənin nəziri olan Məryəmin insanlıq tarixində istisna sayıla bilən bir missiya ilə görəvləndirilməsi, oğlu İsanın(a) bu missiyanı nəbilik mərtəbəsində icra etməsi, Zəkəriyyanın(a) bu çevrəyə girməsi, Yəhyanın(a) möcüzəvi doğumu və bu üç ismin aqibətlərinin də bir–birinə bənzər bir şəkildə, davaları yolunda həyatlarını fəda etməklə (İsa əleyhisalam mənəvi qurbandır) başa çatması… Bunların hamısının ilk səbəbi və mahiyyəti İmranın Qadınının nəziridir və bütün bu sayılanlar adayış prosesini təşkil edən parçalardır. Yəni adayış hadisəsi bütün bu əzəmətli prosesin və səbəblər zəncirinin ilk halqasını təşkil etməkdədir.

Beləliklə, biz bu prosesin təməl nöqtəsi olan «adayış» məqamına diqqət çəkmək istəyirik. Allahın bu hadisəni Quranla ölümsüzləşdirməsinin hikmətlərindən birinin də son Nəbidən sonra onun risalət mirasını çiyinlərinə daşıyacaq öndərlərin yetişməsi və ortaya çıxması prosesinin başlanmasında Hannə və onun nəcabətli nəsil yetişdirmə hərəkəti olan adayış (nəzir) aktına diqqət çəkmək olduğuna inanırıq.

İpi qopmuş, mollası itmiş, dənələri dağılmış bir təsbehə dönən ümmət öz öndərlərini yetişdirmə prosesinə daha ana bətnindəykən başlanmasının vacibliyini biləcək, Məryəmini nəzir verəcək Hannələri yetişdirmədən, «müjdə» deməyə gələn zəmanənin «İsa»larını gözləmə ucuzluğuna düşməyəcəkdir. Ümmət öz yol göstərənlərini yetişdirməkdə Quranın göstərdiyi üsulu və üslubu mənimsəyəcəkdir. Biləcək və inanacaqdır ki, bu anlamıyla «Mehdi»siz bir toplum yoxdur. Hər toplum öz «Mehdisini» özü yetişdirəcək, bir deyil minlərlə Mehdidən ibarət olan seçilmiş kadrlarıyla ümmət, öndərliyi yenidən ələ alacaqdır. Quranın bizə gətirdiyi xəbər də bu həqiqəti dəstəkləməkdədir:

**«…Hər toplumun bir yol göstərəni vardır!»** (13/7)

Yaddan çıxarmamaq lazımdır ki: «Allah yaratdığı hər varlıq üçün bir nizam-intizam qoymuşdur. Hər şey bu qanunlar çərçivəsində baş verməkdədir. Əlbəttə, sözügedən qanunlar içərisində toplum halında dəyişmənin də qanunları vardır. Rəbbimiz tarixdəki müsbət və mənfi örnəklərdən bəzilərini Quranında qeyd edərək ölümsüzləşdirmişdir. Və ardından heç ağlımızdan çıxmaması üçün bizə dönə-dönə nəsihət vermişdir.

**«…Sən Allahın qoyduğu qayda - qanunda heç bir dəyişiklik tapmazsan. Allahın qanunlarında bir azma da tapa bilməzsən»** (35/43, 17/77, 33/62, 48/23)

Dəyişməyən bu qanunları, yəni sünnətullahı dəyişdirməyə qalxmaq bir bağy (çaşqınlıq), dəyişməsini gözləmək isə cəhalət və axmaqlıqdır. O halda bizə düşən sözügedən qanunların işləmə mexanizmini, yəni hikmətini yaxşı anlayıb, edəcəklərimizi o qanunlar çərçivəsində etməkdir.

O qanunların qavranılmasının ən sağlam yolu vəhyin daşıdığı mesajı əksiksiz və doğru anlamaqdan ibarətdir.

Tarix boyunca İlahi vəhyin zamanüstü mesajını boğmağa çalışanlar olmuş və bundan sonra da olacaqdır. Bu boğulmaq, susdurulmaq, hər zaman mülhid[9] və münkirlərin[10] əli ilə deyil, hətta çox vaxt «içəridəkilər»in əli ilə gerçəkləşdirilmişdir. Əgər zahirini tapa biliblərsə bəzi ayələrin hökmü ortadan qaldırılmış və bu işin adına da «nəsh» qoyulmuşdur. Bu üsulu qəbul edənlərin bəziləri Quranın beşdə birini mənsuh (hökmü qaldırılmış) olaraq göstərəcək qədər irəli getmişlər. Bu üsulu mənimsəyən bəzi yaxşı niyyətlilər isə İlahi şəriətlərin məqsədlərindən və üsullarından biri olan «tədricilik» gerçəyini görməməzliyə vurduqları üçün özlərini buna məcbur hiss etmişlərdir.

Qurani mesajın qarşısında duran başqa bir əngəl də «Tevil»[11] üslublu açıqlamasının şəriət qanunlarından kənarda istifadə olunaraq İlahi mesajın səs–küyünə səbəb olmuşdur. Tevil adı altında bəzən elə izahlar edilmişdirdir ki, bunlar vəhyin ana xəttinə daban–dabana zidd olmuşdur. Bu «tevil»lərin bəzilərində isə Allahın məqsədini anlamaq mümkün olmuşdursa da, izahat verənin məqsədini anlamaq mümkün olmamışdır. Əslində isə bir çox məqamda «tevil»ə əsil möhtac olan ayələr deyil, sözügedən «tevil»lər və izahlardır.

Heç şübhəsiz ki, Quran mesajını boğmaq istəyənlərin ən çox istifadə etdikləri metodlardan biri, bəlkə də birincisi «təhsisdir»

---

[9] *(ər) Allaha və peyğkmbkrine inanır və inandığını söyləyir. Fəqət, küfrə aldanmış, İslamiyyətdən ayrılmışdır, etiqadı yanlışdır. Özünü müsəlman sanır, özü kimi olmayanlara kafir deyir.*

[10] *İnanmayan, qəbul etməyən, inkar edən kimsə*

[11] *İzah etmək, açıqlamaq*

Digər iki üsul olan «nəhs» və «tevil» də şəriətə uyğun olanını olmayanından, həqiqisini və ya əksini ayırd etmək mümkün olduğu halda üçüncü göstərdiyimiz «təhsisi» isə bir qayda ilə qeyd etmək çox çətindir.

Bu səbəblə «təhsis» İlahi mesajı təhrif etmək və həyata tətbiq etməkdən uzaqlaşdırmaq istəyənlərin bu gün ən çox sarıldıqları vasitələrdən birinə çevrilmişdir. Vəhyin anlaşılması və həyata keçirilməsinin önünə çıxardılan ən ciddi əngəllərdən biri olaraq özünü gösətərir.

Təhsis məntiqində ayələr şəxslər, zaman və hadisələrlə sərhədləndirilir. Üsul elminin ən keçərli qanunu olan «səbəblərin xüsusiliyi hökmlərin ümumiliyinə mane deyil» prinsipi nəzərdən qaçırılaraq ayələr müəyyən bir zamanda, müəyyən bir məkanda yaşamış, müəyyən şəxs və ya toplumlara aid edilərək İlahi mesaj zamanüstü və cahanşümül keyfiyyətlərindən xali edilir. Bu məntiq insanlığın əbədi xoşbəxtliyinə aparan yolun işarə daşları olan ayələri tarixin çöp səbətinə atmaqda bir qüsur görməz.

Biz inanırıq ki, Quranda qeyd olunan heç bir nümunə sadəcə bir söz, bir hekayə olsun deyə yerləşdirilməyib. Quranın minlərin arasından seçdiyi bu nümunələr **yerdən çıxmayıb**. Bu nümunələrin heç biri təsadüfi deyil. Müşriklər ibrət almaq əvəzinə Quranın tarixin tozlu dəhlizlərindən çəkib çıxardığı nümunələrə «bunlar qədimlərin nağılları»dır şəklində əks reaksiya verirdi:

**«Ona ayələrimiz oxunduğu zaman «bunlar əvvəlkilərin əfsanələridir» - deyər»** (83/13)

Halbuki, insanlar ibrət alsın deyə, bu və buna bənzər misalları Rəbbimiz dönə–dönə bizə bildirir:

**«Allah ibrət olsun deyə insanlara belə misallar çəkir»** (14/25)

**«Biz bu misalları insanlara anladırıq. Amma onları alimlərdən başqaları düşünüb anlamazlar»** (29/43)

**«…Biz bu misalları düşünsünlər deyə insanlara veririk»** (59/21)

Allahın kitabında verilən müsbət misallar «örnək», mənfi misallar isə «ibrət» olsun deyə anladılır. Biz müsəlmanlar Quranın bizə anlatdıqlarına müşriklərin baxdığı kimi «əvvəlkilərin əfsanələri» olaraq baxa bilmərik. Bilirik ki, o insanlığın dəyişməz

dəyərlərini öz daxilində yaşadan tək kitabdır. Və yenə bilirik ki, o müəyyən bir qövmə, müəyyən bir zamana, müəyyən bir irqə, müəyyən bir sinfə, müəyyən bir mədəniyyətə ya da iqlimə xas deyildir.

Quranın təsvir etdiyi obrazlar insanlığın etalon obrazlarıdır. Zamanlar dəyişə bilər, məkanlar dəyişə bilər. Mədəniyyətlər, irqlər, yaşam standartları, mühit, imkanlar dəyişə bilər. Lakin insan quruluşu etibarilə varlığında, yaradılışında, daşıdığı müsbət yaxud mənfi keyfiyyətlər ölçüsü ilə dəyişməyəcək. Məsələn: **«O mübahisə edəndir»** (18/54**)**. **«Cahilliyə və zülmə meylli yaradılmışdır.** (33/72), **«Nəfsi hər zaman ona pisliyi əmr edər»** (12/53), **«tələskəndir»** (17/11)…

Beləliklə, insan bu təməl keyfiyyətləri ilə heç bir zaman dəyişməyəcəkdir. İnsanda bu keyfiyyətlər var olduğu müddətdə onun İlahi mesaja olan ehtiyacında bir əksilmə də olmayacaq. Yəni insan varlığında daşıdığı bu virusları atıb mütləq kamal və kamilliyi əldə edəcəyi bir zaman gəlməyəcəkdir. Bütün bunlar olmayacağına görə insana tək bir şey qalır: Quruluşundan qaynaqlanan zəiflikləri və ona müsallat edilən düşmənlərin şərindən ancaq vəhyin yol göstərməsi ilə qoruna bilmək…

Bu səbəblə deyirik ki: Quranın seçdiyi obrazlar müsbət və mənfiliyi ilə «canlı» obrazlardır, yəni prototiplərdir. Bir firon, bir nemrud obrazında Quran hər zaman və dövrdə var olan bir tipoloji insanı canlandırmışdır. Bu tipoloji insana aid xarakterlər sıralanaraq göstərilmişdir. Kitabın vurğuladığı bu tip – küfrün, səltənətin, zülmün, qürurun, azğınlığın, təkəbbürün bir prototipidir. Bəzi fironlar özlərini «Musa» göstərmək üçün bu ayələri zaman, məkan, zəmin və şəxsə aid edə bilməsinlər deyə, Quran onun ismini, yerini, zamanını verməmişdir. Siz hansı zamanda, hansı toplumda yaşamağınızdan asılı olmayaraq keyfiyyətləri məlum bu tipi yaşadığınız dünyada, ölkənizdə, şəhərinizdə, məhəllənizdə, hətta ailənizdə tapıb tanıya bilərsiniz. O ana xətləri ilə ortaya qoyulmuş bir tipdir. O obrazın kimi təmsil etdiyini bilməniz üçün xüsusiyyətlərini bilməniz kifayətdir. Quranın canlandırdığı Firon tipinin özəlliklərini birində gördüyünüz zaman biləcəksiniz ki, o sizə Quranın göstərdiyi «məlum» rəsmin bir mənsubudur.

İbrahim və Musa(ə) obrazları da eləcə… Onlar da bir

prototipdirlər. Müsbətin, yəni insan olmanın, kamil olmanın prototipi. Onların da xüsusiyyətləri məlumdur. Zülmə qarşı dirənişləri, şirkə qarşı üsyanları, haqqa təslimiyatları, məzlumların yanında, zalımların qarşısında dayanmaqlarıyla onları da fərqli ad, ünvan və zamanlarda ölkənizdə, toplumunuzda tapıb tanıya bilərsiniz.

İlahi mesajın Sahibi Kitabına aldığı məhdud sayda nümunələri püşk üsulu ilə seçməmişdir. Hər bir işi hikmətlə görən Rəbbimiz bu nümunələri seçərkən də əlbəttə hikmətlə seçmişdir. Qurana alınan nümunələrin bir xüsusiyyətləri də vardır ki, başqalarının arasından sıyrılıb ölümsüzləşə bilmişlər. Bizcə bu xüsusiyyət və səbəbləri iki maddədə toplamaq mümkündür:

1. Bu nümunələrin insanlıq tipinin nümunələri olması. Əgər nümunə bir fərddirsə, bir insanın prototipidir, əgər toplumdursa insan qruplarının prototipidir.
2. Quranda göstərilən qissələr - insanlığın daha sonra qarşılaşacağı problem və çətinlikləri xəbər verən, onlara diqqət çəkən və ilahi vəhyin insanlığın bu ortaq, ümumi sıxıntılarının həlli olduğunu bəsirətlə söyləyən möcüzəvi xəbərdarlıqlarıdır.

Bu nümunələr verilərkən bəzən çox bəsit bir dillə bunların bir «misal» olduğu açıqca vurğulanmışdır. Bu mövzuda bütün İslamda qadının sosial və içtimai mövqeyinin altından xətt çəkən, ayənin nüzul səbəbi də yenə Allah Rəsulunun qadınlarının timsalında bütün İslami öndərlik fəaliyyətinə səslənən Tahrim surəsinin son ayələri çox açıq və aydın mesajlar daşımaqdadır.

**«Allah inkar edənlərə Nuhun və Lutun qarısını misal verdi»,**

**«Allah inananlara da Fironun qarısını misal göstərdi, (Yenə Allah inananlara) İmranın qızı Məryəmi (misal göstərdi)»** (66/10-12)

Bəli, yuxarıdakı nümunədə insan iki kateqoriyada göstərilir: İnkar edənlər və iman edənlər. İnkarçıların örnəyi və öndəri olaraq iki qadın göstərilir ki, hər ikisi də peyğəmbər xanımıdır: Nuhun və Lutun xanımları. Hadisələrin inkar - xəyanət məqamına bu nöqtədə diqqət çəkilir. Və təbii ki, Müsəlman ailələrinə xitab edilir. Yəni mömin kişi - kafir qadın münasibətinə diqqət kəsilərək Quranın nə üçün son və tamamlanmış şəriətdə İslam ailə modelini yaratmaq

üçün mömin kişilərin və qadınların evliliklərində bir sıra vacib qayda və qanunlar qoyduğunun hikməti də aydınlaşır.

Örnəyin ikinci hissəsini iman edənlər təşkil edir: Fironun qadını və İmranın qızı Məryəm. Xüsusilə Asyanın Fironun qadını olduğu önə çıxardılaraq çevrəsini tapa bilməmiş mömin qadına bir prototip təqdim olunur. Dünyəvi zövq və cah–cəlalın sehrinə düşmədən küfrə qarşı imanı mühafizə etməyin dastan kimi bir tarixini yazan Asya nümunə göstərilir. Bu gün fironlaşmış kişilərin hökmü altında imanını qorumağa cəhd edən mömin qadınlar üçün bir müqavimət və güc qaynağı təşkil edir bu örnək. Quranın mömin qadına göstərdiyi ikinci misal isə Məryəmdir.

Beləliklə, biz burada Məryəmi və digər bir çox örnək tipi ortaya çıxaran ilk vaqiəni, yəni «adayış» vaqiəsini araşdıracağıq. Asya və Məryəm fərqli iki tərəfin nümunələridir. Birincisi fərdi mücadilənin prototipi və daxili bucağı, ikincisi isə təbii olaraq fərdi tərəfi olmaqla bərabər daha çox kütləvi mücadilənin prototipi və xarici bucağıdır. Allah bu örnəkləri Quranda xatırladaraq, insanlığın gələcək tarixinə onların mücadilələrini bir ibrət, bir öyüd, bir misal olaraq vermişdir.

Beləliklə, biz də ayələri əsas götürərək və mötəbər qaynaqlardan faydalanmaq şərti ilə Allahın, öyüd ala bilməmiz üçün seçdiyi – bizlərlə və toplumumuzla çox yaxından əlaqəsi olduğuna inandığımız ilahi bir örnəyin tarixi çərçivəsini çəkəcəyik. Həm də vaqiəni günümüzə gətirərək həyatımıza və İslami hərakatın gələcəyinə göstərə biləcəyi yardımına diqqəti yönəldəcəyik.

Ancaq bunlara keçmədən öncə qissənin bizə anlatdığı Quran ayələrini daha yaxşı anlaya bilməyimizə yardımçı ola bilməsi üçün bu ayələrin endiyi Mədinə dönəminə və enməsinə səbəb olaraq göstərilən bəzi hadisələrə «səbəbi-nüzul» çərçivəsi içərisində xüsusilə toxunaq.

# ADAYIŞ QİSSƏSİNİN ENDİYİ MÜHİT

[redacted]

Ali-İmran surəsinin 1-32-ci ayələrini təşkil edən bölməsi, ayələrin mövzusundan da aydın olacağı kimi Bədr savaşından sonra enmişdir. İbn–Abbasdan nəql edilən bir rəvayət də bu bölümün Bədrdən sonra nazil olduğunu təsdiqləməkdədir.

Adayış qissəsinin başladığı 32-ci ayə və mövzunu təşkil edən ayələrin də daxil olduğu 80-dən çox ayə isə birinci bölümdən illər sonra, yəni Hicrətin 9-cu ilində nazil olmuşdur. Nazil olma səbəbi olaraq isə Necrandan Mədinəyə gələn böyük elçilər heyəti göstərilməkdədir. Bu elçilərin gəlişi hicrətin 9 ilində yaşanan ən önəmli hadisə olmuşdur ki, sonralar həmin il «elçilər ili» (amul-vufud) olaraq adlandırılacaqdır.

Necran, Ərəbistan yarımadasında Hicaz ilə Yəmən arasında bir bölgədir. Buranın xalqı köç yolları üzərində məskunlaşmışlar. Həzrəti İsanın təbliğ etdiyi İslam bu bölgəyə yetişdiyində bölgə xalqı Yəhudi Zu Nüvasın zülm və irqçi – teokratik idarəçiliyi altında inləməkdə idi. Yahudi diktator bölgəyə fədakar insanların əli ilə gətirilən İsanın (ə) mesajına qorxunc bir dövlət terroru ilə qarşı çıxmağa çalışmış, insanları inancları üzündən qazdırdığı xəndəklərdə diri-diri yandıracaq qədər azğınlaşmışdır. Quran bu hadisənin qısa da olsa, əsas hissəsini Buruc surəsində bizə anladır.

Daha sonra Hz.İsanın saf və təmiz təlimi digər yerlərdə olduğu kimi burada da təhrifə uğramış, tövhid əqidəsi itib yerini şirk almışdır.

Mədinə İslam Dövləti doğulduğunda qısa tarixini yuxarıda incələdiyimiz Necran Xristiyanları bölgənin güclü dövlətlərindən birinə sahib idilər. 73 yaşayış bölgəsindən ibarət olan Necran konfederativ dövləti, 120.000 nəfərlik möhtəşəm bir orduya sahib idi.

Mədinə İslam Dövləti yaradılandan sonra bölgədəki siyasi nüfuzunu genişləndirib, daha sonra bunu da Məkkənin fəthiylə gücləndirincə, yarımadadakı digər bölgələrdə yerləşən dövlətlər kimi Necranlılar da önündə kimsənin durmağa cəsarət etmədiyi, durmaq istəyənlərin də tezliklə məğlub edildikləri bu yeni gücü yaxından tanımaq, mümkünsə bir siyasi toxunulmamazlıq anlaşması imzalamaq üçün Mədinə İslam Dövlətinə çox möhtəşəm

və güclü bir heyət yollamışlardır.

Vahidiyə görə, hicrətin 9–cu ilində həyata keçən bu ziyarətə 60 nəfər qatılmışdır. Bunların 14-ü liderlərdən ibarət idi. İçlərindən 3 nəfəri təmsilçi seçilmiş və Allah Rəsulu ilə müzakirələri aparmışlar.

Allah Rəsulu ilə Necran heyətinin liderləri arasında Hz. İsa ilə əlaqəli müzakirə olmuş, teslis[12] şirkini təsdiq edən Necranlılara qarşı Allah Rəsulu İsanın (ə) doğuluşundakı möcüzəni anlatmış və düşünməyə vadar edən suallarla əqidələrinin yanlış olduğunu birbaşa özlərinə isbatlamışdır.

Belə bir əhatədə mövzumuzu təşkil edən ayələr nazil olmuşdur.

Şübhəsiz nüzul səbəbləri Quranı anlamaqda insana yardım edir. Lakin enmə səbəblərinə bundan artıq bir vəzifə yükləyənin vəziyyəti uydurma xəbərlərdən əldə etdiyi dəlillə Quran ayəsini təkzib etməyə çalışanın vəziyyəti ilə eynidir. Nüzul səbəbinin Quranı anlamağı asanlaşdırmaqdan başqa bir vəzifəsi olduğunu, hələ üstəlik Quranı təfsir etmək kimi bir vəzifəsi olduğunu iddia etmək üsul elminə və Quranın ruhuna ziddir. Qaldı ki, Qurandakı hər ayənin mütləq nüzul səbəbi olamalıdır deyə bir şey yoxdur. Bir çox ayənin nüzul səbəbi yoxdur, olanlardan da bizə gəlib çatanların bir qismi zəif, bir qismi ixtilaflı, bir qisminin isə hökmü qaldırılmışdır.

Bu halda eniş səbəblərini Quranın anlaşıqlığını sərhədləndirmək və daraltmaq üçün istifadə edən şəxs əgər qəsdli bir xəyanət içində deyilsə, üsul elminə görə xəta və cəhalət içindədir.

Biz Quranın mesajını zaman və məkanlarla sərhədləndirilməyəcəyi gerçəyindən çıxış edərək deyirik ki; nüzul səbəbi olsa da, olmasa da Quranda anladılanların müxətəbi yalnız müəyyən zaman kəsiyində yaşayan müəyyən bir bölgənin insanı deyil, bütün zamanların, bütün məkanların, bütün toplumların insanıdır. Quran insanın əbədi xoşbəxtliyini təmin edə biləcək tək ilahi reseptdir: **«Bu misallar… onları düşünsünlər deyə bildirilir»** (59/21)

---

[12] *Üçlük; Xiristiyanların Tanrı üçdür və ya üç ünsürdən ibarətdir (Ata, oğul, müqəddəs ruh) şəkilində qəbul etdikləri yanlış inanc.*

# QURANİ ÇƏRÇİVƏ

*«Allah Adəmi, Nuhu, İbrahim və İmran ailəsini aləmlər üzərində seçilmiş etdi»*

*«Onlar biri digərindən törəmiş bir nəsil idilər. Allah eşidəndir, biləndir!»*

*«İmranın Zövcəsinin «Ey Rəbbim, bətnimdəkini tamamilə azad birisi olaraq yalnızca Sənə nəzir edirəm. Məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!» - dediyini xatırla!»*

*«Onu doğduğu zaman: «Ey Rəbbim! Mən qız doğdum», - söylədi. Halbuki, Allah onun nə doğduğunu və oğlanın qız kimi olmadığını yaxşı bilirdi. «Mən onun adını Məryəm qoydum, onu və onun nəslini məlun Şeytandan Sənə tapşırıram».*

*«Belə olduqda, Rəbbi (Məryəmi) yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyaya tapşırdı. Zəkəriyya hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. «Ya Məryəm, bunlar sənin üçün haradandır? – dedikdə, o: «Allah tərəfindəndir!» - deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!»*

*«Zəkəriyya Rəbbinə dua edərək dedi: «Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et! Sən, həqiqətən, duaları eşidənsən!»*

*«(Zəkəriyya) mehrabda ayaq üstə durub namaz qılarkən mələklər ona müraciət edib dedilər: «Allah sənə Özü tərəfindən gələn kəlməni təsdiq edən, ağa, nəfsinə hakim və əməlisalehlər zümrəsindən bir peyğəmbər olacaq Yəhyanın xəbərini müjdə verir».*

*«Ey Rəbbim, üzərimə qocalıq çökdüyü və zövcəm qısır olduğu halda, mənim necə oğlum ola bilər?» - söylədi. Dediyin kimidir, Allah nə istəsə, onu da edər», deyə buyurdu»*

*«Ey Rəbbim! Mənə bir nişanə göstər» - dedikdə, «Sənin nişanən üç gün ərzində adamlarla yalnız işarə ilə danışmaq olacaqdır. O vəziyyətdə belə Rəbbini çox yada sal və səhər – axşam şəninə təriflər deyib şükür et!» buyurdu.*

*«Xatırla ki, bir zamanlar mələklər belə demişdirlər: «Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, təmizləmiş, aləmlərin*

*qadınlarından üsün tutmuşdur»*

*«Ya Məryəm, öz Rəbbinə itaət et, səcdəyə qapan və rüku edənlərlə birlikdə rüku et!»*

*«Bunlar qeyb xəbərlərdəndir ki, vəhy ilə sənə bildiririk. Onlar: «Məyrəmi kim öz himayəsinə alacaq?» - deyə, qələmlərini atdılar və bir – birilə mübahisə etdikləri zaman sən ki, onların yanında deyildin»*

*«Mələklər dedilər: «Ya Məryəm! Həqiqətən, Allah Öz tərəfindən bir kəlmə ilə sənə müjdə verir. Onun adı Məryəm oğlu İsa əl-Məsihdir ki, dünyada və axirətdə şanı uca və yaxın olanlardandır»* Ali - İmran 33-45

# TARİXİ ÇƏRÇİVƏ

Tarixlər miladın əvvəllərinin son hissəsini göstərir. Bölgə bütün səmavi dinlərin doğum yeri olan Orta Şərq. Məkan Fələstin.

İmran İbn Masan özünü elmə və ibadətə vermiş bir alim. (Məraği) Matta İncilində atasının adı «Yaşahim» olaraq keçir (1:1-16) Mühitində hörmət doğuran biridir. Bu hörmət onun elmi və əxlaqi kamilliyi ilə bərabər həm də Harun əleyhissəlamın nəvələrindən olmasından qaynaqlanmaqdadır. Ona İmran adının verilməsi də təsadüfi deyildir. Özündən təxminən 18 əsr əvvəl yaşamış Musa və Harun peyğəmbərin atalarının adı da İmrandır. Bu ad Kitabi Müqəddəsdə «Əmrən» olaraq göstərilir. Bütün bu səbəblərə görə bu adın hörmətə layiq bir məqamı var (Bəqavi).

Yəni İmran toplumun nəzərində bir «seyiddir». Yalnız Hz. Harunun soyundan gələnlərin ibadət etdikləri məbəddəki alimlərin də öndərlərindəndir.

Təqvası, ixlası və elmi barədə qaynaqların ittifaq halında olduğu İmran, Fakuzun qızı Hannə ilə evlənmiş, bu evlilikdən uzun müddət uşaqları olmamışdır.

İmran kimi zövcəsi Hannə də qulluğunun təfəkküründə olan bir mömინədir. Doğura bilmək üçün həm özünün, həm yoldaşının vəziyyətinin uyğun olmamasına baxmayaraq, günlərin birində bir ağac altında dincələrkən bir quşun yavrusunu bəslədiyinin şahidi olur və Allahın yaradılışdakı yerli–yerindəliyi düşünür və daxilində titrəyən duyğusuna qarşı çıxmadan Ondan özünə bir övlad verməsini diləyir. (Razi)

Səmimi istəyi Rəbbi qatında qarşılıq tapır. Hannə yaşının ötməsinə, artıq uşaq doğma yaşında olmamasına rəğmən hamilə qalır, duasının «eşidən və bilən Rəbbi» tərəfindən qəbul oldunduğuna şahid olunca təşəkkür etmək növbəsinin özünə gəldiyinə inanaraq illər sonra qeyri - adi bir lütflə əldə etdiyi yeganə ciyərparəsini Rəbbinə nəzir verir (adayır):

**«Ey Rəbbim, bətnimdəkini tamamilə azad birisi olaraq yalnızca Sənə nəzir edirəm. Məndən qəbul buyur»**

Bütün bunlar baş verərkən əri İmran həyatdadır və imamlıq vəzifəsini yerinə yetirməkdədir. Hannə ona hələ dünyaya gəlməmiş körpəsini Allaha nəzir dediyini xəbər verincə İmran bənizi ağarmış halda Hannəyə:

«Heyf sənə, sən nə etdiyindən xəbərdarsanmı? Hələ doğulmamış uşağın kim (cinsinin) olacağını bilirsənmi ki, onu Allaha nəzir deyirsən? Birdən uşaq qız doğulsa nə edəcəyimizi düşündünmü?» (Begavi)

İmrana görə təlaşlanmasında haqlı idi. O günə qədər Allah üçün nəzir olunanlar yalnız oğlan uşaqları idi. Mövcud ənənəvi din anlayışında qadının adanmasından söz edilə bilməzdi.

İmranın yaşlılığına üzüntüsü də əlavə olununca ölümü tezləşir. Hannə hamilə vəziyyətində dul, doğulmamış körpəsi isə yetim qalır.

Belə şərtlər altında Hannə yükünü yerə qoyur. Bəli, əri qayğısında haqlı idi, uşaq oğlan deyil, qız doğulmuşdu. Bu hal İmranı üzdüyü qədər olmasa da, Hannəyə də qayğı ilə birlikdə üzüntüyə səbəb olur.

**«Dedi ki, Rəbbim onu qız doğdum, halbuki, erkək qız kimi deyil...»**

Hannə sözündən dönmədən nəzirini nəzir etdiyi qapıya təslim edir:

**«Onu və soyunu qovulmuş şeytanın şərindən Sənə tapşırıram»**

Hannə övladını doğduqdan sonra məlum duasını etdir. Onu köynəyinə bükərək müqəddəs evə aparıb oradakı xidmətçilərə (Ahbar[13]) «bu mənim nəzirim» deyərək təslim edir. Budan sonra Hannə çox yaşamadan vəfat edir. (Təbəri) Zatən yetim doğulan «nəzir» indi də kimsəsiz qalır.

İmamlarının qızı olması səbəbilə xidmətçilər bu istisna halı qəbul etmək, hətta sevərək qəbul etmək məcburiyyətində qalldılar. Çünki, onun fövqəladə doğumunu hamı kimi onlar da yaxşı bilir, fərqli körpə və «xüsüsi» bir nəzir olduğuna inanırdılar.

Bu dəfə isə aralarında onun qayğısına kimin qalacağı mübahisəsi başladı. Bu xüsusi nəzirin qayğısına qalmaq şərəfinə

[13] *Din adamları, Yahudi alimləri.*

hər kəs nail olmaq istəyirdi. Məbəd üləmaları arasında hörməti olan Zəkəriyya (ə) dedi: «ona baxmaq hamıdan çox mənə düşər. Verin mən baxım»

Zəkəriyya (ə) haqlı idi. Çünki, arvadı Eyşa, Hannənin bacısı, nəzir olunmuş Məryəmin də xalası idi. (Zemahşəri)

Fəqət başqa xidmətçilər bu qohumluğu Məryəmə baxmaq üçün yetərli hesab etmədilər. Bu fürsəti heç kəs əldən qaçırmaq istəmirdi. Zəkəriyyaya (ə) dedilər: «Anası bu həqiqəti bilmirdimi? Əgər istəsydi o uşağa sənin baxmağını söyləyərdi. Amma o heç nə demədi»

Mübahisələrdən bir nəticə çıxmayınca Məryəmi təkəffüll[14] edəcək ailənin seçimi üçün püşk atmağa qərar verdilər. Məsələnin bu cür həlli hər kəsi qane edirdi. Birlikdə Ürdün çayına getdilər. Keçmişdən bu yana etdikləri bir püşk üsulunu tətbiq edərək qələmlərini suya atdılar. Zəkəriyyanın qələmi – Allahın izni ilə hamısını keçmişdi. Quran hadisənin bu xırdalığını belə xəbər verir:

**«(Ey Muhəmməd) bunlar sənə vəhy etdiyimiz görünməz və bilinməz aləmin xəbərlərindəndir. Məryəmə kim baxacaq deyə mübahisə edib qələmlərini atdıqda sən yanlarında deyildin; mübahisə etdikləri zaman da sən yanlarında deyildin»**

Zəkəriyya körpə Məryəmi evinə apardı. Xanımı Eyşaya təslim etdi. Zatən övladsız olan xala Eyşa bacısı qızı Məryəmi bağrına basdı, ona bir ana qayğısı göstərdi. Bacısının yadigarı və Allahın əmanəti olan bu «nəziri» gənclik çağına çatıncaya qədər böyütdü.

Zəkəriyya (ə) nəziri əsl sahibinə qaytarmaq vaxtının gəldiyini bildirən işarəni alınca məbəddə ona xüsusi bir məkan düzəldərək oraya yerləşdirdi. Məryəmin qız olması səbəbilə başına bir şey gələ biləcəyi narahatlığı ilə Zəkəriyya (ə) onu davamlı nəzarətdə saxlayırdı.

İbn İshaqın nəql etdiyinə görə bölgə xalqı bu illərdə quraqlıqla birlikdə gələn və və hər şeyi məhv edən qıtlıqdan əzab çəkirdi. Ən zəngin ailələr belə, bir qarın doydurmaq dərdinə düşmüşdülər. Bu illər Zəkəriyya (ə) artıq çox yaşlanmışdı, üzərinə götürdüyü vəzifəni icra etməkdə xeyli çətinlik çəkirdi. Fəqət heç bir

[14] *Zamin olma, öhdəyə almaq, boynuna çəkmək, qəyyumluq etmək.*

fədakarlıqdan da çəkinmirdi. Bu hal onu təşvişə salmışdı. Təşvişinin qaynağı ölümündən sonra Məryəmə kimin baxacağı, belə bir şəraitdə onun xidmətini üzərinə götürəcək birinin olub-olmayacağı idi.

Qövmünün baş bilənlərini yığaraq onlara müraciət etdi: «Gördüyünüz kimi mən artıq yaşlanmışam. Bu səbəbdən də Allahın əmanəti Məryəmə də lazımı qayğını göstərə bilmirəm. Məndən sonra ona kim baxacaqsa, içinizdən çıxsın və mənə yardımçı olsun. Məryəmə baxmaq üçün əvvəllər onunla mübahisə edən insanlar vəziyyətin çətinliyini bəhanə edərək bu işə yaxın durmadılar. Sonunda İmranın qardaşı oğlu və Məryəmin əmisi oğlu olan Yusif bu vəzifəni boynuna götürdü.

Yusif qövmünü məhv edən qıtlığın təsiri ilə üzərinə götürdüyü bu vəzifəni icra edə bilmək üçün heç bir fədakarlıqdan çəkinmir, lakin yenə də bacarmadığını düşünərək narahatçılıq keçirərək üzülürdü. Məryəm ondakı bu narahatlığı hiss edərkən dedi: **«Ey Yusif, Allaha hüsnüzənn et. Şübhəsiz Allah bizi ruziləndirəcək»** Daha sonra onun duası hörmətinə Yusif kifayət qədər ruzi qazanmağa başladı. Qazandığını hər gün ona gətirirdi. Onun gətirdiyini də Allah bərəkətləndirirdi.

Zəkəriyya (ə) ziyarətə gəlincə Yusifin gətirdiklərindən daha fərqli yeyəcəklər tapır və «Bunlar hardandır?» deyə soruşurdu.

Bu fövqəladə halı görən Zəkəriyyanın (ə) də qəlbinə bir övlad həsrəti düşdü. Əvvəllər də Məryəmin halını görür və onun kimi saleh bir övladın böyük lütf olduğunu düşünür, onun valideynlərinə qibtə edirdi. Allahın Məryəmə olan fövqəladə münasibətinə də şahid olunca öz yaşına və zövcəsinin qısırlığına baxmayaraq Allahdan övlad istədi və duası qəbul olunaraq Yəhya (ə) verildi. Sonralar özü də, övladı Yəhya da azğın qövmü tərəfindən qoç kimi boğazlanacaq, nəzirin bağbanı da, adayış prosesinin bir mübarək meyvəsi olan Yəhya da Onun qapısının qurbanı olacaqdırlar.

Hadisələrin «tarixi çərçivəsi» ana xətləri ilə belədir. Bu mövzuda mötəbər tarixlər və ilk təfsirlərdə də xeyli xırdalıqları ilə kifayət qədər rəvayətlər mövcuddursa da, biz hamısını bu kitabda qeyd etməyə ehtiyac görmədik, qısa şəkildə təqdim etməklə kifayətləndik.

Çünki bizi əsl maraqlandıran hadisələrin tarixi ölçüsü və xırdalıqlarla dolu rəvayəti deyil, daşıdığı mesajdır. Şübhəsiz Quran bu hadisəni dərs almağımız, ibrət almağımız, ən əsası «örnək» almağımız üçün nəql etmişdi. Biz də birlikdə ayələrin aydınlığında hadisələrin zamana, fərdə, topluma daşıdığı mesajı axtarıb tapmağa, sirrindən agah olmağa və hikmətini kəşf etməyə çalışaq.

Şübhəsiz Allah daha yaxşı bilәndir.

# İKİNCİ BÖLÜM

# AYƏLƏRİN İŞIĞINDA ÜÇ NƏSİLDƏ ADAYIŞ PROSESİ

# ÖNDƏRLİK PROBLEMİNİN HƏLLİ VƏ ADAYIŞ QİSSƏSİ

Toplumların müsbət və mənfi mənada dəyişdiyi bir gerçəkdir. Əslində insan həm ontoloji, həm də antropoloji (zürriyyət) baxımdan təmiz və duru bir qaynağa sahibdir. İnsanın ontoloji qaynağı təmiz fitrətidir ki, hər insan o pak fitrəti ilə doğular. İnsanın antropoloji qaynağı isə yenə fitrət qədər təmiz bir insandır ki, o da Adəm peyğəmbərdir.

Bu halda əsas olan insan və onun nəslinin pozulması deyil, pozulmamasıdır. İnsan və nəsli bu ilk iki təmiz qaynaqdan (fitrət və Adəm) uzaqlaşdığı an pozulmuş, bu iki qaynağa yaxınlaşdığı dərəcədə düzəlmişdir. Bütün İlahi mesajların və dəvətçilərin dəyişməz hədəfi insanı bu təmiz qaynaqlara yenidən dönməyə çağırmaq olmuşdur.

Xəlifə olaraq yaratdığı insana mərhəmətli olan və bağışlayan Allah, hər zaman və hər məqamda itirdiyi yolu tapa bilməsini asanlaşdıracaq imkanlarla onu zənginləşdirmişdir. Bu imkanların daxildə olanları ağıl, vicdan, ruh, fərasət, bəsirət kimi mənəvi xüsusiyyətlər, zahirdə olanlar isə vəhy və onun daşıyıcılarıdır.

Vəhyin daşıyıcıları və fitrət dəvətçiləri ilk insandan bu günə qədər var olmuşlar. Son insana qədər də var olmaqda davam edəcəklər. Bu dəvətçilər içərisində insan soyunun və ağlının sünnətullah sərhədində cərəyan edən təkamülü çərçivəsində vəzifəsi - yeniləşdirmək (təcdit) olan «rəsullar» ilə, vəzifəsi - əqidəni pozan xəstəliklərdən təmizləmək və bulanan suyu durultmaq (islah) olan «nəbilər» yer almışdır. Bu iki zümrə digər dəvətçilərin faydalandığı bütün insani və rəhmani qaynaqlarla bərəbər, xüsusi olaraq Allahdan vasitəsiz ya da vasitəli vəhy almaqla da dəstəklənmişlər.

Bu bir gerçəkdir ki, son nəbi Hz. Muhəmməd (s) ilə İlahi mesajın bu şəkildə enməsi bitmişdir. Lakin peyğəmbərlik vəzifəsinin sona çatması Allahın kəlam sifətinin tətili və İlahi mesajın sona çatması mənasına gəlmir.

Başda, Allahın aləmlərə mesajı olan və son peyğəmbərlə göndərilən Quran, insanlığın dəyişməz dəyərlərinin hər birini tamlığı ilə ehtiva etdiyi üçün, insanın var olduğu hər zaman və məkanda keçərliliyini və canlılığını qoruyacaqdır. Quranın varlığı səbəbdir ki, insanlığın yeni bir peyğəmbərə, vəhy alan yeni bir nəbiyə ehtiyacı olmayacaqdır. Fəqət, Allahın Kitabdakı ayələr xaricində hələ də göndərilməyə davam edən və Onun Kəlam, İradə, Qüdrət, Hadi, Rəhman, Rahim, Qahhar, Muiz, Muzill kimi bir sıra sifət və isimlərinin təcəllisi olan mesajı kainatda, əşyada, hadisələrdə və birbaşa insanın öz nəfsində ortaya çıxmağa davam etməkdədir.

**«Mütləq olaraq inananlar üçün yer üzündə necə ayələr var; Öz nəfslərinizdə də eləcə, görmürsünüz? »** (51/20-21)

Əlbəttə, görən gözü, inanan qəlbi olanlar üçün Allah mesajını endirməyə davam etməkdədir. Əşyada, hadisələrdə və insanın öz nəfsində olan bu ayələri oxuyub anlamaq və anlatmaq da risalətin əbədi mirasını çiyinlərində daşıyan insanların boynuna düşür. Bu mesajı idrak etmək iqtidarında olanları Allah daha başqa şeylərlə də dəstəkləyəcəkdir. Allahın dəstəkləyəcəyi bu şeylər arasında olan və Allah Rəsulunun dili ilə nübuvvətdən bir parça sayılan «salih röya» faktını inkar etmək mümkün deyildir. Hələ Allah Rəsulunun bu hədisini Buxari, İbn Hanbel və Əbu Davud səhih bir sənədlə bizə qədər rəvayət etdikdən sonra:

«Rəsulallah buyurdu: Peyğəmbərlik mənimlə bitər, ancaq mübeşşirat qalar: Mübeşşirat nədir? Deyə soruşdular. Buyurdu ki, Salih röyadır».

Əlbəttə, insanlığın nəbi və rəsul anlamında vəhy alan bir peyğəmbərə ehtiyacı olmadığı nə qədər gerçəkdirsə, Allahın Kitabında yazılmış ayələrlə hadisə, əşya və nəfslərdə ortaya çıxan ayələri doğru-düzgün qavrayıb əbədi risalətin mirası ilə Kitabı həyata hakim etmək vəzifəsini çiyinlərində daşıyan və insanlara hidayət yollarını göstərən dəvət öndərlərinə insanlığın sonuna qədər ehtiyac olacağı da eyni dərəcədə bir gerçəkdir. Bu gerçək sosial həyatın qaçılmaz bir ünsürü olan insan toplumlarının quruluşu və fərd - toplum əlaqələrinin intizamını təmin edən bir idarə mexanizminə duyulan ehtiyacla da sosial bir məcburiyyətə və dini bir borca çevrilməkdədir.

Quran bu gerçəyə belə diqqət çəkir:

**«Hər toplumun bir yol göstərəni var» (13/7).**

Allah Rəsulu da bir hədisində hər dövrdə zəmanənin və adət-ənənələrin təhrif və təğyir[15] etdiyi dini yeniləcəyək öndərlərin (müceddid[16]) gələcəyini xəbər vermişdir. Bu gerçək yalnızca öndərlik planında deyil, öndər toxum kadrlar planında da keçərlidir.

**«İçinizdə xeyrə çağıran, yaxşılığı əmr edib pisliyi qadağan edən bir camaat olsun. Məhz onlar qurtuluşa çatanlardır»** (3/104)

Cəmiyyətə xas gerçəklərdən biri olan və yuxarıdakı ayələrin də diqqət çəkdiyi sözügedən öndərlik məqamına, dəvətçi seçilmiş topluluğun, hidayət məşəlləri olan islah edənlərin (mühlis[17]), yeniləyənlərin (müceddid) və yol göstərənlərin (mehdilər) seçiminə, tərbiyəsinə, müvəffəqiyyətinə seçən (Muhtar[18]), tərbiyə edən (Rəbb) və yardım edən (Nasır) Allah məgər heç qarışmır və yaxud qarışmayacaq?

Rəbbimizin müdaxiləsi olmayan saxta və yalançı öndərliklərdən ya da ləyaqətsiz öndərciklərdən zavallı ümmətin çəkdikləri və bundan sonra da çəkəcəklərini düşündükdə öndərliyin seçiminin nə qədər önəmli olduğu üzə çıxır. Elə bu nöqtədə ayəni bir daha xatırlatmaqda fayda var.

**«Allah Adəmi, Nuhu, İbrahim ailəsini və İmran ailəsini seçib aləmlərdən üstün etdi»**

Adayış prosesinin ilk pilləsi olan bu ayədə Allahın seçimindən (istifa) söz edilir. Bu seçimə müxətib olan dörd isim bildirilir. Bunlardan Adəm və Nuh (ə) xüsusi ismlər. Ali-İmran və Ali İbrahim ailə isimləri. Bunların seçilməsinin özü kimiləri arasından edildiyi vurğulanmaqla ayə sona çatır.

Bu nöqtədə iki suala cavab axtarmağımız lazım olacaq:

1. İlahi seçimin mahiyyəti və hikməti nədir?
2. Bu seçimin əhatəsi nədir?

---

[15] *Başqalaşdırmaq, pozmaq, xarab etmək, dəyişdirmək*
[16] *Yeniləşdirən, bərpa edən, İslam dini qüvvətləndirən, bidətləri, yəni İslam dininə soxulmaq istəyən reformaları, xürafətləri söküb atan və sünnətləri ortaya çıxaran alim*
[17] *İxlas sahibi, niyyətini və ixlasını düzəltməyə çalışan biri.*
[18] *Sərbəst, söz və hərəkətlərdə sərbəst olan.*

# BİRİNCİ MƏRHƏLƏ:

## İLAHİ SEÇİM VƏ «NAMİZƏD OLMAQ»

[redacted]

Sözügedən ayədə Uca Allahın seçib aləmlərə üstün etdiyi dörd isim var: 1. Adəm, 2. Nuh, 3. Ali – İbrahim, 4. Ali – İmran.

1. Hz. Adəm (ə): Hz. Adəmin insan cinsinin ilk təmsilçisi olması səbəbiylə həmcinsləri arasından seçimi müzakirə mövzusu ola bilməz. Məlumdur ki, «seçim» edə bilmək və seçimin aparılması üçün eyni cinsdən birdən artıq fərdin olması vacib şərtdir. Hz. Adəm insanlığın ilk təmsilçisi olduğuna görə onun seçilməsi də həmcinsləri arasından olmamışdır. Əslində onun seçilməsi məxluqat arasında edilən bir tərcihlə [19] həyata keçirilmişdir. Bu mənada seçimin müxətibi Adəmin şəxsində insanoğludur. O, bu seçimdə insanlıq təmsilçisidir. Allah Adəmin şəxsində gerçəkləşdirdiyi bu seçimlə insanı bütün yaradılmışlar arasından seçib «əmanəti» ona yükləmiş, daha doğrusu insan əmanətə yüklənmişdir. Və Rəbbimiz, yalnız insanı özünün yer üzündəki mümətsili[20] (xəlifəsi) etmişdir. (2/30)

Bu üstün vəzifə insanı, yaradılmışların ən şərəfli məqamına ucaltmışdır. İnsan bu vəzifəyə göylər, yerlər, dağlar, dənizlər kimi mükəlləf olmayan, mələklər, cinlər kimi mükəlləf olan varlıqların arasından seçilib yüklənmişdir.

O halda Adəmin seçimi sırf onun şəxsinə məxsus olmayan ümumi bir seçimdir və bu seçimdə o, insanlığı təmsil etməkdədir. Nuh da, İbrahim, İmran ailələri də və onlardan başqa insan olmaq keyfiyyətini daşıyan hər kəs bu seçimin müstəsnasız və hazır müxətibidirlər.

2. Hz. Nuh (ə): İnsanlığın ikinci atası sayılan Hz.Nuh bu keyfiyyətiylə önə çıxarılmış, Hz.Adəmin qoyduğu vəhy mirasını pozan və öz səadətini əlləriylə tar–mar edən insanlığın, Allahın xəlifəliyini buraxıb öz cinslərinə, daşlara, əşyaya, pula, mala qul olmalarına, dəyərlərini bu qədər alçaltmalarına razı olmayan Allah,

[19] *Üstün seçilmə, üstun tutma*
[20] *Təmsil edən, nümayəndə*

insanlığı Nuhun əliylə doğru yola yönəldərək həyatı fitrət cizgisində yenidən başlatmışdır.

Nuhun seçimi də xüsusi seçimdən daha çox özündən sonrakı bütün insanların fitrət cizgisində yenidən seçilməsi hesab olunur. Bu ismin insanlığın ikinci atası sayılması səbəbiylə sözügedən seçim, insanlığın bütün soylarına və irqlərinə şamil edilən bir seçimdir.

3. Ali–İbrahim: Allah tərəfindən ailəsinin ucaldıldığı Hz. İbrahim, peyğəmbərlərin atası olaraq şöhrət tapmışdır ki, həqiqətən də Yaqub, Yusif, Musa, Harun (hər birinin üzərinə salam olsun) qolundan Hz.İsaya qədər uzanan nəbilər silsiləsi Hz.İshaq qoluyla Hz.İbrahimə dayanır. Rəsulallahın soyu isə Hz.İsmayıl qolu ilə Hz.İbrahimə dayanır. Allah Rəsulu bu səbəblə Hz.İbrahimdən «atam» deyə söz etmişdir.

4. Ali–İmran: Masan oğlu İmran, zövcəsi Fakuz qızı Hannə, övladları Məryəm və nəvə İsadan ibarət olan bir ailədir. Hannənin bətnindəki yeganə ciyərparəsini sırf Allahın yoluna nəzir etməsinin nəticəsi olaraq Allah bu ailəni seçmişdir.

Bütün bu məlumatlardan sonra insanın ağlına bu sual gəlir. Bu seçimin məqsədinin soy–kökə dayandığı iddia edilə bilərmi?

Yuxarıdı ayrı-ayrılıqda incələdiyimiz dörd isim və onların seçimi haqqında verilən məlumatlar bu suala «qətiyyən yox» deyir. Üstəlik belə bir iddiada olmaq, üstünlüyün yalnız «təqvada» olduğunun, soyun, kökün, irqin və cinsin insana heç bir üstünlük verilmədiyini bəyan edən gizli–açıq mesajlarla zəngin olan Qurana iftira atmaqdır.

Seçim səbəbinin soy-köklə heç bir əlaqəsi olmadığı ayədən də açıqca anlaşılır. Adəm və Nuhla başlanan ayədə əgər soy–kök nəcabəti nəzərdə tutulursa bu nəcabətin xaricində insanlıq ailəsinə mənsub olan heç kəs kənarda qala bilməz. Çünki bu iki isim insanlığın atalarıdır. Bu vəziyyətdə yuxarıda söylədiyimiz kimi ilahi seçimə namizəd ola bilmək şərti bütün insanlıq üçün keçərlidir. Çünki hər kəs Adəm övladıdır və bu baxımdan insanlar arasında fitrət bərabərliyi vardır.

Bəs İbrahim və İmran ailələrinin seçimlərini necə açıqlaya bilərik?

Əgər məsələnin səbəbinin soy–kökə dayandığını qəbul etsək

sözügedən ailələrin seçilməsi onların nəslindən gələnlərin də seçilmiş olmalarını labüd edərdi. Lakin məsələnin belə olmadığını yenə Qurandan öyrənirik. İbrahim peyğəmbərin nəslindən gələnlər üçün etdiyi dua və Allahın ona verdiyi cavab belədir:

**«Allah bir zaman İbrahimi bir neçə kəlmə ilə imtahan etmiş, o, da onları yerinə yetirincə; Mən səni insanlara imam təyin edəcəyəm (dedi). (İbrahim): Nəslimdən necə? (Rəbbi): Zalımlar Mənim əhdimə nail olmazlar. - buyurdu.** (2/124)

Bəli, zalımlar bir peyğəmbərin nəslindən də gəlsə və o peyğəmbər onlar üçün dua edib duası qəbul olunsa da Allahın əhdinə nail olmazlar.

Mövzumuzu əhatə edən ayədə göstərilən isimlərin seçilməsində xəstə təfəkkür özünə qazanc götürməsin deyə, Rəbbimiz seçdiklərini ən yaxınları ilə sınamışdır. Adəm, Nuh və İbrahim peyğəmbərlərdən bizə misal çəkən Rəbbimiz Hz.Adəmi oğlu Qabillə, Hz.Nuhu zövcəsiylə, Hz.İbrahimi atası Azərlə sınamışdı. Birincisi peyğəmbər oğlu, ikincisi peyğəmbər zövcəsi, üçüncüsü peyğəmbər atası olmasına baxmayaraq küfürləri içində həlak olmuşlar. Atanın, ərin və övladın peyğəmbər olması onları xilas edə bilməmişdi.

Bu incə məqam Quranın bu mövzudakı mesajının ən açıq və aydın görüntüsüdür.

Bu halda ilahi seçimin səbəbini soy–kökdə deyil, bəzi müfəssirlərin də qeyd etdiyi kimi yalnız imanda axtarmaq lazımdır. Başqa bir deyilişlə «bel oğulluğunda» deyil, «yol oğulluğunda» axtarmaq lazımdır. Bu anlamda bütün inkar edənlər bir–birlərinin soyundan, bütün inananlar da bir–birlərinin soyundandır. Bu soy əlbəttə ki, bel soyu deyil yol/din soyudur.

Yeri gəlmişkən bir nöqtəyə diqqət çəkməkdə fayda var. Adayış prosesini anladan bir qissənin başlanğıcı olan bu ayədəki dörd ismin də qəribə bir bənzərliyi var: Onların dördü də övladla sınanmışlar. İlk ikisi öz övladları olan Qabil və Kənanı əbədi itirməyin ağır acısını çəkmiş, son ikisi olan İbrahim və İmran isə bu imtahanı müsbət bir biçimdə, ahıl yaşlarında sahib olduqları yeganə övladları İsmayıl və Məryəmi Allaha bağışlayaraq qurban vermişlərdir. Bu səbəblə Adəm və Nuh fərd olaraq xatırlandığı halda, son ikisi – İbrahim və İmran ailə olaraq anılmışlar.

33-cü ayənin ardndan gələn ayə isə bu mövzuda söyləniləcəklərin demək olar ki, bir xülasəsi şəklindədir.

**«(Bu isimlər əqidə və etnik) biri digərindən törəmiş bir nəsildirlər. Allah eşidəndir, biləndir!»**

Bəli, ayədə bildirilsə də bildirilməsə də öz dövrünün və çağının insanları arasından Allahın seçdiyi seçilməyə layiq olmuş bütün möminlər bir–birlərindəndir. Soy olaraq olmasa belə, inam olaraq, hədəf olaraq, niyyət olaraq, hərakat olaraq eyni əqidənin mənsubu, eyni hərakatın üzvüdürlər. Adlarının, yaşadıqları zaman və məkanın, irqlərinin, rənglərinin müxtəlifliyi bu gerçəyi dəyişdirməz.

Bu həqiqət əqidə baxımından keçərli olduğu kimi antropolojik baxımından da keçərlidir. Həqiqətən də Nuh Adəmin, İbrahim Nuhun, Harun İbrahimin, İmran Harunun, İsa İmranın, bir başqa qoldan İsmayıl İbrahimin, Hz.Muhəmməd İsmayılın zürriyyətindəndir. Ayədə keçən «zürriyyətdən» kəlməsinin lüğəti mənası söylədiklərimizə aydınlıq gətirir. Bildiyiniz kimi «atom» mənasını da verən «zərrə» eyni kökdəndir. Yəni insanlıq soy olaraq atomlardan təşkil olunmuş bir cisim olduğu kimi əqidə baxımından da möminlər atomlardan təşkil olunmuş tək bir cisim kimidirlər.

Ayədəki «bəzisi-bəzilərindəndir» kəlməsinin əqidəvi mənada da keçərli olduğunu, eyni tərzdə deyilmiş başqa ayələrdən də anlayırıq. Quran mömünlər üçün **«Mömin kişilər və mömin qadınlar bəzisi–bəzisinin vəlisidir»** (9/71) yəhudilər və xristianlar üçünsə «**Onlar bəzisi–bəzisinin dostudur**» (5/51) deyə bildirir. Eyni şey münafiqlər üçün də keçir: «**Münafiq kişilər və münafiq qadınlar bəzisi–bəzisindəndir»** (9/67)

Tabiun alimlərindən Katadenin bu ayənin təfsirində söylədiyi kimi əməldə, ixlasda, niyyəttə, etiqadda və düşüncə tərzində mütləq bunlar bir–birlərindəndir.

Necə imanın məntiqi birdirsə, inkarın və nifaqın da məntiqi birdir. Bunlar zamanların və məkanların dəyişməsiylə dəyişməzlər. İmranın Zövcəsi onun kimi eyni məqsəd və niyyətlə hərəkət edənlər üçün bir nümunədir. İnsanlıq var olduğu müddətdə bu yolu davam etdirən igid İslam anaları var olacaq.

İmranın Qadının sinfindən olmaq Quranın nümunə göstərdiyi

bu qadının hərəkətinə eyni qayə, eyni niyyət və eyni usulla sarılmaqla mümkündür. Sünnətullah baxımından əlbəttə ki, eyni səbəblər eyni nəticəni doğuracaq. Fəsada uğramış toplumun yıxılan dirəyini basdıracaq ərlərin yetişməsi üçün adayış prosesini başlatmaq və bunun üçün də «adayan» olmaq, ilahi seçimə namizəd hazırlamaq mənasını daşıyacaq. Namizədlər əlbəttə ki, Kitabın varisləri arasından seçiləcəkdir. Bunu Quran, belə deyir:

**«Sonra Kitabı bəndələrimizdən seçdiklərimizə miras verdik. Onlardan kimisi özünə zülm edər, kimisi mötədil olar, kimisi də Allahın izni ilə yaxşı işlərdə irəli keçər. Bu böyük lütüfdür!»** (35/32)

Bu ayədə bildirilən «seçdiklərimizə» kəlməsi ilə Ali–İmran surəsinin 33–cü ayəsində keçən «seçdiyi» kəlməsi eyni kökdəndir. Yalnız bu ayədəki seçim Ali–İmran 33-də bildirildiyi kimi fərd və ya ailə, yaxud da toxum kadr seçimi deyil, Kitaba varis olacaq «ümmət» seçimidir. Kitab (Quran) seçilən bu ümmətə əmanət edilmişdir. Eynilə daha əvvəl İsrail övladında olduğu kimi: **«Ey İsrail övladı! Sizə verdiyim nemətimi və sizi aləmlər üzərində üstün etdiyimi xatırlayın»** (2/122)

Fəqət İsrail oğulları bu seçimin haqqını verməmiş, əksinə ilahi əmanətə xəyanət etmiş, onun hökmünü ortadan qaldırmış, bunun nəticəsi olaraq bu əmanət onların əlindən alınaraq başqalarına (Müsəlmanlara) verilmişdir. Bundan sonra bu əmanət Müsəlmanlar arasından ona layiq olan toplumlara verilərək, Qiyamətə qədər əldən–ələ ötürüləcəkdir.

Yəni bu seçim o gün olduğu kimi bu gün və bundan sonra da, seçilmə haqqına sahib olub namizədlik şərtlərini daşıyanların, daha əvvəl seçilmiş olaraq əhdlərini pozanların yerinə gətirilməsiylə davam edəcəkdir:

**«Əgər istəsə, sizi yox edib yerinizə başqa bir toplum gətirər. Bu Allah üçün heç də çətin deyildir!»** (14/19-20)

Əgər seçilmişlər əqidə baxımından, dəvət, cihad və əmri-bil-məruf, nehyi anil - münkər baxımından cırlaşmayıb əqidəvi və əməli zürriyyətlərini davam etdirə bilirlərsə, seçilmiş olma haqqını əllərində saxlaya biləcəklər. Adayış prosesindəki ana, övlad, nəvə üçlüyünü təşkil edən Hannə, Məryəm, İsa (müjdə) da olduğu kimi, nəticə müjdə deməyə gəlir.

Adayış prosesinə gətirdiyimiz izahda istifadə etdiyimiz ümumiləşdirilmiş üsluba 33-cü ayədə bildirilən «aləmlər içərisindən seçdik» cümləsi sərhəd qoya bilməz. Əksinə bu cümlənin məqsədi doğru anlaşıldığında adayış prosesinin bütün dövrlər üçün keçərli olduğu nəticəsi çıxar. Yuxarıdakı cümlədə keçən «aləmlər» sözünə bəziləri «öz çağı» qeydini əlavə etmişlər. Kurtubi və Razi bunlardandır. Bu ismlər, Quranın bütün zamanların ən üstün «nəzir verəni»ni və ən üstün «nəziri»ni seçdiyi simvolik isimlərdir. Şübhə yox ki, bu isimlərdən daha əvvəl və daha sonra da öz dövrünün aləmlərinə üstün edilənlər olmuşdur. Məsələn, bu ayədə istifadə olunan formanın eynisi istifadə edilərək başqa nəbilərin də aləmlərə üstün edildiyi bəyan edilir.

**«İsmayı, əl-Yəsa, Yunus və Luta da (yol göstərdik). Hər birini aləmlərdən üstün tutduq»** (6/86)

Bu dəlillərdən də aydın olduğu kimi bu isimlər hər biri öz dövrlərinin namizədləri arasından seçilməyə layiq olmuş öndərlərdir. Risalət vəzifələrini toplumları içərisində yerinə yetirmişlər. Bütün zamanların insanlarına da örnək göstərilərək inananlara onlar kimi olmaları nəsihət edilmiş, onların yolunu davam etdirənlərə onların nəzir verdiyi kimi nəzir vermələri tövsiyyə olunmuşdur.

Onlardan sonra da öz toplumu içərisində vəhy mirasına sahib çıxanlar arasından seçimlər ediləcəkdir. Allahın qulları arasından seçdiklərinə miras buraxdığı əbədi risalətin ötürülməsi məsuliyyətini verdiyi ümmət ayədə də bildirildiyi kimi (35/32) üç kateqoriyada dəyərləndirilə bilər:

1. «Onlardan bəzisi nəfsinə zülm edər». Çünki məsuliyyətinə xəyanət etmiş, Allahın miras verdiyi Kitabı qoruma və həyata hakim etmək vəzifələrini icra etməmişlər. Bu insanlar sözügedən xəyanətlərinə rəğmən özlərini o Kitaba (Qurana) mənsub olanlar arasında hesab etmək kimi saxtakarlıq etmişlər. Allah Kitabına mirasçı olaraq seçdiyi toplumun nümayəndəsi olan bu insan əxlaqsızcasına mirası mənimsəmək şəklində davranaraq İlahi əmanətə xəyanət etdiyi üçün nəfsinə zülm etmişdir.
2. «Kimi də orta yoldan gedəndir.» Öndər deyil. Nə Hannə kimi nəzir verən, nə Məryəm kimi nəzir olunan, nə də İsa kimi

müjdə olandır. Qurban verə bilən və qurban olanlara tabe olmağa, xidmətçi olmağa çalışır. Mirasa və İlahi seçimə xəyanət etməz. Bəlkə qaçmağa gücü yoxdur, lakin birincilər kimi yolun üzərinə oturaraq keçənlərə də mane olmaz.

3. «Kimisi də Allahın izni ilə xeyirlərdə önə keçəndir. Bax böyük fəzilət budur». (Fatır, 32) Bu insanlar başdan bəri söhbət etdiyimiz əbədi risalətə mirasçı olanlar arasından sıyrılıb İlahi seçimə namizədliyə namizədi olanlardır. Bunlar Quranın «Aranızda olsun» dediyi fədakar və vəfakar zümrədəndir. Allah dünyanın varislərini onların arasından seçər.

**«Biz isə istəyirdik ki, o yerdə zəif düşüb əzilənlərə mərhəmət göstərək, onları öndə gedən (risalətə və yerüzünə) varislər edək»** (28/5)

Mövzumuza başlayarkən «İlahi seçimin məqsədi nədir?» sualına cavab vermə zamanı gəldi. Bu cavabı biz deyil, yenə Quran versin:

«İmranın Zövcəsinin «Ey Rəbbim, bətnimdəkini Sənə tamamilə azad biri olaraq nəzir edirəm. Bu nəziri məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!» dediyi zaman….»

İmranın Zövcəsi yeganə ciyərparəsini gözünü qırpmadan Rəbbinə qurban dediyi zaman… Bax elə o andan etibarən fövqəladə bir dövrün başlanması üçün start verilmiş, qonq vurulmuş, geriyə saymaq prosesi başlanmışdır.

*Zaman özünü unutmuş,*

*Mələklər nəfəslərini tutmuş.*

Göylərin qələmi bu sözləri əlçatmaz dəftərinə ana xəbər olaraq qeyd etmiş və yeni, lap yeni bir tarix yazılmağa başlanmışdı - keçmişin və gələcəyin Sahibi tərəfindən.

Bəli, «....dediyi zaman»...

Bir cavaba ehtiyac duyan bu zaman zərfinin arxasından mütləq cavabı gəlməli. Yəni, «bəs nə olmuş İmranın Zövcəsi belə dediyi zaman?» sualının cavabı...

Beləliklə, bu sualın cavabını 33-cü ayəyə əvvələ qayıdaraq tapırıq:

**«Allah, İmranın ailəsini seçib aləmlərə üstün etdi»**.

(Zəccac)

Bəli, üsuluna uyğun edilmiş bir adayış dünyanın qədərini dəyişdirəcək bir sıra hadisənin də ilk səbəbi olurdu.

Hələ heç doğulmamış ciyərparasını nəzir deyən Hannə nə biləcəkdir ki, bu qurbanıyla bir tarixi tərs çevirib yeni bir tarix yazdığını?

Nə biləcəkdir dövr açıb, dövr bağladığını?

Nə biləcəkdir qurbanı Məryəmin insanlığı mat-məəttəl edəcək bir möcüzənin müxətibi olacağını?

Nə biləcəkdir bu hərəkətin İsa kimi bir «müjdənin» gəliş prosesini başlatdığını?

Və nə biləcəkdir duasıyla başlanan bu prosesdə Yəhya kimi bir nəbinin göndərilib sonunda Allahın nazil etdiyi ilə hökm etdiyi və bu hökmdən vaz keçmədiyi üçün qoç kimi boğazlanacağını?

O bunları bilmirdi. Yaşadığı müddətdə də bilmədi, bilməzdi də… Bunların heç birini görmədən nəzirini bütün şeytanların şərindən nəzir dediyi Böyük Qapıya ismarlamış, nəzirinin qəbul edilib edilmədiyi qayğısıyla çox keçmədən bu dünyadan köçüb getmişdi.

O bilmədi bunları. Zatan o bu əməli ağlla ilə deyil eşqlə, məntiqlə deyil, qəlblə etmişdi. Bu qədər şeyi bilsəydi ağlı eşqinə, məntiqi qəlbinə qalib gələrdi. Elə olsaydı qurban verməzdi, bəlkə də qurban verə bilməzdi. Bəlkə deyil, qətiyyən qurban verməzdi. Çünki onun qurbanı malından və vücudundan deyil, canından bir parça idi.

Əlbəttə, İlahi seçimin səbəbi bu idi. Çox açıq və aydın: «İmranın Zövcəsinin «Ey Rəbbim, bətnimdəkini Sənə tamamilə azad biri olaraq nəzir edirəm. Bu nəziri məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!» dediyi zaman….» «Allah (…) İmranın ailəsini seçib aləmlərə üstün etdi».

Təqdirində boşluğa və təsadüfə yer olmayan Allahın dəyişməyən sünnətiydi bu.

İlahi seçimlərin göstərişi idi bu.

Allahın seçimində diqqətə aldığı ünsürlərdən ən təsirli nümunəsi idi bu.

Böyük dəyişikliklərin böyük lütüflərlə, böyük lütüflərin böyük fədakarlıqlarla gələcəyinin işarəsidir bu.

Övladlarını Allahın qapısına deyil, saxta qapılara, müasir ilahlara, dünyaya, məqama, pula, qadına, ağa və sarıya qurban verən bir toplum nə üçün və necə qurtulsun?

Əlbəttə, belə bir toplumda öndərliyin ölçüsü elm, iman, əməl, ixlas və fədakarlıq deyil, lağlağılıq, hoqqabazlıq, şarlatanlıq, şöhrət, rütbə kimi saxta ölçülər və saxtalaşmış qəlp dəyərlər olacaqdır.

İslami öndərliyə namizəd olacaq fidanlar qurumuşsa, saxta fidanların cəzb edici, rəngli plastik meyvələrinə cani – dildən sarılanlar deməli ki, aldanmağa layiq olmuşlar. Hələ üstəlik özünü övladlarına, övladlarını isə üç günlük keçici dünya mənfəətinə qurban verib, Allaha da təqaüdə çıxdıqdan sonra ibadət edəcəklərini söz verənlərin «şüurlu mömin» sayıldıqları toplumlarda….

# İKİNCİ MƏRHƏLƏ:

## AZAD OLARAQ ADAMAQ

**Niyə «İmranın Zövcəsi»?**

**«İmranın Zövcəsinin «Ey Rəbbim, bətnimdəkini tamamilə azad biri olaraq yalnız Sənə nəzir etdim. Məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!» dediyi zaman….»**

Bu ayə adayışın (nəzir vermənin) timsalı İmranın Zövcəsi Hannənin dilindən verilmişdir.

Quran əsas üslubuna sadiq qalaraq bu mövzuda da açıqlama vermədən sadəcə «İmranın Zövcəsi» deməklə kifayətlənir.

Bu qadının adı nədir? Quran bunu bildirmir. Eyniylə bu ibrətamiz hadisənin harda, nə zaman yaşandığını bildirmədiyi kimi digər bir sıra xırdalıqları da açıqlamır.

Niyə açıqlamır?

Səbəbi bəlli. Üslubullah. Allahın üslubu açıq və aydın. Gərəksiz xırdalıqlardan və diqqəti dağıda bilən şeylərdən qaçınılır. Bəlkə də Quranı bir tarix kitabı kimi oxumaq istəyənlərə fürsət verməmək üçündür. Təbii ki, bütün tarixlərin şirəsi Qurandadır. Bu bir həqiqətdir. Bəzən zaman, məkan və ad bildirmədən hadisələri anladır. Bildirdiyi zaman da üslubuna sadiq qalaraq «firon» deyər, «nemrud» deyər, «tağut» deyər. Halbuki, nə firon, nə də nemrud xüsusi isimlər deyil. Bu adamların adları var: Vəlid ibn Reyyan, Ramses, Kevş və s. bu kimi.

Quran nədən belə edir? Əlbəttə, zamanlar, məkanlar və hadisələrüstü mesajını müəyyən tarixlərlə, müəyyən məkanlarla, müəyyən adlarla çərçivələndirməmək üçün. Ya da bəziləri bunlardan çıxış edərək ayələri tarixə həbs etməsinlər deyə.

Nemrud və firon adları ümumi adlardır. Farslarda şah, Ərəblərdə məlik, Türklərdə xan və xaqan, Avropada kral nə məna daşıyırsa bu da elə. Yəni Quran onların adını, tarixini, yerini bildirməməklə bu tipləri ümumiləşdirmişdir. «Nemrud» deyincə adı Kevş ibn Kənan olan, «Firon» deyilincə adı Vəlib ibn Reyyan ya da Ramses və s. olan iqtidar sahibləri ağla gəlməsin. İnsanlar adlarının nə olmasından asılı olmayaraq öz zamanlarında və çevrələrində bu tiplərlə əxlaq, davranış və inam baxımından oxşar tiplər görsələr onları asanca tanıyıb seçə bilsinlər deyə.

Daha açığı hər zamanın, hər dövrün, hər bölgənin özünəməxsus nemrudu və ya nemrudları ola biləcəyi məlum olsun deyə. Və təbii onlara qarşı Musalar və İbrahimlər də olacaq.

Bu səbəbdən də Quranın anlatdığı müsbət və mənfi tiplər cahanşümul tiplərdir. Əbu Bəkrin, Əlinin, Ömərin, Osmanın, Aişənin, Xədicənin (Allah hər birindən razı olsun) adlarını Quranda tapa bilməzsiniz. Əbu Cəhlin, Ümeyyənin, Abdulla ibn Ubeyyin adlarını tapmadığınız kimi. İstisnalar da var: Səhabələrdən yalnız Zeyd və müşriklərdən yalnız Rəsulun əmisi Əbu Ləhəb. Onlar həqiqətən müstəsnadır və adlarının Quranda verilməsi bir hikmətə tabedir.

Quran çox nadir hallarda xırdalıqlara da toxunur. Təqdim etdiyi xırdalıqların da insanlar üçün bir fitnə səbəbi edildiyini də söyləyir. Məsələn Əshabı-Kəhfin sayı və Müddəssir surəsində keçən «on doqquz» rəqəmi kimi. Birincisi keçmiş zamanların fitnəsi idi, ikincisi dövrümüzün fitnəsi. Allahın dininə və Kitabına deyil, «19»a iman edənlər bu fitnənin tələsinə düşmüşlər.

Quran bu üslubundan insanların diqqətini dağıtmamaq üçün də istifadə edir. Problem kimin etdiyindən çox nə etdiyinə diqqəti çəkməkdir. Yaxşıdırsa hər kəs üçündür. Quran tədqiqat obyekti kimi üzərində araşdırılma aparmaq, ixtisas artırmaq, dissertasiya yazmaq, akademik karyera qazanmaq üçün deyil, iman və əməl ediləcək bir həyat kitabıdır. Quran bu üslubu bu səbəbdən seçmişdir. Buna görə də sələf «alim» deyilincə, Quranı oxuyub, anlayıb, yaşayıb, yaşadanı anlamışlar.

Qərbdə mülhəm [21] pozitivizm [22] elm anlayışında alim

---

[21] *İlhama gəlmiş, ilhamlanmış*

«teoloq»dur, yəni «ilahiyyatçı»… Din sanki dəzgahdan satışa çıxarılmaq üçün araşdırılır. Bu elmin fəlsəfəsinə görə Quran və sünnət iman mövzusu olaraq deyil, ixtisas, tədqiqat obyekti, akademik karyera mövzusu kimi araşdırılır. Quranın üzərində işləyərkən vəhyin ağıla və qəlbə toxunmaması üçün xüsusi səy göstərilir. Həkimlərin əməliyyat zamanı geyindikləri əlcək, maska, önlük kimi dezinfeksiya edilmiş qoruyucu ləvazimatların qarşılığı olan müccərəd şeyləri müasir din tədrisində insanın qəlbinə, beyninə, şüuruna, bəsirətinə keçirirlər. Və nəticədə Qurandan, onun ruhundan, həyat fəlsəfəsindən, hidayət və nurundan bu «ilahiyyatçı»lara heç bir şey toxunmaz. Bağlama içində gələr, bağlama içində gedər. Quran, onun mənliyinə, xarakterinə, özünə və üzünə, duyğusuna və düşüncəsinə, evinə və çevrəsinə, xanımına, övladına, bir sözlə həyatına təsir etməz. Ayələrin arasında kəndirbazlıq edib, jonqlyorluq edər, yaxud ayələrlə jonqlyorluq edərlər. Bu tip, «Quran mütəxəssisi»dir. Söz yerinə dilindən «məal» axar. Tapmaca yozur kimi zövqlə açar ayələri:

**«Sən onları gördükdə cüssələri xoşuna gəlir (çünki zahiri görünüşləri gözəldir), danışanda (gözəl danışarlar) sözlərinə qulaq asırsan. Onlar, sanki (bəzədilmiş) kötüklərdir.»** (63/4)

Bəli, «İmranın Zövcəsi» deyir Quran. Ad vermir. Xırdalıqlarını bilmək istəyirsənsə tarixə baş vuracaqsan, başqa qaynaqları öyrənəcəksən. Müraciət edirik və o qaynaqlar da bizə bu qadının adının «Hannə» olduğunu söyləyirlər. Biz bunu bilməklə sadəcə «məlumat» əldə etmiş oluruq. Qurana şübhə ilə baxan münkirlərsə tarixin xırdalıqları təqdim etməsi qarşısında istər-istəməz hadisənin tarixi gerçəkliyini qəbul etmək məcburiyyətində qalırlar.

Quranın «İmranın Zövcəsi» deməsi sırf bu səbəbdən olmamalıdır. Yuxarıda incələdiklərimiz «niyə belə deyilmədi» sualına cavab ola bilər. Bir də hadisənin «Niyə İmranın Zövcəsi adlandırıldı?» bölümü mövcddur ki, Quranın bəyanındakı ilahi ixtisarın aydın olması üçün bu suala cavab tapmaq lazımdır.

Quran «İmranın Zövcəsi» deməklə, bizcə ilk iki məqama diqqət çəkir:

---

[22] *(fr. positivisme, lat. positivus- müsbət) Konkret (empirik) elmləri həqiqi biliyin yeganə mənbəyi sayan və fəlsəfi tədqiqatın idrakı əhəmiyyətini inkar edən fəlsəfi cərəyan*

1. Bu hərəkəti edənin bir qadın olduğu gerçəyinə, yəni şəxsən ananın adayış əməlini gerçəkləşdirdiyi gerçəyinə diqqət çəkilir ki, burada da düşünənlər üçün bir çox hikmətlər vardır. Atanın övladına olan hissi bağları ilə ananın övladına olan hissi bağları arasında birə üç fərq var: ata ideoloji hərəkət edə bilər. Bu səbəbdən övladını ata bilər, ondan imtina edə bilər. Amma nə olursa olsun ana bunu etməz, edə bilməz. Beləliklə, burda öz ciyərparəsini bağışlayan bir qadın, yəni bir anadan söhbət gedir.

Daha sonra aydınlaşdıracağımız kimi bu hadisələrin cərəyan etdiyi zaman kəsiyi, kişilərin bütləşdirildiyi qadının aşağılandığı bir zaman kəsiyi idi.

Allah bu fövqəladə əməli həyata keçirənin qadın olduğunu vurğulamaqla sahib olduğu müdhiş imkanları qadınlara bir daha xatırladır. Allaha yaxınlaşmaq istəyən, Onun üçün bir şey etmək istəyən, Onun yolunda bir şey vermək istəyən, Onu razı salmaq istəyən, bunun üçün də Müsəlman kişinin qarşısındakı imkan bolluğuna həsəd aparan qadına öz əlindəki imkanlar xatırladılır. Deyilir ki, «nədən kişilərin feli cihad və maddi infak vasitələrinə gözünü dikib durursan? Allahı razı etmək üçün sənin də özünə məxsus imkanların var. Qulluq yarışında irəli keçmək üçün kişinin ərazisinə girməyinə, öz ərazini daraltmağa lüzum yoxdur. O imkan artıqlaması ilə sənin də əlində var!...»

Qadına, əlindəki imkanlardan istifadə etdiyi təqdirdə «xeyir yarışında» Müsəlman kişidən heç də geri qalmayacağı, hətta rahatlıqla keçəcəyi öz qaynaqları xəbər verilir.

2. «İmranın Zövcəsi» tamamlığının «tamlayan»ı olan «İmran» həqiqətən də hadisənin tamamlayıcısı, bütünləşdiricisidir. Qadına yuxarıda izah etməyə çalışdığımız orjinal qaynaqları xatırladarkən, bu qaynağa sahib olması üçün də hadisənin tamamlayıcısı olan «kişi» xatırladılaraq bir «ailə» önə çıxarılır. Ailənin rəisi və adayan Hannənin ərinin adı zikr edilərək mövzu tarazlaşdırılır. Hadisələrin qəhrəmanı Hannənin ismi deyil, cinsiyyəti diqqətə çəkilməklə kifayətlənilir. Bununla da bitmir, hadisənin baş qəhrəmanı, hadisə daxilində arxa planda qalan İmranın adına nisbət edilir: «İmranın Zövcəsi»...

Beləcə örnək ailə modeli önə çıxarılaraq «Ali-İmran» tərkibində etalon ailə modeli diqqətə çatdırılır. «İmran ailəsi»

deyiminin önə çıxardılmasının bir başqa hikməti də belə bir əməlin gerçəkləşməsinin cəmiyyətin bünövrə daşı olan örnək ailə modelinin gerçəkləşdirilməsiylə mümkün olacağı həqiqətidir.

«İmranın Zövcəsi», adının ölümsüzlər Kitabına qeyd etdirəcək adayış məktəbini «Ey Rəbbim, bətnimdəkini tamamilə hür biri olaraq yalnızca Sənə adadım» deyərək gerçəkləşdirir. Hannə bu əməli gerçəkləşdirərkən heç şübhəsiz həyatda sahib olduğu ən dəyərli varlığını verdiyinin şüurunda idi.

Tarixdən də məlumdur ki, qurban verilən bu dəyərli varlıq yeganə idi. Yəni «nəzir», Hanənin uzun illərin həsrətindən sonra sahib olduğu tək ciyərparəsi idi.

Bu sahib olmaq, adi, normal bir sahib olmaq da deyildi. Övladsız keçən bir ömürdən sonra, son anda bir dua nəticəsində Rəbbi tərəfindən bağışlanmışdı. Bu səbəbdən Hannənin adadığı övladın onun gözündəki qədri–qiyməti də bir başqa idi.

Hannə də onun duasını qəbul edən, ixtiyar yaşına nisbətən ona övlad verən Allaha təşəkkür etməyin, verilən nemətin davam etməsinin hətta, daha da artmasının şərtlərindən olduğunu bilirdi.

İkrama[23] ikram gərəkdir, Lütfə şükür, nemətə təşəkkür gərəkdir. Hannə bu fövqəladə nemətin əvəzində Rəbbinə necə təşəkkür etməli idi? O bilirdi ki, Allah heç bir şeyə möhtac deyil, acmaz, susamaz, darda qalmazdı…

Lakin o yenə bilir və inanırdı ki, Allahın dininə, beytinə, kitabına, yəni Onun sevdiklərinə xidmət birbaşa Allaha xidmətdir. Bu səbəblədir ki, əslində yardıma ehtiyacı olmayan Allah, möminlərə yardım bəhanəsi olmaq üçün insanları belə ilahi dəyərlərə yardıma çağırırdı: **«Ey iman gətirənlər! Əgər siz Allaha yardım etsəniz, O da sizə yardım edər, addımlarınızı möhkəmlədər və sizi sabitqədəm edər»** (47/7)

## Hannə: Fədakarlıq abidəsi

Şübhəsiz ki, Hannə nəzirin O qapıya verməsinin lazım olduğuna inanmışdı. Lakin İmranın Zövcəsinin gerçəkləşdirdiyi bu fövqəladə əməlinin necə böyük bir fədakarlıq olduğunu daha yaxşı

[23] *(ər) Hörmət, təzim, əzizləmə, hörmət, nişanəsi olaraq bir şey bağışlama*

anlaya bilməyimiz üçün bu əməli hansı şərtlər altında gerçəkləşdirdiyinin təhlilini də düzgün aparmağımız vacibdir.

Qarşımızda iki seçim var: Hannə (1) Ya malı, mülkü, sərvəti olan biri idi, (2) Ya da heçbir şeyi olmayan biri.

I vəziyyətdə İmranın Zövcəsi Allah üçün verə biləcək başqa şeyləri olduğu halda, onlar vasitəsilə deyil, sahib olduqlarının ən dəyərlisini verməklə Rəbbinin rizasını qazanmağı ümid etmişsə, bu fədakarlığın zirvəsidir.

Bu vəziyyətdə, o bilirdi ki, qiymətli məqamlara qiymətli hədiyyələr təqdim olunur. Fədakarlığın dərəcəsinin sevgi və itaətin mükəmməl ölçüsü olduğunu da bilirdi. Bu halda çox sevdyi Rəbbinə olan itaətini layiq bir şəkildə isbat etməlidir. O bilirdi ki, böyük lütüflərə böyük təşəkkürlər gərəkir və böyük təşəkkürlər daha böyük lütüfləri doğurur. Təşəkkürün məqbulu isə yalnız dil ilə deyil, həm dil, həm hal, həm əməl ilə olandır. Və yenə bilirdi ki, bir nemətin şükrü ödənməyincə sahibi üçün min bir bəlaya dönə bilər.

Bunları bildiyi üçün başqa adaya biləcək şeyləri, malı, mülkü, sərvəti olmasına baxmayaraq, əlində olanları Onun qapısına layiq görmür, Ona olan itaətinə və sevgisinə layiq başqa bir hədiyyə düşünə bilmir, yaraşdırmır və sahib olduğu şeylər içərisindən ən qiymətli olanını (ciyərparəsını) seçib qurban verir. Qısacası, malından bir parçanı deyil, canından bir parçanı verir.

II vəziyyətdə, yəni həyatda sahib olduğu tək varlığı, hələ üzünü belə görmədiyi bətnindəki körpəsini nəzir verə bilibsə, bu birincisindən heç də az fədakarlıq deyildir.

Bu halda da ən azı birinci vəziyyətdəki kimi böyük fədakarlıqdan söhbət gedir. Bu isə fövqəladə bir sədaqət və sevgi ifadəsidir. Real olaraq övladının olması mümkün deyil. Çünki, yaşı çox ötmüşdü. Bu gerçəyə rəğmən Allahın hər şeyə qadir olduğuna inanmış və istəmiş, Allah da ona – (tərif yerindəsə) – fövqəladə bir lütf olaraq vermişdi bu uşağı. Yəni hər kəsdən fərqli bir münasibətə müxətib olmuşdu. Bu fərqli və qeyri-adi lütfün fərqli bir təşəkkürü olmalıydı. Hannə də onu etdi. Gözünü qırpmadan bağışladı. Heç bir şeyi olmasa da bağışladı.

Ağıllı iş gördü. Hər şeyin gerçək sahibi Allah deyilmi? **«O-ndan gəldik və yenə də O-na da dönəcəyik!»** (2/156), «**Hər şey**

**fani olacaq yalnızca O-nun rizası baqidir»** (55/27). «**Mülkün gerçək sahibi O-dur»**, **«Yerdə, göydə və o ikisinin arasında olanların sahibi O-dur»,** Dünya həyatı və bu həyatın övlad, mal, can və s. kimi aksesuarları? Onların hamısı **«azacıq bir mənfəətdir»,** (3/197) **«Mal – dövlətiniz və övladınız sizin üçün ancaq bir imtahan vasitəsidir»** (8/28), Hər şeyin sahibi «nəfsinizi və ailənizə atəşdən qoruyun» deyə əmr edir. Hannə də ciyərparəsını Rəbbinə nəzir deməklə nəfsini və övladını atəşdən qorumuş, Onun verdiyi əmanəti Ona əmanət etməklə ağıl sahibi olduğunu sübut etmişdir.

Bəli, O-nun olanı O-na verdiyi üçün ağllı bir iş görmüş oldu. Övladını ən böyük Tərbiyəçinin tərbiyəsinə verməklə ağıllı hərəkət etdi. Başqa heç bir gücün O-nun kimi qoruya bilməyəcəyi əmin bir qapıya verməklə ağıllı iş gördü. Özünü və əhlini atəşdən qorumağın ən zəmanətli yolunu seçməklə ağıllı hərəkət etdi.

İmranın Zövcəsi bu əməli gerçəkləşdirmişdi. Ayənin davamından da aydın olduğu kimi nəzirini təqdim etmiş, təqdim etdiyi qapı tərəfindən də qəbul edilmişdi. Amma qəbul edilməsinin sirri olaraq ayədə iki məqama diqqət çəkilir.

1. Tamamən hür (azad) biri olaraq (muharraran) adamaq.
2. Adadıqdan sonra təvazökarlıq və ədəblə «Bunu məndən qəbul et» deyə yalvarmaq.

### «Muharraran»

Ayədə keçən, «tamamən hür (azad) biri olaraq» şəklində türkcələşdirdiyimiz «muharraran» kəlməsi, nəzirin qəbul edilməsinin açar termini kimi durur qarşımızda.

«Muharraran» üçün əvvəlkilərin nə dediyinə qısa şəkildə nəzər yetirək:

*İbn–Abbas; «Yalnız və yalnız məbədin xidmətinə verdim» deyə təfsir edir. (Buxari)*

*Mücahid; «Sadəcə Allah yolunda xidmət üçün, heç bir dünyəviliyə qarışmadan, xalis şəkildə» deyir,*

*Şabi; «İbadət üçün farağat durmaq və imtina etmək» anlamına gəlir - deyir,*

*Süddi; «Dünya üçün çalışmamaq» deyir.*

*Rebi; «Nəzirinin qəbulunu zəmanətə almaq üçün» deyir,*

*Beqavi; «Muharrar»ı «hər cür qayğıdan qurtarmış olan» şəklində açıqlayır.*

*Kurtubi; «Tamamilə azad olan bir övlad nəzir verdim» mənasına gəlir - deyir.*

*İbni Arabi, qəribə bir nəticəyə gəlib Hannənin azad deyil cariyə olabiləcəyi fərziyəsini irəli sürür.*

*İkrimə, «Dünyanın bütün narahatçılıq və qayğılarından uzaq olaraq Yalnız Sənin yolunda nəzir verdim» anlamını verir.*

İstisnaları olmasına baxmayaraq bütün bu fərziyyələr əslində bir–birini təkzib etmir, və ya da bir-birindən fərqlənmir. Əksinə bir–birini tamamlayır və əsas məğzi də: İmranın Zövcəsi yeganə körpəsini bütün qayğılardan azadə, xalis bir niyyətlə, heç bir dünyəvi qarşılıq gözləmədən, başqa qapıya deyil, yalnız və yalnız Allaha nəzir verir.

Nəzir verərkən Allahla sövdələşmir, yəni yəhudiləşmir. Bazarlıq etməməyi bir yana, yalvararaq «Bunu məndən qəbul buyur» deyərkən nəzirinin qəbul ediləcəyinə dair heç bir zəmanətin olmadığını da yaxşı bilir.

İbn Arabinin təbiri ilə desək onun nəziri «əbrar[24] və ahrarın[25] nəzir verməsidir. Yəni nəzirin zirvəsidir… Məgər elə deyilmi? Varlıqların ən dəyərlisinə, ən dəyərli varlığını, ən çox möhtac olduğun bir zamanda, ən xalis niyyət və ən mükəmməl bir üsulla nəzir verəcəksən.

*Yalnız Ona nəzir verəcəksən.*

*Heç bir qarşılıq gözləmədən nəzir verəcəksən.*

*Nəzir verərkən sövdələşməyəcək.*

*Nəzir verib, bir də rica edəcək, yalvaracaqsan «məndən qəbul et» deyə.*

Nəzir verdikdən sonra dönüb verdiyinin dalınca baxmayacaqsan. Sadəcə qovulmuş şeytanın şərindən Ona ismarlayacaq, qarşılıq gözləmədən Ona təslim edəcəksən…

Beləliklə, nəzirin zirvəsi və bütün zamanların ən mükəmməl nəzir nümunəsi…

---

[24] *doğruçu adam, nəcib adam, müqəddəs adam.*

[25] *azad adamlar, hürrün cəmi*

İçində yaşadığı şərtlər altında belə bir adayışı gerçəkləşdirməsi üçün İmranın Zövcəsinin «hür» olması, həm natamam deyil, tam bir hürriyyət içində olması lazım idi.

Bu hürriyyətdə məqsəd cismani hürriyyət deyil. Əlbəttə, işin içinə o da daxildir. Amma əsl azadlıq yemək – içmək – yatmaq azadlığı deyil, yəni ətin və sümüyün azadlığı deyil, duyğu və düşüncənin, imanın və ruhun azadlığıdır. Özünü hür sayan və beynəlxalq standarlara görə də hür sayılan o qədər insan var ki, bütöv bir ömrü kölə olaraq, məhbus olaraq, kor olaraq keçirməkdədir və əslində bundan heç xəbəri də yoxdur. Beləliklə köləliyin bu növü ən çox yayılmış və ən pis olanıdır. Və təbii ki, azadlığın bu növü azadlıqların ən gerçəyi və ən dəyərlisidir.

İnsanın yeganə varlığını, canından bir parçasını, üstəlik bu şərtlər altında nəzir verə bilməsi belə «kamil» bir azadlığı gərəkli etmirmi?

Verə bilmək üçün sahib, adaya bilmək üçün azad olmaq gərəkdir. Verəcəyinizin sahibi deyilsinizsə necə verəcəksiniz? Verməniz gərəkən şey sizin sahibinizsə onu  necə verəcəksiniz? Zatən siz özünüzü nəzir verməli olduğunuza vermisinizsə, onu bir də başqasına necə verə bilərsiniz?

İnsanlar verə bilmirlərsə verməli lazım olan şeylərin həqiqi sahibləri olmadıqlarındandır. Əksinə o şeylər insanların sahibi olmuşdur.

İnsanlar qurban verə bilmirlərsə, Allahın yoluna qurban vermək əvəzinə öz həyatlarını o ölümlülərin yoluna qurban verdikləri üçündür. Bir ömür boyu bütün varlığını, bütün enerjisini, qazandığı nailiyyətlərini «istiqbalını xilas etmə» yalanı altında imtahan vasitəsi olan övladlarının və əhlinin ya da öz nəfsinin ən yaxşısını yemək, ən yaxşısını geymək, ən gözəl yaşama şərtlərinə, qısacası zövq və səfasına və mirasına qurban verənlərin, bu dəyərsiz qurbanlarıyla İmranın Zövcəsinin ülvi qurbanı arasındakı dərin fərqi düşünün.

İmranın Zövcəsi də bir insandır. Onu da dünyaya bağlayan xırs[26], nəfs, şeytan kimi şeylər vardır. Fəqət Hannə bu fövqəladə əməli gerçəkləşdirmək üçün bir anda bir çox bağlardan xilas

[26] *(ər.) tamah, acgözlük, qəzəb, hiddət, acıq, şiddətli arzu,*

olmaq, bütün əsarətlərdən azad olmaq, bir çox zəncirləri qırmaq məcburiyyətində idi.

## Zəncirləri qırmaq

İndi də onun xilas olmaq məcburiyyətində olduğu bağların və qırmaq məcburiyyətində qaldığı zəncirlərin mahiyyəti üzərində düşünək. Bunları iki başlıq altında toplamaq olar: daxili təzyiq və xarici təzyiq.

1. Daxili təzyiqdən hürriyyət: - İnsanın qulluğu önündə bir çox əngəllər var. Bunları siniflərə böldüyümüz zaman qarşımıza iki növ əngəl çıxır. Bunların birincisi insanın yaradılışından qaynaqlanan daxili əngəllərdir ki, şübhəsiz bunların başında nəfs və şeytan durur. İnsanın əbədi və əzəli düşməni olan şeytanın insanı doğru yoldan uzaqlaşdırmaq üsulları çox müxtəlifdir. Quranda buyurulduğu kimi Allahın «doğru yoluna oturub» (7/16) o doğru yolda, hədəfə doğru gedənləri geri döndərməyə, bacara bilməsə əngəl olmağa, onu da bacarmazsa zəiflətməyə və yolda oturtmağa çalışır.

Əlbəttə, İmranın Zövcəsi də Allahın doğru yolunda yürüyərkən şeytanla qarşılaşmışdır. Və əlbəttə ki, şeytan onun bu fövqəladə əməlini boşa çıxartmaq üçün də çox səy göstərmişdir.

Məsələn ona öndən yaxınlaşaraq «Sən yalnız bir qadınsan. Yoldaşın da çox yaşlıdır. Bu yaxınlarda ölə bilər. Ahıl yaşında təkbaşına nə edəcəksən, gəl bu işdən vaz keç» deyə bilər.

Ya da arxadan yaxınlaşaraq, ona ruzi narahatçılığı çəkdirmək üçün «Ac qalarsan, açıq da qalarsan. Kim baxacaq sənə? Həm öz istiqbalını təhlükəyə atırsan, həm də övladının istiqbalını…» deyə bilər.

Sağdan gələrək «Gözlə, qoy hələ bir doğulsun, böyüsün, böyük adam olsun. Oxut onu, diplomu, ünvanı, şöhrəti olsun. Müdir olsun, rəis olsun, hətta nazir belə ola bilər. O zaman İslama daha çox xidmət edər, elə deyilmi. Bir düşün, mövqeyi nə qədər böyük olarsa, xidməti də o qədər böyük olmazmı?» deyər.

Soldan yaxınlaşaraq «Qurban verəcək başqa bir şey tapa bilmədinmi ki, yeganə övladını qurban verirsən? Sağında, solunda bu qədər bilikli, bu qədər uzaq görən insan var. Sən

onlardan daha yaxşımı biləcəksən? Bax, heç biri sənin kimi övladını Allaha nəzir vermədi. Filan əhbarın üç, filan ruhaninin beş, filan alimin də yeddi uşağı var. Səninki isə bir dənədir. Həm də Allahın sənin nəzirinə ehtiyacı varmı ki? Dünya mehvərindən çıxdı, onu sənmi düzəldəcəksən?» deyər.

Üstdən yaxınlaşaraq «Sən zatən müttəqi, qəlbi təmiz, iffətli, namuslu, abid, zahid, dini kamil bir insansan. Sənin günahın varsa mənim olsun. Cənnətə sən girməyəcəksən, kim girəcək? Üstəlik Allah vəziyyətini də bilir. Yalnızsan, istiqbalda övlada möhtacsan, xəstəlik var, qocalıq var. Yalançı dünyanın min bir halı var. Düşməyən bilməz» deyər.

Altdan yaxınlaşaraq «Bir az məntiqli ol, ağlından istifadə et, nə şiş yansın, nə kabab. Allahın haqqını Allaha, Sezarın haqqını Sezara ver. Orta bir yol tut, təmkinli, mötədil bir müsəlman ol. Həm də həddi aşmamağı tövsiyə edirəm» deyə bilər.

Təbii şeytan və şeytanlar, onların daxili və xarici dostları bütün bunları və burda saya bilmədiyimiz daha nələri deyərək, hər saleh qula etdiklərini yəqin ki, ona da etmişlər.

Beləliklə, Hannə bütün bu zəncirləri qoparaq içindən (və çölündən) gələn bu kimi məntiqli, parlaq, cazibəli səslərin hamısına qulaqlarını tutub ona atılan hər kəməndi, imanından qaynaqlanan bəsirət və fərasətinin yardımı ilə boşa çıxardır, duyğu və düşüncəsinə keçirilməyə çalışılan butun zəncirləri qırıb hürləşir və «Rəbbim…» deyir…

2. Xarici təzyiqdən hürriyyət: Fərd üzərindəki iki cür təzyiqdən ikincisi isə xarici təzyiqdir. Xarici təzyiq çox müxtəlifdir. Lakin xarici təzyiqin ən bariz nümunələri olaraq toplum, mədəniyyət və ənənə təzyiqini göstərə bilərik ki, bunların hər biri də «mühit» başlığı altında dəyərləndirilə bilər.

İmranın Zövcəsi olduqca eqoist və mənfəətpərəst olan yəhudiləşmiş İsrail oğulları toplumu içərisində yaşayırdı. Fərz ibadətlərində belə Allahla sövdələşməyə qalxan, din və onun hökmlərini özləri üçün bir ticarət məqsədinə çevirmək xüsusiyyətindəki qabiliyyətləri ilə məhşur olan belə bir toplumda Hannənin əməli əlbəttə çox diqqət çəkəcək və əks reaksiya ilə qarşılanacaqdı.

Sözügedən çevrənin reaksiyasının iki ölçüsü var idi: birincisi

dini, ikincisi sosial-mədəni.

Dini ənənədə Allahın evinə nəzirin şərtləri təyin edilmişdir. Bu şərtlərə görə nəzirin erkək olması vacib idi. Qız nəzir verilmirdi. Hannə bu növ reaksiyaya hələ uşaq doğulmadan məruz qalmış, əri onu bu səbəbdən qınayıb, danlamışdı. Hətta rəvayətlərə görə, toplumun dini öndərlərindən olan əri İmranın ölümünə də övladının qız doğulacağı təqdirdə, dini mühitdən gələn reaksiyalara dayana bilməmək ehtimalı səbəb olmuşdu (Beqavi). Lakin Hannə belə güclü, təsirli əks reaksiyaları lap başdan gözə almış və sonuna qədər çəkinmədən sinə gərmişdir. Yəni Hannə çevrənin təzyiqinin birinci növü olan dini ənənə zəncirini lap başından parçalamış və hür olmuşdu.

İmranın Zövcəsinin çevrə zəncirinin qırdığı ikinci böyük halqası isə cəmiyyətə xas mədəniyyət qanunlarıdır. Hadisənin baş verdiyi Fələstin məkanında həmin tarixi dövrlərdə Roma hegemon idi. Təbii olaraq Romanın patriarxal ailə modelinin nümunə olduğu toplumda qadın aşağılanan bir varlıq idi. Heç bir sosial hüququ yox idi. Bu ictimai sahədə olduğu kimi ənənəviləşmiş dində də belə idi. Rəbbi ilə qul arasındakı münasibətlərdə belə cinsiyyət fərqi, daha doğrusu cinsi tərəfkeşlik var idi. Hətta axirətdə, erkəyə sırf erkək olduğu üçün qadından fərqli haqlar tanıyan bir din anlayışı inkişaf etdirilmişdir. Allah toplumdakı bu cinsi tərəfkeşliyini yıxmaq və erkək bütünü qırmaq üçün baş rolu oynayan qəhrəmanların ikisinin də qadın olduğu (Hannə və Məryəm), İlahi bir ssenarini dünya səhnəsinə çıxarmışdı.

Bu kütləvi mədəniyyətə vurulan - Hannə və nəzir qadın Məryəm silləsinin ardından daha böyüyü gələcəkdir. O da qadının verdiyi nəzir qadına ATASIZ bir erkək verilməsidir. Bu fövqəladə möcüzənin bir çox hikmətlərindən biri də, kişini bütləşdirib, qadını əşyalaşdıran və bu günkü Qərb mədəniyyətinin də atası olan bütpərəst Roma mədəniyyətinə İlahi bir etiraz cavabıdır.

Hannə sözügedən bu daxili və xarici qaynaqlı zəncirləri parçalayıb «tamamilə hür biri olan» nəzirini Rəbbinə təqdim etmişdir.

Hannə həqiqi hürriyyətin Allaha tam təslimiyyat olduğunu

çox yaxşı bilirdi. Özündən sonra gələn insanlara həqiqi hürriyyəti öyrətmək üçün, əvvəlcə bütün nəfsani, şeytani, fərdi, ənənəvi topluma məxsus əlaqə və zəncirləri qıraraq, Allaha təslim olub hürləşdi; sonra da övladını Onun tərbiyəsinə, qoruyuculuğuna verərək hürləşdirdi. O bilirdi ki, Allahdan qeyrisinə qulluq edənlər hür ola bilməzlər. Hür olanlar isə sadəcə Allaha qul olurlar.

# ÜÇÜNCÜ MƏRHƏLƏ

## ƏDƏBLƏ NƏZİR VERMƏK

[redacted]

İş candan bir parçanı verməklə bitmirdi. İmranın Zövcəsinin bizlərə öyrətdiyi başqa bir məqam da, bir əməlin məqbul ola bilməsi üçün öyrənilməsi vacib olan proses və diqqət yetirilməsi önəmli olan formasıdır. «Saleh» olmaq keyfiyyətini qazanmadıqdan sonra Allahı razı etmək üçün «əməl» təkbaşına yetərli səbəb təşkil etmir.

Adayış prosesində İmranın Zövcəsi əvvəlcə iman etmiş, buna paralel olaraq da məşru[27] bir hədəf seçmişdir: Allahın razılığı. O hədəfə çatmaq üçün saleh niyyətlə bir əməl həyata keçirmişdir: Adamaq.

İndi isə bu əməlin «fasiq» ya da ən azından «fasit» (boş) olmaması üçün «məşru bir üsul» gərəkirdi.

O hansı qapı ilə ticarət etdiyinin təfəkküründə olduğunu tövrü[28] və sözləri ilə ortaya qoyur. Etdiyi fədakarlığın bir adı var: fövqəladə. Bu səbəblə öyünə, qürur duya bilərdi. Amma o, öyünmədi, qürur duymadı, bir şey etmiş kimi ədalanmadı. Allaha minnət qoymadı. Əksini etdi. Bütün Allah dostlarının, siddiqların, şəhidlərin, salehlərin etdiyini etdi… Həm verdi, həm yalvardı; həm nəzir verdi, həm də nəzir verdiyi qapının kəndarına üzünü sürtərək dedi:

**«(Rəbbim) məndən qəbul buyur!…»**

Əda yox. Əksinə həyəcan qarışıq qayğı ilə böyük qapının onun nəzirini qəbul edib–etməyəcəyini gözləyir. Birdən qəbul etməzsə? Bəli, birdən qəbul etmədi? Üstəlik O, heç qəbul etmək məcburiyyətində də deyil. Nəzir verdiyi dönəmdə Ona qarşı bir qüsur işlətmişsə? Bir xəta etmiş, bu müddətdə Allahın xoşuna

---

[27] *(ər) Qanuni, leqal, qanuna uyğun olan, şəriətə uyğun, şəriətcə icazə verilən*

[28] *(ər) surət, hərəkət, hal, əda,. tərz.*

gəlməyəcək bir söz demişsə?…

«Mən nəzir verdim. Qalanı Ona qalıb, istər qəbul edər, istər qəbul etməz» kimi laqeydliyi yox. Əksinə böyük bir təvazökarlıqla boynu bükülmüş bir halda:

**«Məndən qəbul et!… Sən eşidənsən, sən bilənsən!…»**

Bəli, O, səmidir, O, alimdir. Hannənin ürəyindən qopub gələn niyazı eşidir, nəzir əməlini həyata keçirə bilmək üçün dilə gətirməkdən belə çəkindiyi qayğıları bilirdi. Onun eşidən və bilən olması İmranın Zövcəsini təskin edən yeganə şey idi. Bu səbəbdən özünü də, üzünü də, sözünü də Ona tərəf çevirmiş və sanki Onunla danışır, sanki Ona içindəkiləri anladırdı:

**«Rəbbim bətnimdəkini…. Sən eşidənsən, bilənsən!»**

Hannə bütün bunları bəlkə özünün belə duya bilməyəcəyi bir şəkildə söyləyirdi. Elana, reklama ehtiyacı da yox idi. Söyləmək istədiyi bəzi şeylər var idi. Lakin onları söyləməyə nə dili dönür, nə gücü yetirdi. Əcəba söyləyərsə, Rəbbinə qarşı bir ədəbsizlik etmiş olardımı? Bəlkə bütün əməlini yelə verəcək bir lisan[29] xətası, qəlb dəyişkənliyi... Ən yaxşısı dilə belə gətirməməkdir. Necə olsa da «O, eşidir, O, bilirdi». Bu da Hannəyə yetər, hələ artardı da.

Hannə ilə Rəbbi arasında bütün bunlar olarkən bu əlaqəni yaradacaq «Cəbrayıl» kimi üçüncü bir vasitə yoxdur. O nə nəbi, nə də bir rəsul idi. Sadəcə adi bir mömindir. Nəzir verməsi, Rəbbi ilə əlaqə yaratması üçün belə bir şeyə ehtiyacı da yox. Çünki bilir ki, Rəbbi quluna şah damarından daha yaxındır. (50/16). Ondan sonra gələnlər ondan nümunə götürsünlər deyə, Hannə örnəyi peyğəmbərlər arasından deyil, adi möminlər arasından seçilmişdir.

Kim bilir, bəlkə nəzir verməməyə bəhanə tapıllmasın deyə.

[29] *(ər) Dil*

# DÖRDÜNCÜ MƏRHƏLƏ

## ADƏT – ƏNƏNƏLƏRİ TƏPƏLƏMƏK[30]

[redacted]

**«Dünyaya körpəsini gətirdiyi zaman «Ey Rəbbim! Mən qız doğdum. Erkək qız kimi deyildir»- söylədi. Halbuki, Allah onun nə doğduğunu yaxşı bilirdi. - «Mən onun adını Məryəm qoydum, onu və onun nəslini məlum Şeytandan Sənə tapşırıram»** dedi. (Ali – İmran, 36)

İmranın Zövcəsi Hannə nəhayət nəzirini dünyaya gətirirdi. Həm də yetim olaraq. O, bu adayış prosesində qarşısına çıxan bir çox maneələri aşıb bu nöqtəyə qədər gəlmişdi. Lakin qorxduğu, qəlbinin gizlinində saxladığı nigarançılığı başına gəlmişdi: Nəzir verəcəyi övladı qız doğulmuşdu. Böyük bir imtahanla üz–üzə dayanmışdı. İndi qarşısında iki böyük maneə var: birincisi təhrif edilmiş ənənəvi dinin əngəli, ikincisi cəmiyyətə xas adət–ənənələrin yaratdığı əngəl.

Təhrif edilmiş dinin yaratdığı əngəl: - Musa (ə)ın təmiz şəriətini təhrif edib onun yerinə öz işlərinə uyğun gələn bir din anlayışı yerləşdirən rəsmi – dini güc, uydurduqları bu ənənədə qadına heç bir yer vermirdi. Dini əllərində tutan bu rəsmi din adamları sinfi din adına qadını kiçiltmiş, onu cəmiyyətdən təcrid etmiş, Allahın qadın–erkək hər bir insan üçün göndərdiyi dini «erkəklərin dini» halına gətirmişlər. Bununla da kifayətənmyib o dini monopollaşdırıb xüsusi seçilmiş sinif dini (ahbar və ruhban) yaratmışlar. Bu şəkildə həm xalq üzərindəki hegemon hakimiyyətlərini qorumuş, həm də dini maddi gəlir vasitəsi etmişlər.

Heç şübhəsiz ki, Hannənin əri Hz.İmran, Quranın təriflədiyi dürüst və müttəqi ahbarlardandır. O sinfinin içində az da olsa tapılan saleh, fəzilətli, abid və zahid üləmalardan biri idi. Bunun

---

*[30] Başına qapaz vurmaq, darmadağın etmək,(Azərbaycan dilinin izahlı lüğəti 4-cü cild)*

üçün də Allah onun ailəsini seçmiş, «İmran» adını da Kitabında anaraq ölümsüzləmişdir.

Cəmiyyət içində də olduqca hörmətli və seçilmiş bir yeri olan İmranın bu sağlam düşüncəsinə rəğmən, mövcud dini ənənələrin qatı qanunları onu da qayğılandırmışdı. Onun bu narahatlığını, zövcəsinin bətnindəki körpəsini Allaha nəzir verdiyi xəbərini verdiyində, ona göstərdiyi reaksiyadan anlayırıq:

«Vay halına! Sən nə etdiyini bilirsən? Bətnindəki körpənin cinsinin nə olduğunu bilirsənmi? Körpə oğlan deyil, qız doğularsa bu işin içindən necə çıxarıq? (Beqavi)

İmran hər nə qədər camaatın imamı olsa da, illər boyu davam edən və din adamları sinfinin öz mənfəətləri üçün toxunulmaz etdikləri və müqəddəsləşdirilmiş ənənəyə qarşı çıxa bilməyəcəyini düşünməmiş deyildi. Həqiqətən də onun vəziyyəti çətin idi. Bir tərəfdə zövcəsinin Allaha verdiyi söz, digər tərfədə ənənəvi dinlə vuruşma təhlükəsi. Uşağın qız olma ehtimalı yüzün əlliyə nisbəti olsa da, bu sıxıntı İmranı yatağa salmışdı.

İbn İshak, Kəlbi və daha başqalarının nəql etdiyi bir rəvayətə görə İmran körpəsini görmədən, qəlbini sıxan bu üzüntüylə vəfat etmiş, Hannəni dul, Məryəmi yetim qoymudu.

Beləliklə, Hannə bu qayğını duyur və bu ənənənin onda buraxdığı təsirlə körpəsini dünyaya gətirən kimi, üzünü onu nəzir verdiyi qapıya çevirib üzür dilərcəsinə və üstəlik **«Rəbbi onun nə doğduğunu yaxşı bildiyi»** halda deyirdi ki:

***«Rəbbim, onu qız doğdum. Oğlan qız kimi deyil»***

Bu ayədə Allaha xitab edilərək «Rəbbi onun nə doğduğunu bildiyi halda» cümləsi başqa bir qiraətdə Hannəyə xitabən yenə mötərizə içi bir ifadəylə «Allah nə doğduğumu bildiyi halda» anlamına gəlir. Lakin tərcih edilən birinci oxunuşda olduğu kimi Allaha xitabən zikr edilməsidir. Bu qiraətin bir də Ərəb dili baxımından özəlliyi var. Məhşur forması ilə «vedaat» oxunduğu zaman «nəzir»ə təzim anlamı çıxar ki, bu diqqət çəkilməsi lazım olan bir nüansdır. Bu nüansın hesaba alındığı İbn Abbas qiraətindən bu məna çıxmaqdadır:

«Körpənin dəyərini sən təqdir edə bilmirsən. Belə ki, Allah onun həqiqi dəyərini bilir və təqdir edir»

Yəni «Sənin müdafiə etdiyin erkəklik - dişiliyin Allah nəz-

dində bir dəyəri yoxdur. Bu ölçü doğru bir ölçü deyil. İnsanların dəyərləri kişi və qadın olmalarından asılı deyil» Başqa bir tərəfdən; «Sənin «qız oğlan kimi deyil» sözün həqiqətdə doğru ilə yanlışın bir-birinə qarışdığı ənənənin bir töküntüsüdür. Haqq qatında dəyərin ölçüsü cinsiyyət deyil. Sənin bilmədiyin və təqdir edə bilmədiyin daha başqa şeylərdir», deyilmək istənilmişdir. Bu seçimlərdən heç biri nəticəni dəyişmir. O da budur: Doğuşda qız dünyaya gətirən Hannənin narahatçılığı, üzüntüsü və üzr istəyən tövrü ən azından yersiz və lüzumsuz olması Allah tərəfindən vurğulanır. Bu da mövcud ənənənin Allahın istədiyi istiqamətdə olmadığını, körpənin qız olması hikmətlərinin başında da bu mövcud ənənənyə qarşı etiraz reaksiyasının olduğu bildirilir.

Cəmiyyətə xas ənənəvi əngəl: Hannə; «Rəbbim onu qız doğdum. Oğlan qız kimi deyil», deyərkən təbii içində yaşadığı toplumun qınaqlarından təsirlənmişdir. Belə ki, bu fikri tabiin alimlərindən İkrimə və Katadedən gələn rəvayətlərdə olduğu kimi qadının yaradılış etibarilə bəzi hallarda kişidən zəif olmasına, heyz, nifas kimi qadına aid xüsüsi günləri və xüsusi halları olmasını vurğulamaq mümkünsə də, etiraz cümləsində Allah Təalanın Hannənin qayğısının və üzüntüsünün yersizliyinə işarə etməsi, Hannənin əsl məqsədinin bunlar olmadığını göstərir. Belə aydın olur ki, ona bu sözləri söylədən əslində ənənənin qalıqlarıdır.

Hannənin təsirləndiyi toplum illərdən bəri Roma hakimiyyəti altında yaşayan bir toplumdur. Romanın təyin etdiyi valilərlə idarə olunub, bölgənin əsayişinin Romalı əsgərlərlə qorunduğu bu zaman kəsiyində təbii ki, Roma mədəniyyəti hakim mədəniyyət kimi topluma təsir edəcəkdir. Bütpərəst Roma mədəniyyətinin qadına münasibəti müstəqil bir tədqiqat mövzusu olacaq qədər geniş mövzudur.

Qısa şəkildə vurğulasaq Roma mədəniyyətində qadın aşağı sinif insan münasibəti görən, miras, şahidlik, siyasi hərəkat, mülkə sahib olmaq, həyat yoldaşı seçmək, təhsil kimi əsas haqq və azadlıqların hər birindən məhrum, ağılsız və zavallı məxluq kimi baxılan dəyərsiz biri idi. Romada ailə sistemi patriarxal idi. Bu patriarxallıq bildiyimiz şəkildə deyil, kişinin bütləşdirildiyi bir şəkildə patriarxal sistem idi. Bu ailə formasında qadın ailədən sayılmazdı. O, evdə sadəcə ərinin və oğlan uşaqlarının ehtiyacını

təmin edən biri idi.

Beləliklə, Allah erkək uman Hannəyə qız verərək ondakı ənənənin son izlərini də təmizləyərkən daha sonra bu qıza atasız bir oğlan uşağı verməklə də toplumdakı erkək bütünü qıracaqdı.

Hannə haradan bilə bilərdi nəzirinin istiqbalda oynayacağı bu fövqəladə rolu? Və nə biləcəkdi Allahın cəmiyyətə xas adət–ənənələrin mücərrəd bütlərini (vesen) yıxmaq üçün təqdir etdiyi möcüzədə ona böyük rol yükləyəcəyini?

Bunları bilmədiyi üçün - «Rəbbi onun nə doğduğunu bildiyi halda» - dedi ki – «Rəbbim onu qız doğdum, oğlan qız kimi deyil»

Nəfsin əngəli: Hannənin gözlədiyinin əksinə körpənin qız olması Hannə üçün çətin bir imtahan olmuşdu.

Beləliklə, Rəbbi onun ixlasını sınamışdı. Niyyətində səmimi və qərarlı idi, yoxsa onun nəziri bir anlıq və ani bir duyğuya dayanırdı? Allahın Səmi və Alim olduğunu bilən Hannə əlbəttə, Onun hər şeyin yaradıcısı olduğunu da bilirdi. Bəs deyə bilməzdi ki; «Madəm ki, Sən qız yaratdın, günahı məndən getdi. Mən mənə düşəni etdim. Əgər erkək versəydin sözüm söz idi»? Bəli, belə cılız çıxış yolları, rüxsətlər, şər hiylələr tapa bilməzdimi verdiyi sözdən qaça bimlək üçün?

O, belə etmədi. Belə demədi. Əksinə, sanki vəziyyətdən özü məsuliyyətli imiş kimi günahkar və çarəsiz: «Rəbbim, onu qız doğdum» - dedi və əlavə etdi - «Oğlan qız kimi deyil»

Əslində, Hannənin bu üzüntüsündə ülvi bir narahatlığın da təsiri var idi. «Adak» olmaq kimi ömür boyu xidmət tələb edən bir vəzifədə erkəyin daha müvəffəqiyyətli ola biləcəyini düşünürdü. Necə olsa da, erkək qadına görə daha qüvvətldir. Bundan əlavə Hannənin üzüntüsünün bir başqa səbəbi də Allaha nəzirlərin ən gözəlini təqdim etmək istəyi idi. Ən yaxşısı, ən qüvvətlisi, ən əlverişlisi, ən gözəli olduğu halda, yaxşıya, normala razı olmurdu. Onun qapısına gözəl deyil, ən gözəli yaraşırdı. Məgər o qapı ən gözəlin qapısı deyilmi? Mükəmməlin, qüsursuzun qapısıdır. O halda, ona nəzir də ən gözəl, qüsursuz və mükəmməl olmalı idi.

Bəli, adayan ana Hannə, adanmış ana Məryəmi doğmuşdu. O da «müjdə» verməyə gələn «İsa»ya hamilə qalacaq, beləliklə, adayış prosesi tamamlanmış olacaqdı.

Xülasə, Allah Təalə Hannəyə qız övladı verməklə:

1. Hannəni imtahan etmiş,
2. Ənənənəvi mədəniyyətin qalıqlarını ondan təmizləmiş,
3. Toplumda tanrılaşan erkəyi əsl yerinə qaytararaq, hökm edən anormal dəyərlərə İlahi bir etiraz bildirmiş,
4. Qadının toplumdakı həqiqi mövqeyinə, analıq meyarına diqqət çəkmiş, onu layiq olduğu mövqeyə ucaltmış,
5. Qarşıda yaşanacaq fövqəladə hadisələrə giriş hazırlamışdır.

# BEŞİNCİ MƏRHƏLƏ

## ALLAHA İSMARLAMAQ

[redacted]

Hannənin üzüntüsü və çaşqınlığı uzun sürmədi. Anındaca vəziyyətə uyğunlaşaraq hadisəni tam bir təslimiyyətlə qəbul etdi. Bundan sonra görüləcək iş nəzirə yaxşı baxmaq, onun bir əmanət olması idrakı ilə qorumaq idi.

Döşündəki südü onun ağzına boşaldaraq və ehtiyaclarını təmin edərək maddi qorumanı yerinə yetirə bilərdi. O, bunun nigarançılığını çəkmirdi. Əsl qayğısı və üzərində titrədiyi şey nəzirinin mənəvi baxımdan qorunması idi. Çünki işin bu tərəfi onun qüvvəsi xaricində idi. O, bunun şüurunda idi. Eynən, insan doğular–doğulmaz şeytanın ona musallat olacağının şüurunda olduğu kimi. Çünki o, insanın əzəli düşmənidir

**«Şübhəsiz ki, şeytan insanın açıq bir düşmənidir»** (12/5)

Bu düşmən uşaq, böyük tanımaz. İnsan hələ ana bətnindəykən ona musallat olur, doğulan kimi öz şeytani yoluna aldadıb, əsgəri etməsi üçün yoxlamağa başlayır. Kim bilir, bəlkə Hannə bu həqiqəti dərk etdiyindən ən qarantlı vasitəni seçərək körpəsi hələ bətnindəykən Allaha nəzir vermiş, bununla da kifayətlənməyib doğulan kimi ilk etdiyi iş bu dua olmuşdur:

**«Onu və nəslini, qovulmuş şeytanın şərindən Sənə ismarlayıram»**

Bu dua ilə Hannə «bütün analara analıq öyrədən biri» kimi qarşımıza çıxır. O, analığın yalnız uşağı yedirtmək, içirtmək, geydirmək olmadığın öyrədir. O, Quran tərəfindən bütün zamanlara adayış nümunəsi seçilərək, valideynlərə övladın istiqbalını düşünməyin ona rahat bir güzaran, dəyərli bir miras qoymaq deyil, onu şeytanın şərindən əmin olacağı bir qapıya girov qoymaq olduğunu öyrədirdi.

Quran tərəfindən insanlıq ailəsinə örnək ana seçilən Hannə, yeganə körpəsini hələ bətnindəykən nəzir verməklə onun əbədi istiqbalını qarantiyə almış; Körpəsi dünyaya gələrkən etdiyi dua ilə

də onu azğın düşmən olan şeytanın şərindən də qorunmasını təmin etmiş və sanki Rəbbinin qapısını döyərək demişdi ki:

«Nəzir doğuldu. Bundan sonra onun təsərrufu mənə aid deyil, Sənə aiddir. Bu məqsədlə də onu Sənə ismarlayıram»

Bu səmimi hərəkətin cavabı veriləcək. Biz bunu Allah Rəsulunun dilindən öyrənirik. Başda Buxari və Müslüm olmaqla bütün mötəbər hədis qaynaqlarının bir çox variantlarıyla rəvayət etdikləri hədisi – şərifdə Peyğəmbərimiz belə söyləmişdi:

«Doğulmuş elə bir insanoğlu yoxdur ki, şeytan ona toxunmasın. Ancaq İmranın Zövcəsinin qızı və onun oğlu istisnadır. Çünki İmranın Zövcəsi onu doğarkən dedi ki: «Ya Rəbbim, onu və nəslini daşlanmış şeytanın şərindən Sənə ismarlayıram»

Beləliklə, bizim övladlarımızın yönləndirilməsi məsələsində bizdən daha cəld tərpənən şeytan və dostlarının körpələrimizə qurduğu bu tələləri darmadağın etməyin yolu da bizlərə öyrədilmiş olur. Yəni hesab edildiyi kimi, uşağın tərbiyəsi və mühafizəsi şüurlu və yetkinlik yaşına çatınca deyil, ana rəhminə (bətn) düşüncə başlayır.

Hannənin rolu burda sona çatır. O, əvvəlcə bütün zəncirləri qıraraq nəzir vermiş, sonra nəziri Sahibinə ismarlamış və bu adayış prosesi müddətindəki vəzifəsini üz ağlığıyla yerinə yetirmişdi.

İndi adayış prosesinin ikinci mərhələsi başlanmışdı.

Hannənin bütün bu etdikləri nəzir verilən Rəbbi tərəfindən necə qarşılanmışdı?

Nəzir qəbul edilmiş, yoxsa Qabilin nəziri kimi üzünə çırpılmış?

Qəbul edilmişsə hansı üslubla və nə üçün?

Bu nəzirə necə münasibət göstərilmiş, necə bəslənib böyüdülmüşdür?

Nəzirin tərbiyəsi ilə məsul olanlar necə seçilmiş və necə mükafatlandırılmışdır?

Və ən diqqət çəkəni isə bu nəzir nəyə vasitə idi?

Bütün bu sualların cavabı nəzir prosesinin ikinci nəsli ilə əlaqəlidir.

# ALTINCI MƏRHƏLƏ

## NƏZİRİN QƏBUL EDİLMƏSİ

«Rəbbi onu gözəl şəkildə qəbul etdi və onu bir fidan kimi yetişdirdi. Zəkəriyyanı da o(nun bağbanlığı)na məmur etdi. Zəkəriyya onun olduğu məbədə hər gəlişində bir ruzi görürdü. «Ey Məryəm bunlar sənə haradandır?» deyə soruşar; (O da) «Bu Allah dərgahındandır» deyərdi. «Allah dilədiyinə hesabsız ruzi verir».

İmranın qadını Hannə nəzirini vermiş, onu doğmuş və Allaha ismarlayaraq həyatına vida etmişdi. Nəzir dediyi qapıdan da Hannənin iki ricası olmuşdu:

1. Nəzirin qəbulu.
2. Şeytanın şərindən qorunması.

Birincisini hələ doğmadan, ikincisini isə doğar–doğmaz Rəbbindən tələb etmişdi. Hannənin bu tələbinə verilən ilahi cavabın məqbul olduğunu yenə ayələrdən öyrənirik:

**«Rəbbi onu gözəl bir qəbul ilə qəbul etdi»**

Ayədə xüsusi ilə Allahın isimlərindən Rəbb adı tərcih edilmişdir. Təbii ki, bu adın seçilməsi də ilahi bir tərcihdən qaynaqlanırdı. Bunun da səbəbi indiyə qədər olanların və bundan sonra olacaqların Allahın Rəbblik sifətinin bir təcəllisiydi.

O, özünün də bildirdiyi kimi Aləmlərin Rəbbi, tərbiyə edəni, himayə edəni, mürəbbiyəsi, yönləndirib öyrədəni, qoruyucusu və kamala çatdıranı idi.

Bəli, Rəbb olan Allah tərbiyəsinə buraxılan nəziri qəbul etmişdi. Ancaq qəbuldan qəbula fərq vardır. Məsələn, zor gücünə qəbul vardır ki, buna bənzəyir: Dünyəvi səltənət sahibinə biri bir hədiyyə gətirmiş, o da hədiyyəyə və hədiyyə gətirənə önəm vermədiyi halda müxtəlif mülahizələrlə bunu qəbul etmək məcburiyyətində qalmış və «Yaxşı, yaxşı. Gətirdiyini qapının arxasına qoy və çıx bayıra!» demişdi. Bu da bir qəbul formasıdır.

Bir də acıyaraq qəbul etmək növü var. Təqdim olunan bir hədiyyəni zavallının qəlbi qırılmasın, könlü xoş olsun deyə alıb,

onu üç–beş quruşla təltif etdikdən sonra başdan edərək, gətirdiyinə belə baxmaq ehtiyacı duymadan - «Götürüb birinə verin, qoy sevinsin!» - deyənin qəbulu da qəbul formalarından biridir.

Sevərək qəbul bu qəbullar içərisində ən gözəl qəbuldur və beləliklə, Hannənin nəziri Məryəm də Rəbbi tərəfindən bu cür qəbul ilə qəbul edilmişdir.

**«Rəbbi onu gözəl bir qəbul ilə qəbul etdi»**

Qabili nəziri ilə birlikdə rədd etdiyi kimi, Rəbbi onu rədd etməyərək qəbul etmiş, üstəlik bu qəbul adi bir qəbul deyil «gözəl bir qəbul» kimi vəsf edilmişdir. Əlbəttə, bunun bir səbəbi olmalı idi.

Səbəbi vardı və o səbəb Hannənin nəzir üslubunda gizlənmişdir. Yəni o, nəzirini gözəl bir üslubla vermişdi. Bu nəzirin üsulu və üslubu nə idi? Və nə idi onu gözəl edən ünsürlər?

Birinci əqidəsi məşru idi. Yalnızca eşidən, bilən və tərbiyə edən olduğuna inandığı Allaha hər cür bağlılıqdan hür olaraq, yəhudicə davranmayıb, sövdələşmədən nəzir vermişdi. Eşitdiyinə, bildiyinə, tərbiyə etdiyinə inandığı Allahın ən böyük qoruyucu və gözətçi olduğuna da inandığı üçün nəzirini şeytanın şərindən Ona ismarlamışdı.

Bütün bunlar İmranın Zövcəsindəki tövhidi şüurun bir göstəricisi idi və bu şüur biliklə deyil, imanla qazanılır, eşqlə hərəkətə keçirilir. O, nəzir vermək, inanmaq, yönəlmək və ismarışıyla Uluhiyyət, Rububiyyət və Ubudiyyət şüurunun inkişaf etdiyini isbat etmişdi. Bir sözlə əqidəsi məşru və səhih idi.

İkincisi niyyəti məşru və səhih idi. Nəzir vermiş və qarşılığında bir şey gözləməmişdir. Bir şey gözləməməyi bir yana, ciyərparəsini məsum bir körpə ikən Allahın beytinə təslim etmiş və Allaha qarşı ədəbsizlik olmasın deyə, körpəni məbədin məsul şəxsləri arasında olan qohumu Zəkəriyyanın öhdəsinə verilməsini belə tələb etməmişdir.

Nəzirin təsərrufu nəzir verildiyi andan etibarən nəzir verilən qapının boynuna düşər. Sizə biri bir hədiyyə gətirsə, daha sonra dönüb sizdən hədiyyənin aqibətini soruşsa və ya gətirdiyi hədiyyənin üzərində təsərruf etmək istəyərək, onunla necə rəftar edəcəyiniz, harada istifadə edəcəyiniz barədə sizə təzyiq etmək istəsə ədəbsizlik etmiş olmazmı? Ən azından buna «tərbiyəsizlik»

deməzlərmi? Hannə də Rəbbinə qarşı tərbiyəsizlik etmədi. Bu mənaya gələr - deyə narahat olaraq, bəlkə də ən təbii haqqı olan bir şeyi, körpəyə Zəkəriyya ailəsinin baxmasını belə tələb etmədi və əməlində nə qədər səmimi olduğunu beləcə bir daha isbatlamış oldu. Çünki niyyəti məşru idi.

Üçüncüsü, üsulu məşru idi. Həyatının sonlarına yaxın sahib olduğu yeganə övladını nəzir vermənin haqlı qürurunu və sevincini yaşamaq yerinə, daha nəzir verər verməz, boynunu büküb, böyük bir təvazökarlıq və acizliklə «Rəbbim, məndən qəbul buyur…» - demiş, qarşılıq gözləməmiş, bunu heç düşünməmişdi də. Uşaq doğulduqdan sonra da eyni təvazökarlıq və çarəsizliklə özünü günahkar bilərək üzr istəyəcək bir əda ilə «Ya Rəbbim, onu qız doğdum. (Amma bilirəm) Oğlan qız kimi deyil» - deyərək Rəbbindən ona aid olmayan bir məsələdə üzr istəmişdi. Yəni üsulu məşru idi.

Əqidə məşru, niyyət məşru, üsul məşru olunca Allah onun əməlini «fasiq» ya da «fasit» əməllər sinfinə deyil «saleh əməllər» sinfinə aid etmiş, «gözəl bir qəbul ilə qəbul etmiş»dir.

Başqa sözlə: BİR GÖZƏLİN, ƏN GÖZƏLƏ, GÖZƏL BİR ŞƏKİLDƏ TƏQDİM ETDİYİ GÖZƏL NƏZİR, GÖZƏLCƏ QƏBUL EDİLMİŞDİR.

Artıq nəzirin təsərrufu nəzir edildiyi qapıya aiddir.

Burada ağla bir sual gəlir: Yaxşı bəs, gözəllər gözəli Allah, bir gözəlin (Hannə) ən gözələ (Rəbb), gözəl bir şəkildə (məşru) təqdim etdiyi gözəl nəziri (Məryəm) gözəl bir şəkildə qəbul edərsə necə rəftar edər?

# YEDDİNCİ MƏRHƏLƏ

## BİR ÇİÇƏK KİMİ YETİŞDİRİLMƏ

### «Elə» çiçəyə «belə» bağban

Allah gözəlcə və üsuluna uyğun nəzir verilmiş bir nəziri qəbul edərsə necə rəftar edər, - deyə soruşmuşduq. Cavabı özündən alaq:

***«Rəbbi Məryəmi gözəl bir biçimdə qəbul etdi və onu bir çiçək kimi yetişdirdi…»***

Allah tərəfindən qəbul edilmə, üstəlik normal bir qəbulla deyil, gözəl bir biçimdə qəbul edilmə. Bunların təbii bir nəticəsi olaraq da «bir çiçək kimi» yetişdirilmə.

Bir çiçək su istər, günəş istər, gübrə istər. Məkan istər, hər çiçək hər məkanda yetişməz, yetişə biləcəyi bir mühit, uyğun bir iqlim istər. Hər çiçək hər torpaqda yetişməz, özünə uyğun torpaq istər…

Çiçəklər gündəlik qulluq istər, qulluq olunmazsa, boynunu bükər, solar və quruyub gedər…

Bütün bunları edən bir BAĞBAN istər, onun xidmətini boynuna götürüb, qarşısına çıxacaq daxili və xarici həşəratlardan onu qoruyacaq bir qəyyum istər…

Ən əsası bu çiçəyin soyu cins bir soy olmalı, toxumu cins bir toxum olmalıdır ki, o da İmran və zövcəsi Hannədir. Bu çiçəyin torpağı Quranın seçdiyi İmran ailəsidir. Məkan Allahın təmiz evidir. Günəşi məhəbbət və xilqət, gübrə və suyu təharət və ibadətdir. Bu çiçəyin gündəlik baxımına təhkim edilən bağbansa Zəkəriyya(ə)dır:

***«Və Zəkəriyyanı da o(nun bağbanlığı)na təhkim etdi»***

Elə nəzirə belə peyğəmbərdən bir bağbanı təhkim etmək ancaq Allahın işidir.

Kimdir bu bağban?

Beytül-Müqəddəsdə məsul dəvətçilərdən biri. Harunun

soyundan. Zatən Beytül-Müqəddəsin xidməti lap qədimlərdən bu peyğəmbərin övladları tərəfindən icra edilmiş, nəsildən–nəsilə bu şəkildə keçmişdir. Zəkəriyya (ə) da bu silsilədən saleh bir quldur.

Mövzumuz olan Ayəti-Kərimin «Zəkəriyyanı da o(nun bağbanlığı)na təhkim etdi» bölümü bir başqa qiraətdə «Zəkəriyya onu(n bağbanlığını) boynuna götürdü» mənasına gəlir. Bu iki fərziyyə arasındakı fərq; birincisində onu bu işlə Allah vəzifələndirdiyi halda, ikincisində özü bu vəzifəni həqiqətən boynuna götürmüş olur ki, nəticədə ikisi də eyni mənanı verir. Bu qiraət fərqi mövzunun mahiyyəti ilə əlaqədar deyil.

Məryəm kimi «xüsusi» bir nəzirin bağbanlığını əldən vermək istəməyən dini təşkilatın bütün işçiləri, Zəkəriyyanın haqlı bir səbəbə söykənən istəyini qəbul etmədilər. O demişdi ki: «O mənim qohumumdur. Zövcəm onun xalasıdır. Bu səbəbdən də ona baxmaq hər kəsdən çox mənim haqqımdır» Təbii ki, qəbul edilməyən bu tələb mübahisələrə səbəb olmuş, nəticədə «nəzirə» baxacaq ailənin təyin edilməsi üçün püşk atmağa qərar verilmişdi. Kitab-i Müqəddəsi yazdıqları qələmlərini Ürdün Nehrinə ataraq, adətlərinə uyğun ənənəvi püşklə seçim nəticəsində Allahın qeyb yardımı yetişmiş, nəhrin suları Zəkəriyyanın qələmini ən önə keçirmişdir. (Təbəri)

Bütün qaynaq təfsirlərin xırdalıqları ilə aydınlaşdırdığı, bəzən isə bir neçə kiçik fərqlərlə araşdırdıqları bu hadisənin detallarla izahına ehtiyac görmürük. Ancaq ayədə də bildirildiyi kimi (3/44) belə bir hadisə olmuş və Allah çəkilən püşkdə Zəkəriyyanın önə çıxması üçün əmri altındakı əsgərlərdən şüursuz və qeyri mükəlləf bir əsgəri olan irmağı səfərbər etmişdir:

**«(Ey Muhəmməd) Bunlar sənə vəhy etdiyimiz görünməz və bilinməz qeybin xəbərlərindəndir. Məryəmə kim qəyyum olacaq deyə, qələmlərini atarkən sən onların yanlarında deyildin. Mübahisə etdikləri zaman da sən yanlarında deyildin»**

Ancaq burada bu işin hekayəsindən daha çox önəmli olan və mütləq bilməyimiz vacib olan bir həqiqət var: «Onun bağbanlığına Zəkəriyyanı təhkim edən» Allahın bu iradəsinin necə gerçəkləşdirmiş olması. Daha doğrusu, Allahın Ona nəzir edilmiş birinə yardım etməsindəki üsul…

**«Allahın əsgərləri»**

Səbəblər aləmində yaşayırıq. Və insan ağlı bütün olanları qavramaqda aciz qalsa da hadisələr İlahi qaynaqlı aləmşümul bir plan və proqram daxilində cərəyan edir. Hər şeyin gücünü əlində tutan Allah, yardımını da, əzabını da ilahi plan – proqram çərçivəsində gerçəkləşdirir. Bu plan – proqramın gerçəkləşməsində Allahın mütləq iradəsinə ram olmuş bir sıra varlıq vasitəçilik edir. Bünların hamısına Qurani Kərim «Allahın əsgərləri» deyir və biz onların xüsusiyyətləri və keyfiyyətləri haqqında çox az biliyə sahibik:

**«Yerlərin və göylərin əsgərləri Allahındır»** (48/7)

**«Rəbbinin əsgərlərini Ondan başqa kimsə tanımaz»** (74/31)

**«Ey insanlar, Allahın sizə olan nemətini xatırlayın. Bir zaman sizin üzərinizə ordular gəlmişdi və biz də onların üzərinə bir rüzgar və sizin görmədiyiniz ordular göndərmişdik. Allah nə etdiklərinizi görür»** (33/9)

Kainatdakı məlum olan və məlum olmayan hər bir şey; mikrobdan qallaktikalara, atomdan ulduzlara, hüceyrədən orqanizmə, damladan okeana, canlıdan cansıza, şüurludan şüursuza, cisimdən cisimsizə qədər hər sinif və cins varlıq, aləmşümul plan içərisində var olma hikmətlərini icra edərkən müstəsna hallarda da Allahın əsgərləri olaraq «fövqəladə» vəzifələri icra edirlər.

Bir çox nümunələrdən gördüyümüz kimi ilk insandan bu günə qədər və bundan sonra da lazım olan yerdə və zamanlarda bu əsgərlər öhdələrinə düşən vəzifələri yerinə yetirəcəklər. Diqqətə layiq belə nümunələrdən Qurani-Kərimdə kifayət qədər zikr edilərək bu müdhiş imkan cahanşümul İslami hərəkatın sadiq üzvlərinə xatırladılmaqdadır.

Bu elə bir imkandır ki, yer üzündə başqa heç bir hərəkat bu imkana sahib olmamış və ola bilməyəcək. Buludların, suyun, çayın, rüzgarın, atəşin, səsin, torpağın, daşın, günəşin və daha saya bilmədiyimiz bir çox şeyin yardımı yalnız İslami hərəkatın sadiq isimləri üçün keçərlidir. Nuh, Lut, Saleh, İbrahim, Musa, Ashabi – Uhud, Ashabi – Kəhf, Ashabi – Bədr kimi toplum və adların da yuxarıda xatırlatdığımız Zəkəriyyanın yardımına bənzər yardımlar

gördüklərini, Quranın bizə anlatdığı qissələrdən öyrənirik.

Rəbbimiz şüurlu əsgərləri darda qaldığı zaman onların yardımına şüursuz əsgərlərini necə göndərirsə; şeytan da boş dayanmır, o də öz əsgərlərinə və dostlarına yardım edir. Lakin Allahın yardımı qarşısında onun dostlarına yardımı hökmsüz qalır, Allahın yardım etdiyi tərəfin mütləq qələbə çalacağını bildiyindən belə hallarda ümüdsizliyə qapılıb öz başının dərdinə qalır. Bütün mötəbər siyər qaynaqlarında verilən bir nümunə:

Bədr savaşında İblis, dostları olan müşriklərin qorxusunu azaldıb onlara yardım etmək üçün Süraka ibn Malikin qılığına girmişdi. Sürakanın qəbiləsi Kinaneoğulları adından danışaraq Əbu Cəhllə müttəfiqlik müqaviləsi imzalamışdı. Əslində məqsədi müşriklərin o qədər də yüksək olmayan əhvalların qaldırmaq, onlarda özlərinə qarşı inamı artırmaq idi. İki tərəf arasında müharibə başlandı. Elə bu zaman İblis müsəlmanlar tərəfdə olan mələklərin müşrikləri qırıb–tökdyünü görərək qaçmağa başladı. Əbu Cəhlin qardaşı Haris ibn Hişam onu Süraka zənn edərək dayandırmağa çalışdı. Fəqət o, Harisi sinəsindən itələyərək qaçmağa başladı. Müşriklər bağırdılar: «Ey Süraka! Hara qaçırsan? Sən bizə «biz sizin müttəfiqinizik, aramızda fərq yoxdur» deyib, yardıma söz verməmişdinmi?» İblis qaça–qaça onlara söz atdı: «Sizin nədən xəbəriniz var? Mən sizin görmədiyinizi görür və Allahdan qorxuram. Allahın sizə göndərdiyi bəla çox şiddətlidir»

Quran bu maraqlı hadisəyə toxunaraq Allah Təalanın sözünü belə çatdırır:

«O zaman şeytan onların etdikləri işləri süslə(yib gözəl göstər)miş: «Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz. Mən sizin yanınızdayam! demişdi. Fəqət iki dəstə bir-birini gördükdə geri çəkilib: «Mən sizdən uzağam, çünki Allah şiddətli cəza verəndir» (8/48)

**&**

Hannə nəzir demiş və dediyi nəziri də qapının qoruyuculuğuna ismarlayaraq həyata vəda etmişdi.

Nəzir verilən qapı da nəziri qəbul etdiyini elan etmişdi. Bu elan etmə sadəcə sözdə qalmamışdı: - çünki, Hannənin təşəkkürü

sadəcə söz ilə deyildi – bu qəbulun ardından sözügedən çiçəyin böyüməsi üçün Allahın Zəkəriyya kimi şüurlu, irmaq kimi şüursuz əsgərləri səfərbər edilmişdir.

Bu da böyük həqiqətdir ki, bundan sonra da eyni sədaqəti göstərib, yardıma layiq olan hər möminə gərəkdiyində bu və ya digər yolla, amma mütləq yardım ediləcək. Bu Allahın zamanlar və məkanlarüstü vədidir:

**«Allah inananları müdafiə edir»(**22/38)

**«İnananlara yardım etmək üzərimizdə bir borcdur»** (30/47)

Və o da mütləq həqiqətdir ki, O, sözündən dönməz:

**«Bil ki, Allahın vədi gerçəkdir, fəqət çoxları bilmirlər»** (10/55)

## Hikmətlər…. Hikmətlər…

Allah Zəkəriyyanı körpə Məryəmə qəyyum etmişdi. Sövdələşmədən yalnızca Allahın təsərrufuna verilən bir nəzirə göstərilən ilk yardım - onun xidmət və tərbiyəsini  Hz. Zəkəriyya kimi birinə verilməsindədir.

Allah Təala tərəfindən Zəkəriyyanın bu vəzifəyə məsul edilməsinin üzərində düşünüldüyündə, hər birinin bir–biri ilə əlaqəli saysız hikmətlərlə dolu olduğu görüləcək.

Allah qəbul edərsə nə edər? O tərbiyə edərsə necə edər? Körpələr bir çiçək kimi necə yetişdirilir? Və bu çiçəyin bütün çiçəklərdən seçilib aləmlərə nümunə edilməsi necə baş verər? Bu və buna bənzər bütün sualların cavabı sözügedən hikmətlərin qavranılmasına bağlıdır.

Hadisələri əvvəlcə iki nöqteyi nəzərdən araşdıraq:

1. Çiçək (Məryəm) nəzərindən.
2. Bağban (Zəkəriyya) nəzərindən.

Hz.Zəkəriyyanin seçilməsinin körpə Məryəm nəzərindən nə mənaya gəldiyini bilmək üçün Məryəmin vəziyyətini bir daha xatırlamaq lazımdır.

Tarixi məlumatlara görə bu seçim aparılarkən Məryəm ətrafında nələrin baş verdiyini anlayacaq yaşda deyildi.

Üstəlik bu körpə yetimdir, atasını heç görməmişdir.

Bu körpə öksüzdür, onu dünyaya gətirən o, nəcib qadını heç tanımadan, bir dəfə də olsun «ana» deyə bilmədən itirmişdi.

Belə olan halda onun bir deyil, bir neçə şeyə ehtiyacı var idi. Bu ehtiyacların ilki onun var ola bilməsi və yemək, içmək, təmizlik, xidmət kimi həyati ehtiyaclarını təmin etməsi üçün fədakar, «of» belə deməyən, bir gün, üç gün, beş gün deyil, artıq ehtiyac qalmayana qədər ona baxacaq birinin olmasıdır. Bunlardan daha da önəmlisi - nəzirin şəfqətə və sevgiyə ehtiyacı var idi. Necə deyərlər insan çörəklə doyar, əməklə böyüyər, sevgiylə yaşayar…

Suyu sevgi, günəşi şəfqət, gübrəsi qida olan bu çiçəyə elə bir bağban lazım idi ki, bunların hər üçünü birdən verə bilsin.

Elə bu nöqtədə İlahi seçimdəki hikmətin böyüklüyü göz qamaşdırır. İlahi tərbiyədəki qoşa meyar Allahın tərbiyəsindəki mükəmməlliyə şahidlik edir.

Allah Təala tərbiyə etdiyinin, eynən Rəsulu Muhəmməd əleyhissəlama da etdiyi kimi, əvvəlcə ətrafını boşaldır. Öncə ata, ardından ana... Tərbiyə ediləcək olanın Ondan başqa dayağı, əlindən tutanı, sığınacağı, güvənəcəyi bir kimsəsi saxlanılmır. Onu dünyaya, onu həyata, onu əşyaya bağlayan bütün bağlar qırılır. Rəsulallah nümunəsində görüldüyü kimi atası Abdullanı hələ doğulmamışdan, anası Əminəni kiçik yaşlarından itirir. Babası Əbdulmütəllibə güvənir. Ardından Allah onu da aparır. Eyni aqibət daha sonra güvəndiyi və himayəsində olduğu Əbu Talibin də başına gəlir. Sıxıldıqca sığındığı qalası olan Xədicəsini də Allah əlindən alır.

Artıq söykənəcək kimsə yox. Söykənmək istəyən də yox artıq. Bütün yaşadıqlarından sonra o, bir də söykənərmi yıxılan şeylərə?! Əlbəttə, söykənməz. Çünki söykəndiyi gedir, Rəbbi onun məcazi də olsa, Özündən başqasına güvənməsini istəmir və sevdiyi qulunu Rububiyyətiylə tərbiyə edirdi. Allahın tərbiyəsindən keçmiş bu «Aləmlərə Rəhmət» də sonunda öyrəndi kimsəyə söykənməməyi. Öyrənmiş və bir gün sadiq vəsfli Əbu Bəkirə demişdi ki:

«Ey Əbu Bəkir, əgər yer əhlindən birini dost seçəcək olsaydım, səni seçərdim. (Amma seçmərəm, artıq Ondan başqa dost seçə bilmərəm)»

Beləliklə, «Aləmlərə Rəhmət»ə göstərilən münasibətin bir bənzəri də Məryəmə göstərilərək ana və atası əlindən alınmışdı.

Bununla insan ilk tərbiyəçiləri olan ana və atanın təsiri altından çıxarılırdı. Əvvəlcə «nəziri» ətrafa bağlayan təbii zəncirlər qırılır, arxasından ona yeni bir mühit seçilir və bu mühitin əllərinə əmanət olaraq verilirdi. Anası Hannənin bu qədər ixlasına baxmayaraq, qalıqlarını tərk edə bilmədiyi adət - ənənənin və cəmiyyətə xas mədəniyyətin mənfi təsirindən heç bir iz daşımaması üçün boşaldırdı Məryəmin ətrafını. Bəli, Zəkəriyya ailəsinə yalnız əmanət olaraq verilmişdir. Əmanət olaraq, çünki, onun təsərrufu həqiqətən Allaha aid idi. O, istəyirdi ki, İlahi təsərrufun önünə kimsə keçməsin, bu təsərrufun açıq görüntüsünə kimsə kölgə salmasın. Nəzirin tərbiyəsi saf olsun. Xüsusilə, ona Ondan başqa kimsə dayaq olmamalı, o, da Ondan başqasına güvənməməli idi.

Çiçəyin inkişaf etməsinə əngəl olan səbəblər aradan götürülür, mühiti təmizlənincə nəzir, tamam fərqli bir dibçəkdə əkilərək fərqli bir mühitə köçürülürdü. Yəni, bütün nəbilərin, siddiqlərin, salehlərin, şəhidlərin sünnətini o hələ körpə ikən yerinə yetirib «hicrət» edirdi.

Bu işlərin ardından elə bir seçim edilməliydi ki, bununla həm onun üzərindəki təsərrufa müdaxilənin qarşısı alınsın, həm də ehtiyac duyduğu sevgi, şəfqət kimi başqasının verə bilməyəcəyi şeylər verilmiş olsun. Beləliklə, bu nöqtədə İlahi seçim daşı kəməndinə yerləşdirir. Çünki öksüz və yetim Məryəm öz xalasının sevgisinə və şəfqətinə əmanət edilmişdi. Bu nöqtədə insan Allah Rəsulunun o gözəl təsbitlərini xatırlayır:

«Xala ana kimidir» (Əbu Davud)

Daha ilk baxışda Məryəm üçün itirilmiş kimi görünən şeylər qazanca çevrilmişdir. Fəqət bu İlahi ssenari sırf çiçəyin ehtiyaclarını deyil, həm də sözügedən bağbanın da ehtiyaclarını mükəmməlcəsinə ödəmişdir.

Bağbanın (Zəkəriyya və ailəsi) nəzərindən hadisəyə baxdıqda bunları görərik: bu çiçəyin bir bağbana olan ehtiyacı nə qədərdirsə, bir o qədər də bağbanın çiçəyə ehtiyacı var. Hz.Zəkəriyya zövcəsi Eyşanın qısır olduğu halda, çox dilədiyi saleh bir övlada sahib ola bilmədən yaşlanmışdır. Allah bu qəlbi qırıq ailənin uşaq həsrətinə Məryəmlə son qoymuşdu.

Zəkəriyyanın (ə) xanımı Eyşa baxımından hadisə daha

fərqlidir. Şübhəsiz, o bacısının öksüz və yetim qalmış tək yadigarına baxmağı hamıdan çox istəyirdi. Əslində bəlkə də hər kəsdən çox onun haqqı var idi. Çünki, özgə biri bir başqasının körpəsinə baxsa belə, nə qədər baxa bilərdi ki? Amma o yad deyildi, bəlkə də Hannənin boşalmış yerini doldura bilərdi, körpənin ehtiyacı olan sevgini və şəfqəti ona verərək anasızlığını hiss etdirməzdi.

Həm də Məryəm oğlan deyil qız uşağı idi. Onun gələcəyi baxımından da bu seçim bir çox maneələri aradan qaldıra bilərdi.

Eyşa, nəzirin sadəcə qarnını deyil, sevgi və şəfqətlə qəlbini də doydurarkən, artıq inkişaf edib böyüyən bu «xüsusi» əmanəti tərbiyə edib, sağlam düşüncələrlə doydurmaq işi də Hz.Zəkəriyyanın üzərinə düşən bir vəzifə idi. O, zahirən nəzir verildiyi Məbədə təslimə hazırlanırdı. Həqiqətdə isə özünün də təxmin edə bilməyəcəyi çox ağır və uca bir təsərrufun gerçəkləşməsi üçün yetişdirilirdi.

Vaxtı gəldikdə Hz.Zəkəriyya onu nəzir olunduğu Məbədə yerləşdirmiş, oranı onun üçün arxayın və güvənilən bir məkan etmiş və vəzifəsini müvəffəqiyyətlə tamamlamışdı. Yaşlı olması səbəbi ilə ölümünü düşünür və Məbəddən heç kənara çıxmayan Məryəmin şəxsi ehtyaclarını ondan sonra kimin yüklənəcəyinin qayğısını çəkirdi. Uzun narahatçılıqdan sonra nəhayət ki, bu problem də həll olunurdu. İndi Məryəmin bütün ehtiyaclarını əmisi oğlu dülgər Yusif ödəyəcəkdir.

Artıq Hz.Zəkəriyya vəzifəsini yerinə yetirmənin rahatlığı içərisində idi. Bütün bunlara baxmayaraq, o, davamlı olaraq daima Məryəmi ziyarətə gedir, Yusifin vəzifəsini necə icra etdiyinə nəzarət edirdi.

Çünki, bölgədə yandırıb–yaxan quraqlıq və bunun nəticəsi olaraq da şiddətli bir qıtlıq yaşanırdı. İnsanların aclıqdan öldüyü xəbərləri gəldikcə onlar özlərini unudub «çiçəyi» düşünməyə başlamışdılar. Bütün səylərini çiçəyin solmaması üçün səfərbəy etmişdilər.

Fəqət onu düşünən, onu qoruyan bir başqası da vardı. O, qulunun gücü tükənincəyə qədər müdaxilə etməmiş, qulun gücü bitdiyi yerdə Onun yardımı başlamışdı. Onun bu yardımları Zatını yaxşı bilən və tanıyan bir Nəbini (Zəkəriyya) belə

təəccübləndirəcəkdi.

# SƏKKİZİNCİ MƏRHƏLƏ

## İLAHİ YARDIM

[redacted]

**«...Zəkəriyya hər dəfə Məryəm İbadət etdiyi mehraba girdikdə onun yanında ruzi olduğunu görərdi. «Ya Məryəm bunlar sənin üçün hardandır? – dedikdə o: «Allah tərəfindəndir!» deyə, cavab verərdi. Allah istədiyinə hesabsız ruzi verər»** (Ali – İmran 37)

Məyrəm Məbəddə yerləşdirildikdən sonra onun xarici ehtiyaclarını ödəməyə çalışan Yusif quraqlıq, qıtlıq və yoxsulluğun təsiriylə vəzifəsini icra etməkdə çox çətinlik çəkirdi. Əslində Məryəmin ehtiyacı çox deyildi. Amma, belə qıtlıqda bir nəfərə xidmət çox böyük problem yaradırdı. Yusif əlindən gəldiyi qədər vəziyyəti ona bildirməməyə çalışsa da, Məryəm əngin fərasəti ilə vəziyyəti görür və Yusifə belə təsəlli verirdi:

**«Ey Yusif, Allaha hüsnü zənn et. Şübhəsiz, Allah bizi ruziləndirəcəkdir»** (İbn İshaq)

Bəli, Məryəmin bu təslimiyyatı «iman» hadisəsi idi. O, elə bir Allaha, belə iman etmişdi. O, inanırdı ki, bu və ya digər yolla, amma mütləq, Allah onları ruzisiz buraxmayacaq. Lakin Məryəmin inamının gerçəkləşməsi üçün əlindəki bütün imkanlarının tükənməsi lazım idi.

Elə də oldu. Vəziyyətin vəhmini bilən və Məryəmin yükünü çiyinlərində hiss edən, lakin yaşlılıq səbəbiylə dua və qayğıdan başqa əlindən bir şey gəlməyən Hz.Zəkəriyya (ə) adəti üzrə Məryəmin məkanına ziyarət üçün gəldiyində fövqəladə bir möcüzəylə qarşılaşardı:

**«...Zəkəriyya hər dəfə Məryəm ibadət etdiyi mehraba girdikdə onun yanında ruzi olduğunu görərdi. «Ya Məryəm bunlar sənin üçün hardandır? – deyə soruşardı…»**

Bu «ruzinin» nə olduğunu, haradan gəldiyini, necə gəldiyini nə Quran, nə də ki, səhih sünnət açıqlamır. Bununla birlikdə fərqli qaynaqlar fərqli fərziyələr vermişlər.

Məsələn, Zəmahşəri bu ayəni təfsir edərkən: «Onun ruzisi

Cənnətdən gəlirdi, ana südü heç əmmədi, yanında yayda qış meyvələri, qışda yay meyvələri olurdu» deyir. Tabiin alimləri və ilk müfəssirlərin demək olar ki, hamısı buna bənzər şeylər söyləyirlər. Mərağİ kimi bəzi təfsirçilər isə bu növ fərziyyələri rədd edərək, onların Cənnət təamları olmadığını, möcüzəvi bir haldan da söhbət getmədiyini, bildiyimiz normal yeməklər olduğunu və normal yolla gəldiyini, lakin qıtlıq günü gətirildiyi üçün Hz.Zəkəriyyanın təəccübünü gizləyə bilmədiyini deyirlər.

Əslində bu ruzinin nə olduğu və haradan gəldiyi bizim nəzərimizcə, o qədər də önəmli deyil. Quran bu qissə ilə vermək istədiyi mesajda bunların nə olduğunu bildirmək istəsəydi, şübhəsiz ki, Rəbbimiz bu qissəni xırdalıqları ilə zikr etdiyi kimi, bu ruzinin qaynağının və cinsinin də nə olduğunu açıqlayardı. Burada bunu bilmək lazımdır: Dünyaya atasız uşaq gətirmək kimi müstəsna bir möcüzənin müxətibi olacaq Məryəmə Allahın öz dərgahından bu növ ruzilər göndərməsi, həqiqətən də heç də anormal qarşılanacaq hal deyil.

Bir şey gerçəkdir: o, da elə bir fövqəladə hadisənin varlığıdır ki, onu kimsə inkar edə bilməz.

Məlümdur ki, ruzi «alınan» deyil, «verilən» bir şeydir. Sonra da bu ruzi normal bir zamanda, normal bir cinsdən, ya da normal bir yerdən deyildi. Hz.Zəkəriyyanın heyrətini başqa cür açıqlamaq mümkün deyil. Ortada heyrət ediləcək bir hal var, çünki kimsə normal, adi bir şeyə heyrət etməz.

Burada öyrənilməli olan dərs budur: «Allah həyatını Ona qurban vermiş insanlara, gücləri bitib darda qaldıqlarında bu və ya digər bir yolla, mütləq yardım edəcəkdir»

Bu həqiqət İslami hərəkat var olduğu müddətdə var olacaq, ilk insandan son insana qədər Allah, Onun yolunun yolçularına hədəfləri, niyyətləri və üsulları doğru olduğu müddət ərzində yardım edəcəkdir. Bunun nümunələrinə qövmünə qarşı Nuha, yenə azğın qövmə qarşı Luta və Salehə, nemruda qarşı İbrahimə, firona qarşı Musaya, Diocletienə qarşı Əshabi-Kəhfə, müşriklərə qarşı Rəsulallah (Allahın salamı hər birinin üzərinə olsun) və əshabına edilən yardımlarda rast gəlinir.

Bu isimlərin hər biri sadəcə bir nümunədirlər. Allah Təala Quranında bu nümunələri verməklə, onların yollarını davam

etdirəcək möminlərə firon, nemrud, Nuh qövmü, Lut qövmü kimi azğın fərd və toplumların yollarını gedənlərə qarşı hər zaman və hər şəraitdə yardım edəcəyini işarə və təlqin edir. Ancaq bu yardıma layiq ola bilmək bəzi şərtlərə bağlıdır ki, bu şərtləri sözügedən yardımı alanların timsalında Quran nümunələrində açıq–aydın görürürk.

Beləliklə, Məryəm də bu İlahi yardıma imanı, əməli, səbri və dözümü nəticəsində layiq olmuş salehə bir quldur və o, inanmışdır ki:

***«Allah dilədiyinə hesabsız ruzi verər»***

Allahın dilədiyinə verdiyi bu «ruzi»nin sadəcə yeyəcək və geyəcəklərdən ibarət olduğunu düşünmək doğru olmazdı. Bu ruzi son peyğəmbərə qədər bəzilərinə nübuvvət biçimində verildiyi kimi, onlardan sonra da bəzilərinə elm, bəzilərinə hikmət, bəzilərinə sərvət, bəzilərinə dövlət, bəzilərinə qüvvət, bəzilərinə səbr və dözüm, bəzilərinə şücaət və izzət olaraq verilmişdir. Nadir hallarda olsa da layiq olmuş və şərtlərə əməl etmişlərsə, bəzilərinə də bütün bunlar hamısı birlikdə verilmişdir.

Bütün bunlar Allahın yolunda çalışanlara, nəzir verənlərə və nəzir verilənlərə verdiyi borcdur. Ürək təri, ağıl təri və alın təri tökərək, başqa sözlə desək qan, göz yaşı və tər axıdaraq onu qazananlar bu «açıq hesabdan» hesabsız ruziləndirililər.

Məryəmə verilən, ləzzəti bir anlıq olan yeyəcək və içəcəklərə heyrət edənlər, əslində ona verilən hidayətə, ixlasa, hikmətə, xilqətə, əzmə, dözümə, qabiliyyətə, zəkaya və övlada heyrət etməlidirlər. Çünki, bu lütflər nə yeyəcəyə, nə içəcəyə bənzəməz. Uzun ömürlü və daha dəyərlidirlər.

Məyrəm qadın halı ilə dağlardan ağır sınaqlarla imtahan olunmuş, atasız bir uşaq sahibi edilmiş, dövrünün ən namuslu və iffətli bu qadını yaşadığı cəmiyyətin içində zəmanəsinin ən alçaq iftiralarına məruz qalmışdır. Bu dəhşətli imtahana və cəmiyyətin ittihamlarına qarşı dayanmaq, səbr etmək, mücadilə etmək daha az heyrət ediləcək, daha bəsit, daha dəyərsiz bir şeydirmi ki, İslam ənənəvi elmi yüz illərdir praktik heç bir faydası olmayan «ruzi»nin mahiyyəti və necəliyi barədə mübahisələrlə məşğul olaraq əsl diqqət çəkilməli məqamı unutmuşdurlar.

Əlbəttə, «Allah dilədiyinə hesabsız ruzi verər», eynən iman,

elm, hikmət, irfan, səbr verdiyi kimi.

Məryəmə verilən bu ruzi əslində yenə İlahi ssenarinin davamı olan başqa bir prosesi başladacaqdır. Bu proses Zəkəriyya ailəsinin xidmətlərinin Yəhya kimi bir «qurban»la mükafatlandırılması silsiləsidir.

## Bağbana mükafat

**«Orada o anda Zəkəriyya Rəbbinə dua etdi: «Rəbbim, mənə dərgahından təmiz bir nəsil ver. Əlbəttə. Sən duaları eşidənsən!»**

Hz. Zəkəriyya vəzifəsini icra edərək, bağban seçildiyi çiçəyi sahibinə qaytarmağın sevincini yaşayırdı.

Məryəmin ehtiyaclarını ödəmək vəzifəsi əmisi oğlu Yusifin üzərində idi. Bu o demək deyil ki, yaşlanmış Zəkəriyya artıq Məryəmi qorumurdu. Əksinə o, hər fürsətdə əllərində böyütdüyü və övladı yerinə qoyduğu bu müqəddəs yadigarı məqamında ziyarət edərək halını-əhvalını soruşur, ehtiyaclarının qarşılanıb, qarşılanmadığına nəzarət edirdi. Əslində Məryəmə bildirməsə də, ondan yana böyük bir qayğı çəkirdi. Bu qıtlıq illərində Yusif vəzifəsini icra edə biləcəkdirmi? İndi bu vəzifəni icra etsə belə, Zəkəriyya dünyasını dəyişəndən sonra nə olacaq?

Bu qayğılarla Məryəmə tez–tez baş çəkməyə başlamış və onu heyrətə salan bir mənzərə ilə qarşılaşmışdı:

**«...Zəkəriyya hər dəfə Məryəm İbadət etdiyi mehraba girdikdə onun yanında ruzi olduğunu görərdi. «Ya Məryəm bunlar sənin üçün hardandır? – deyə soruşardı…»**

Qulu ilə Rəbbi arasındakı səmimiyyətin göstəricisi olan bu yardım Məryəmin Allah dərgahındakı dəyərinin bir nişanəsi idi.

Bu halı görən Hz.Zəkəriyyanın qəlbində fırtınalar qopmuş, beynində suallar şimşək kimi durmadan çaxmışdı. Əvvəllər hiss etmədiyi duyğular bu hadisənin yaratdığı dəlikdən qəlbinə dolmağa başlamışdı.

Həqiqətən bu anda Məryəm kimi saleh bir övlada sahib olmağı necə də çox istəyirdi. Ona həmişə qiptə etmiş, onunla qürur duymuşdu. Məyrəmə olan ilahi yardıma şahid olduqdan sonra bu qiptə bir istək və arzuya çevrilmişdi. İndi övlad yoxluğunun acısını

ilk dəfə belə kəskin bir şəkildə hiss edirdi.

Bu hiss onda yeni deyildi. Məryəmə himayədarlıq etməyə başlayandan bu hissləri yaşayırdı. Övladının ola bilməsi arzusunun həyata keçməsi zahirən imkansız idi. Çünki, bu iş üçün artıq yaşlanmış, hələ üstəlik də zövcəsi də qısır idi... Sözügedən həsrətini Məryəmlə ovundurmağa çalışmış, bütün diqqətini onun üzərində cəm edərək arzusunu təskin etmişdir. Həyatın mövcud qadağaları Zəkəriyya ailəsinin bu arzusunun önündə aşılmaz bir dağ kimi dayanmışdı.

Sönməz bir həsrəti Məryəmlə ovundurduğu belə bir zamanda birdən birə Zəkəriyyanın önündə bir üfüq açılır və içindəki artıq külə dönmüş bu qədim arzunun külləri birdən-birə közərib ürəyini alovlandırır.

Allahın Məryəmə fövqəladə münasibəti idi onun bu arzusunu alovlandıran. Məryəimi bu qıtlıq, quraqlıq dövründə belə ruziləndirən qapı, onun övlad sahibi olacağı yolları nədən açmasın ki? Nədən bu uşağın doğula bilməsi üçün onun və zövcəsinin qarşısındakı əngəllər aradan götürülməsin?

**«Elə orada, o anda»** (hünalikə) deyir Quran. Məryəmə verilən nemətləri görər–görməz, orada və o anda Zəkəriyya əllərini açdı:

**«Orada, o anda Zəkəriyya Rəbbinə duaya başladı: Rəbbim mənə dərgahından təmiz bir nəsil ver. Əlbəttə, Sən duaları eşidənsən!»**

Məryəmə zamansız ruzi verildiyinin şahidi olan Zəkəriyya ona da zamansız övlad veriləcəyinə inamla bu duanı etmişdi:

Ayədən belə anlaşılır ki, Hz.Zəkəriyyanın Rəbbinin dərgahına yönəlməsinin səbəbi Məryəmə verilən o ruzidir. Təqvasına, iffətinə, ağlına qiptə etdiyi Məryəmin Rəbbi tərəfindən bu şəkildə qorunması və ruziləndirilməsi onda saleh bir övlada sahib olmaq arzusunu alovlandıran atəşin qığılcımı oldu.

Zəkəriyya Məryəmin o halını görüncə bir an idraki səbəblər zənciri içərisində cərəyan edən hadisələrin və əşyanın dünyasından sıyrıldı. Allahın rəhməti, qüdrəti, rubibiyyəti, uluhiyyəti, inayəti və sevgisinin bu təsirli nümunəsi qarşısında heyrət məqamında ürəyinin dərinliklərindən qopub gələn bu duanı etdi:

**«Rəbbim, mənə dərgahından təmiz bir nəsil ver. Əlbəttə**

**Sən eşidənsən, bilənsən!»**

Bəli, O, eşidən və biləndir. O, Zəkəriyyanın duasını «eşidən»dir və övladı dünyəvi arzuları üçün istəmədiyini, Məryəm kimi «nəzir» olsun, hətta «qurban» olsun deyə, istədiyini «bilən»dir..

«Nəslimi davam etdirsin» və s. kimi arzularla da istəmədiyini bilirdi. Allaha ərmağan etməyin, qurban etməyin sevincini yaşamaq üçün istədiyini «bilən» dir.

Əlbəttə, bu dua qəbul ediləcək və bağban mükafatlandırılacaqdı. Aradan çox keçmədən:

**«(Zəkəriyya) Məbəddə ayaq üstə durub namaz qıldığı zaman mələklər ona müraciət edib dedilər: «Allah sənə Özü tərəfindən gələn kəlməni təsdiq edən, ağa, nəslinə hakim və əməlisalehlər zümrəsindən bir peyğəmbər olacaq Yəhyanın xəbərini müjdə verir»**

Müjdə verilmişdi: Yəhyanın doğum xəbəri. O, Hz.Zəkəriyyanın xidmətinə bir mükafat idi. Fəqət bu müjdənin doldurduğu bir boşluq da var idi. Nəzir prosesini Hannə və Məryəmdən sonra üçüncü və son bucağını təşkil edən İsanın ətrafı hazırlanırdı. Onun özəlliyindən biri də ayədə bildirildiyi kimi **«Allah tərəfindən gələn kəlməni təsdiq edən»** olması idi.

Nəzirə gösiərilən fövqəladə münasibəti görüb idraki səbəblər dünyasından sıyrılaraq, aşiq bir ruh halı içərisində «həmən orada, o anda, «Rəbbim, mənə dərgahından təmiz bir nəsil ver» deyə, dua edib istədiyinin ən əlası verildiyi ona bildirilincə, Zəkəriyya sıyrıldığı səbəblər dünyasına geri dönmüşdü.

Bu dünya məntiqin, əşyanın və qanunların dünyası idi. Bu dünyada Zəkəriyyanın istəyinin gerçəkləşməsi zahirən mümkün deyildi. Məntiqin dünyasına həbs olunmuşluğun verdiyi çaşqınlıqla soruşdu:

**«Ey Rəbbim, üzərimə qocalıq çökdyüyü və zövcəm də qısır olduğu halda, mənim necə oğlum ola bilər?»**

Halbuki bir az əvvəl bunu istəyən özü idi. Amma yuxarıda toxunduğumuz kimi bu duanı etdiyi andakı ruh halı ilə bu sualı verdiyi andakı ruh halı arasında dağlar qədər fərq var idi. Duanı ürəyi və imanıyla etmiş, sualı isə ağlı və məntiqiylə vermişdi. Bu sual eyni zamanda bu iki dünya arasındakı əzəli rəqabət və

çatışmanın yalnız bir nümunəsi idi. Bəlkə də bəzilərinin «faciə» dedikəri  şeyin özü idi.

Fəqət Zəkəriyya ağlını və məntiqini imanın əlinə verərək istədiyi nəticəyə çatmışdı. Bu bəsit bir prosesdir: Məryəmi o halda görmüş, o anda öz vəziyyəti ilə Məryəmin arasında bir müqayisə etmiş, bu müqayisə nəticəsində öz halının da Məryəmə bənzədiyi gerçəyindən yola çıxaraq bir çıxış yolunun olduğu qənaətinə gəlmiş, bu qənaəti ürəyinə ötürmüş, orada iqtidar olan «iman» bunu təqdir edib Zəkəriyyanı Rəbbinin önünə çıxartmışdı.

Daha sonra imanla idrak etmək prosesini məntiqlə idrak etmək prosesinə çevirdiyinə görə anlaya bilmədiyindən soruşur:

**«Mənim necə oğlum ola bilər?»**

Rəbbindən aldığı cavab ağlına deyil, imanına xitab edən bir cavab idi:

**«Elədir!..»**

**«Allah dilədiyini edər!»**

Bəli, gördüyünüz kimi cavab çox qısa və aydın: «Elədir!» və bu cavabın ardınca Allahın bir sifətinə diqqət çəkilir: «Allah dilədiyini edər!» O, hər bir şeyə güc yetirən bir yaradıcı deyilmi?

Zəkəriyyanın qəlbi buna iman etsə də, məntiqi asanlıqla təslim olmaq istəmirdi. Onun məntiqi imanın önündə qeyri - şərtsiz, sənədsiz, sübutsuz təslim olmaq istəmir, onun bədən ölkəsindəki iqtidarına mütləq itaətə yaxın gəlmirdi. Mütləq özü inanmalı idi. Bunun üçün dəlillər, sənədlər və sairlər lazım idi. Hz. Zəkəriyya buna bənzər duyğular içində Rəbbinə yönəldi:

**«Ey Rəbbim! Mənə (oğlum olacağına dair) bir əlamət ver» - dedi. (Allah) buyurdu ki, «Sənin əlamətin üç gün ərzində adamlarla yalnız işarə ilə danışmaq olacaqdır. Rəbbini çox yada sal və səhər axşam şəninə təriflər deyib şükür et!»**

## Məryəm fərqi

Bu ayənin ardınca mövzu birdən kəsilib başa, Zəkəriyyanın mükafatlandırılmasının səbəbini təşkil edən ana mövzuya döndərilir:

**«Mələklər belə demişdilər: «Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, təmizləmiş, aləmlərin qadınlarından üstün tutmuş-**

**dur»**

İlk baxışdan sanki bu iki ayə arasında bir əlaqə yoxdur. Fəqət diqqət çəkildiyində Zəkəriyya üçün işlədilməyən bəzi sifətlərin bir «qadın» olan Məryəm üçün işlədildiyinin şahidi oluruq. Məsələn o seçilmiş, təmizlənmiş və üstün edilmişdir.

Şübhəsiz ki, onu üstün və ya «fərqli» edən bir çox özəllikləri vardır. Bizə görə bunların başında hər ikisi saleh və seçilmiş bir qul olan Zəkəriyya və Məryəm arasındakı «təslimiyyət fərqi» dururdu. Mələklər Zəkəriyya kimi, Məryəmə də səslənərək**: «Ey Məryəm! Həqiqətən, Allah öz tərəfindən bir kəlmə ilə sənə müjdə verir!»** Dediklərində, o, ona heç bir kişi əli dəyməmişkən bunun necə olacağını soruşmuş və Zəkəriyyaya verilən cavabın eynisi ona da verilmişdi. İndi hadisəni açıqlayan ayələri nəzərdən keçirək:

**«Ey Məryəm! Həqiqətən, Allah öz tərəfindən bir kəlmə ilə sənə müjdə verir! Onun adı Məryəm oğlu İsa əl – Məsihdir ki, dünyada və axirətdə şanı uca və yaxın olanlardandır»**

**«Dedi ki: «Rəbbim, mənə bir bəşər əli toxunmamışkən mənim necə övladım ola bilər? Elədir! ... dedi, Allah dilədiyini yaradır»** (3/45,47)

Zəkəriyya və Məryəmə söylənilənlərlə hər ikisinin verdiyi cavablar eyni formadadır. Ancaq bir fərq var. Diqqət çəkməyən, amma əhəmiyyəti verilməsi vacib olan bir Məryəm fərqi. Biz buna «təslimiyyət fərqi» deyirik. Zəkəriyya (ə) Allahdan oğlu olacağına dair bir «işarə» istəyərkən, mahiyyət etibarı ilə ondan daha möcüzəvi bir halla qarşılaşan Məryəm ona bir kişi əli toxunmadığını bilə-bilə «işarə» istəməyə gərək görmür. Madəm ki, «Elədir!» deyilir, «məndən də belədir» deyərək, bu ilahi iradəyə qeydsiz-şərtsiz təslim olur. Halbuki, Hz.Zəkəriyya də eyni cavabı almış, lakin o, «işarə» istəməkdən dura bilməmişdi.

Elə buna görə də Məryəm siddiq deyə anılırdı. Maidə surəsinin 57-ci ayəsində və dünya qadınlarına örnək göstərilən iki qadından (digəri fironun qadını) biri olurdu. Təhrim surəsindəki bu ayədə də Məryəm, Rəbbi tərəfindən «qənaətkar» olaraq tərif edilir.

**«O Rəbbinin sözlərini və kitablarını təsdiq etdi və qeydsiz şərtsiz ürəklən itaət edənlərdən oldu» (66/12)**

Məlum bir həqiqətdir ki, «Siddiqiyə» və «qənaətkar» yalnızca

nəbilərə və rəsullara xas sifətdir. Bu və buna bənzər keyfiyyətləri daşıyan hər kim olursa olsun o, İlahi seçimə namizədlər namizədi arasında yer alacaqdır.

Nəzirin bağbanı Zəkəriyya Yəhya ilə mükafatlandırılmışdır. Fəqət İslami hərəkatın fədakar mənsublarına göstərilən bu nümunədəki təcəlliyə baxın ki, mükafatın özü (Yəhya) və mükafatlandırılan (Zəkəriyya) da həyatlarını nəzir dedikləri Rəblərinə ölümlərini də nəzir deyəcək, sonunda nəzir prosesinin bu iki yardımçısı ən böyük səadət olan şəhadətlə mükafatlandırılacaqlar.

Nəzir prosesiində Yəhya(ə)nın rolu Zəkəriyya (ə)ın rolundan heç də az deyil. Zəkəriyya prosesin ikinci nəslinə bağban olmuş və onu yetişdirmiş, Hz. Yəhya da üçüncü və son nəslin mühitini hazırlama vəzifəsi ilə vəzifələndirilmişdir. Yəhya (ə) inancının hakimiyyəti üçün yaşamış və Allahın hökmlərinə boyun əymək istəməyən zəmanəsinin tağuti quruluşu tərəfindən atıldığı zindanda başı bədənindən ayrılaraq şəhid edilmişdi.

Nəzir prosesinin tək qurbanı Hz.Yəhya (ə) deyildi. Daha əvvəl də qeyd etdiyimiz kimi atası Zəkəriyya (ə) oğlunun qoç kimi boğazlanmasının ardınca buna bənzər bir aqibətlə Allah yolunun qurbanları arasına qatılmışdır.

Zəkəriyya ailəsinin başına gələnlər, zahirən bir fəlakət olaraq dəyərləndirilirsə də əslində üst–üstə gələn bir mükafatdır ki, onlar bu mükafatı nəzir prosesində etdikləri fədakarlıqla haqlı olaraq qazanmışlar.

Amma hamısından önəmlisi Allah Rəsulunun (sas) «Ümmətimin alimləri İsrail oğullarının peyğəmbərləri kimidir» hədisində ifadə etdiyi mənada ümmətin alimlərinə bu peyğəmbərlər bir nümunədir. Hər cür küfrə, tüğyana, azğınlığa, zülmə qarşı səssiz qalan, hətta dəstəkləyənlərinsə, Rəsulun təriflədiyi «Ümmətin alimləri» deyil, «zalımlərin alimləri» olduğu da bir həqiqətdir.

# DOQQUZUNCU MƏRHƏLƏ

## İKİNCİ NƏSLİN SEÇİMİ

[redacted]

**«Mələklər belə demişdilər: «Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, təmizləmiş, aləmlərin qadınlarından üstün tutmuşdur»**

Artıq Hannənin nəziri böyümüş və namizədlər arasına girmişdi. Anasının duası onun seçiminə zəmanət verən fakt sayılmırdı, ancaq namizədliyə namizədlər arasına sala bilərdi.

Başqa bir sözlə də İmran ailəsinin seçilmiş olması sözügedən ailənin hər fərdinin də seçilmiş olması demək deyildir. Bu seçimə hər kəs özü qatılacaq və öz imanı, əməli və ixlası ilə nəticəni təyin edəcəkdir:

***«Hər insanın əməli öz boynuna asılar»*** (17/13)

***«Hər kəsin qazandığı yalnız özünə aiddir»*** (6/152)

Məyrəmin seçilməsi də zamanlar və məkanlarüstü ilahi qanun çərçivəsində gerçəkləşdirilmişdir. Seçilmiş bir ailəyə mənsub olmasına, anası Hannənin ixlas və duasına, doğumundan əvvəl «nəzir» verilməsinə rəğmən bunların heç biri onun doğuşdan «seçilmişlər» arasına girməsinə yetərli səbəb sayılmamışdır. Ancaq o mükəlləf ola biləcək yaşa gəlib özünü iman və əməliylə isbatladıqdan sonra seçildiyi ona bildirilmişdir.

Bütün bu söylədiklərimiz ayənin üslubundan da açıqca anlaşılmaqdadır. Ayənin başındakı zaman zərfi, Məryəmin seçiminin müəyyən bir proses içərisində gerçəkləşdirildiyinin qrammatik dəlilidir. Yəni Məryəm «zamanı gəlincə» seçilmişdir. Seçilmə zamanının gəlməsində onun hür iradəsiylə etdiyi tərcih və bunun nəticəsində gerçəkləşən saleh əməlləri göstərici olmuşdur.

Hz.Zəkəriyyanı təəccübləndirən yeməklər Hz.Məryəmi heç təəccübləndirməmişdir. O, Rəbbi ilə qurduğu isti münasibətinin təbii bir nəticəsi olaraq, belə lütfləri normal qarşılayaraq əminliklə inandığı həqiqəti dilə gətirmişdir:

***«Əlbəttə, Allah dilədiyinə hesabsız ruzi verər»***

Hər kəsin özünü güclə dolandırdığı bir zamanda onun

ehtiyaclarını ödəməkdə çətinlik çəkən əmisi oğluna: **«Ya Yusif, Allaha hüsnüzənn et, şübhəsiz ki, Allah bizi ruziləndirəcək»** deməsi Məryəmin kamilliyinin göstəricisi olaraq onun Allahın dilədikləri arasına girməsinə səbəb olmuşdur. O, bu həqiqətə bütün varlığıyla iman etmiş və bədəni kimi qəlbinin və məntiqinin qibləsini də Ona doğru çevirmişdir. Bu səbəbdən də heç narahatçılıq keçirmirdi, Allaha olan güvənini gözəl bir formada dilə gətirərək ətrafındakılara da təsəlli verirdi.

Beləliklə, Hannə və bütün ilahi seçimə namizəd olacaq insanlar üçün keçərli olan bu prosesdə imtahanı müvəffəqiyyətlə verən Məryəm, sonunda seçimi qazandığı xəbərini alır.

**«Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, təmizləmiş, aləmlərin qadınlarından üstün tutmuşdur»**

Əlbəttə, Allah Təala təmizlənənləri seçir. Bununla bərabər seçdiklərini də təmizləyirdi. Yəni qul ona düşən vəzifəni layiqiylə icra edincə Rəbb də özünə düşəni artıqlamasıyla edir. O, Özünün dininə yardım edənə yardım edəcəyini vəd etmişdir. Bu səbəbdən də Onun yoluna nəzir deyilmiş Məryəmi təmizlədi.

Bu təmizləmənin necəliyi və mahiyyəti barədə ilk qaynaqlarda fərqli fərziyyələr vardır. Sözügedən təmizlik heyz və nifas kimi halların da ola biləcəyi kimi (Süddi) şirk, pis əxlaq, günah və haram kimi mənəvi kir və pisliklərdən təmizlənmə mənasına da gələ bilər.

Bizcə Məryəm, qarşıda yüklənəcəyi möhtəşəm rolu icra edə bilmək üçün qəlb, beyin, bədən təmizliyinin vacib olduğu qədər, təmizliyin daha çox vacib olduğu maddi-mənəvi bütün hallarda birdən təmizlənmişdir. Çünki, o bütün zamanların «nümunəvi qadını» seçiləcək qədər Allaha yaxın olmuş, Allah da onun iman və ixlasını, təslimiyyət və sədaqətini bu şəkildə mükafatlandırmışdır. Bu mənada Məryəm ona düşən vəzifəni yerinə yetirmiş, duyğu, düşüncə və bədənə xas kir və pisliklərdən uzaq olmağa çalışmışdır. Allaha olan güvən və sədaqətinə heç bir zaman xilaf çıxmamışdır. Allah da gücünin yetmədiyi anlarda ona yardımçı olmuş və təmizlikdə onu kamala yüksəltmişdir. Bu həyatın qanunudur: Qul özünə düşəni gücü yetdiyi qədər edərsə, Rəbbi də gücünün yetmədiyi yerdə onun yardımına gələr, edə bilmədiklərini tamamlayar.

Ayədə keçən «aləmin» kəlməsi, ərəb lüğətindəki özəlliyi etibarılə bütün şüurlu canlıları da ehtiva edən cəm şəkilçisidir. Bu mənada Məryəmin seçilib üstün edilməsi, varlıq dünyasındakı bütün şüurlu yaradılmışlar içərisindən gerçəkləşdirilmişdir – demək mümkündür.

Şübhəsiz ki, onun aləmlərin qadınlarına üstün edilməsi simvolikdir və «nümunə olmaq» baxımındandır. Bu həqiqəti Allah Rəsulunun mövzu ilə əlaqəli hədislərindən da anlamaq mümkündür.

«Cənnət qadınlarının ən xeyirlisi İmranın qızı Məryəm və Hüveylid qızı Xədicədir» (Hz. Əlidən)

«Kamilliyin zirvəsinə çatmış qadınlar kişilərə nisbətən azdır. Məryəm, Asya, Xədicə, Fatimə bu qadınlardandır» (Əbu Musa əl – Əşaridən)

Bu xəbərlərdən də aydın olur ki, Məryəm «örnək» bir qadındır. Onun Quran tərəfindən bütün zamanların örnək ana nümunəsi seçilməsi də hər zamanın, hər dövrün Məryəmləri olacağının, olmasının vacib olduğunun da bir dəlilidir. Dövrünün Məryəmi ola bilmək imkansız olsaydı Quran onu bizlərə niyə nümunə göstərsin? Örnək göstərilən bir şey tövsiyyə edilən deməkdir. Allah tərəfindən tövsiyyə edilən şey imkansız deyil, əksinə mümkündür, çünki güc yetirilməyəck bir şeyi təklif etmək Allahın hikmətinə yaraşmaz.

Müsəlman qadının öz dövrünün, öz cəmiyyətinin, öz torpağının, öz məhəlləsinin, öz ailəsinin Asyası, Hannəsi, Məryəmi, Xədicəsi, Fatiməsi, Zeynəbi olması üçün bu misallar bizlərə təqdim olunur. Əlbəttə firon kimi dünya zəngini, iman kasıbı bir erkəyin pəncəsinə düşən Müsəlman qadınının Qürani nümunəsi Asyadır. Onun məlum şərtlər içərisində imanını qoruduğu kimi bu dövrün Asyası da lüks həyata, nəfsə, şəhvətə qarşı sinə gərərək imanını qoruyacaqdır.

Allaha ölümsüz bir nəzir təqdim etmək istəyən qadının nümünəsi İmranın zövcəsi Hannədir. Onun təqdim etdiyi kimi təqdim edəcək, ondakı əqidə sağlamlığını, ixlası və ədəbi örnək alacaqdır.

İnsanlığı irşad edəcək öndərlərə, dəvətçilərə, liderlərə ana olub, dağlardan ağır məsuliyyətlərin altına girənlərin nümunəsi

Məryəmdir, Xədicədir, Fatimədir... İnsanlıq var olduqca bu örnəklərin yollarını davam etdirənlər var olacaqdır.

# ONUNCU MƏRHƏLƏ

## İLAHİ FORMULA, SON HAZIRLIQLAR

Məryəmin bütün örnək adlar içərisində xüsusi bir yeri olduğu danılmaz bir həqiqətdir. O, örnəklər örnəyidir. Çünki, Aişə, Zeynəb, Səfiyyə kimiləri bütün mömin xanımlara örnək olma məqamına yüksələndə Peyğəmbər qadınlarına da Allah Məryəmi nümunə göstərmişdir.

Məryəmin imanı, ixlası və əməli ilə namizədlər arasına daxil olub İlahi seçimi qazanmasından sonra Rəbbi onun məqamına yaraşan bir daxili tərbiyə formulası təqdim edirdi. Çünki qarşıda yüklənəcəyi ağır məsuliyyəti, başqa cür deyil, yalnız imanı, ixlası və təslimiyyəti sayəsində yıxılmadan daşıya biləcəkdi. Bu formula budur:

**«Ya Məryəm, öz Rəbbinə itaət et, səcdəyə qapan və rüku edənlərlə birlikdə rüku et!»**

Ya Məryəm!

İtaət edəcəyin qapı sənin nəzir verildiyin uca qapıdır.

Səcdə ediləcək, baş əyəcək, diz çöküb - əl açacaq, «Ləbbeyk, ya Rəbbim!» deyilib itaət ediləcək, min dəfə qovulsan belə arxa çevrilməyəcək tək qapı Onun qapısıdır.

O halda təşəkkürünü yalnız Ona yönələt. Gözünü, özünü, üzünü, könlünü yalnız Ona çevir. Özünə Ondan başqa dayaq, sığınacaq, güvən axtarma. Onun önündə baş əyən kainatla birlikdə sən də əyil. Onun əmrinə müntəzir olan şüurlular, şüursuzlar, yerlər, göylər, dağlar, dənizlər, atomlar, hüceyrələr və mələklərlə birlikdə sən də Ona tabe ol!

Duyğunu, düşüncəni və əməlini Ona, Onun sevdiklərinə, Onunla əlaqəsi olan şeylərə həsr et!

Yer üzündəki bütün siddiqlər, salehlər, şəhidlərlə birlikdə sən də bu cahanşümul xora qatıl və:

**«əyilənlərlə birlikdə sən də əyil»**

Yalnız deyilsən! Qula qulluğu rədd edib, yalnız Allaha qul olan insanlarla ortaq dəyərləri paylaşırsan. O halda qatıl onların

məhşərinə və Rəbbinin sənin üçün seçdiyi rolu sevərək oyna!..

«Əyilənlərlə birlikdə» mənasını verən «maar–rakiin» kəlməsi xüsusi ilə kişilər üçün istifadə olunan cəm halı ilə verilmiş, yalnız qadınlar üçün istifadə edilən «rakiat» formasında gəlməmişdir. Səbəbi isə Məryəmə tövsiyyə edilən bu şeyləri sadəcə bir cinsə təhsis etməmək, yalnız qadınlara xas bir tövsiyyə olmadığını vurğulamaqdır. Kəlmə bu mövcud formulası ilə zatən qadın-kişi, bütün insanlara, hətta cinlərə və mələklərə də aid olunur.

«Əyilənlərlə birlikdə sən də əyil» İlahi əmrində Məryəmə yalnız olmadığı, cahanşümul bir hərəkətin mənsubu olduğu xatırladılır. Bir az əvvəl də vurğuladığımız kimi «rakiin» formulasının qrammatik keyfiyyətlərindən bir də şüurlu varlıqların hamısı üçün istifadə olunmasıdır. Məryəmin üzvü olduğu bu hərəkət sadəcə qadınlar deyil, qadın-kişi bütün insanlar cinsini ötüb mələklər və cinlər kimi digər şüurlu varlıqlarla da paylaşılan bir hərəkətdir.

Bu həqiqət Məryəmə xatırladılaraq cahanşümul bir hərəkətin mənsubu olduğu şüuru ilə əyilənlərlə birlikdə əyilməsi tövsiyyə edilməkdədir. Əlbəttə, həyatında bircə dəfə də olsa aşiq Ruh halı və «cahanşümulluq» şüuruyla gecənin bir vaxtında Rəbbinin hüzurunda qorxu və ürpərti ilə durmamış, yerlərə qapanmamış insana, bu və bunun kimi ayələr heç nə söyləməyəcəkdir.

&

Hannənin duasıyla başlanan nəzir prosesinin meyvə vermə zamanı yaxınlaşmaqdadır. Hannə nəzirini vermiş və onu sahibinə ismarladıqdan sonra dünyaya vida etmişdir. Nəzir nəzir verildiyi qapı tərəfindən qəbul edilmiş, bir çiçək kimi böyüdülmüş və bu çiçəyə Zəkəriyya (ə) ailəsi kimi bir bağban da təyin edilmişdir.

Nəzir mükəmməliyini isbat etdikdən sonra fərdi imtahanını verərək İlahi seçimi qazanmış və artıq son hazırlıqlar edilməkdədir.

Dünyaya atasız uşaq gətirmək kimi möcüzəni həyata keçirəcək Məryəmin bu həm mənəvi və maddi məsuliyyətli ağır rola qəlbən hazır olması lazım idi. Bu məqam da Rəbbi tərəfindən ona xatırladılmışdır.

Bütün bunlara əlavə olaraq hadisənin bir də cəmiyyət cəbhəsi

tərəfi var ki, bu baxımdan da Məryəmin halı «töhmət qınağına»dır. Belə ki, dünyanın ən iffətli və sədaqətini Quranın təsdiqlədiyi dürüst qadın hamilə qalar-qalmaz, ən yaxınları və cəmiyyət tərəfindən çirkin bir şəkildə iftiraya məruz qalacaq. Bu iftiradan qəyyumu Hz.Zəkəriyya və Yusif kimi saleh insanlar da paylarını alacaqlar.

Nə qəribə bir təcəllidir ki, həm Hannə və İmran kimi seçilmiş bir ailənin Allaha verilmiş bir nəziri olacaq, həm Zəkəriyya kimi bir nəbinin əllərində yetişəcək, həm hər cür İlahi yardıma nail olacaq, bütün bunlardan sonra da dağları inlədəcək ağır bir imtahanın altına girəcəkdir.

Hələ gənc, yeniyetmə Məryəmin imtahanının ağırlığını və iftiraya məruz qalaraq çəkdiyi acıları təxmin etmək çətindir.

Siddiqiyyət və qənaətkar keyfiyyətlərini Allahın qeyd etdiyi, sarsılmaz imanına Quranın şahidlik etdiyi İlahi tərbiyənin körpəsi Məryəm bütün bu özəlliklərinə rəğmən daşıdığı yükün ağırlığı altında inləyəcək və iffət heykəli bu örnək gənc qız bətnində daşıdığı möcüzə uşağa görə pak ətəyinə palçıq atılacağını düşündükcə:

**«Kaş ki, mən bundan əvvəl ölüb qurtaraydım və tamamilə unudulub getmiş olaydım»(19/23)**

*Bu Allahca bir imtahandır.*

*Bu imtahanların ən çətinidir.*

İmtahanların ucu-bucağı yoxdur. Böyük davaları kürəyində daşıyanların başına elə hey boşalır. Quranın təbiri ilə «qəm üstünə qəmdir» ki, bu imtahan yağmurundan yıxılmadan, yorulmadan, oturmadan, geriyə dönmədən çıxanların, imanı dəfələrlə itilənmiş qılınc kimi sağlam olur.

**«And olsun ki, Biz içərinizdəki mücahidləri və səbr edənləri ayırd edib bilmək üçün sizi imtahana çəkəcək və sizə dair xəbərləri də yoxlayacağıq» (47/31)**

**«Yoxsa siz, sizdən əvvəlkilərin başına gələnlər sizin də başınıza gəlmədən Cənnətə girəcəyinizimi sanırsınız?» onlara elə bir yoxsulluq və sıxıntı toxunmuşdur ki, elə sarsılmışdılar ki, sonunda peyğəmbər və onunla birlikdə olan inananlar «Allahın yardımı nə zaman gələcək?» demişdilər»** (2/214)

**«Allah sizə qəm üstündə qəm verdi ki, nə əlinizdən çıxan şeylərə, nə də başınıza gələnə üzülməyəsiniz. Şübhəsiz ki, Allah gördüyünüz işlərdən xəbərdardır!»** (3/153)

Nümunə olmanın və nümunə olanların yolunu davam etdirmənin əzəmətli ağırlığını çiyinlərində daşıyanlar əyilir, lakin yıxılmazlar, silkələnər amma aşmazlar, bəlkə yavaşıyarlar, lakin dayanmazlar. Kədər və sıxıntının ağırlığından qabırğaları bir-birinə keçdiyi halda hallarını soruşsanız alacağınız cavab həmişə eyni olacaq:

**«Allah bizə yetər. O, nə gözəl vəkildir»**

Onları ən dar, ən çətin zamanlarında sıxışdırsanız belə heç vaxt Allahdan şikayət etdirə bilməzsiniz. Bilirlər ki, atəşlərdə sınanmaq tərbiyə edilməkdir. Rəbblərindən «Rəbb (tərbiyə edən) olaraq» razıdırlar. Əlbəttə, O, da onlardan razıdır:

**«Allah onlardan razı olmuş, onlar da Ondan razı olmuşdurlar. Onlar Allahın firqəsidirlər. Bilin ki, məhz Allahın firqəsi nicat tapıb səadətə qovuşacaqlar»** (58/22)

Nə qədər sıxışırsa sıxışsınlar Allaha üsyan etdiklərini görməzsən. Şikayətləri və üzülmələri nəfslərindəndir. Özlərinə bir yaxşılıq toxunduğu zaman onu Allahdan, bir pislik toxunduğu zaman onu nəfslərindən bilərlər.

Onlar cəmiyyətin paratonerləridir[31]. İnsanların əbədi səadəti üçün yaşayar və yenə onlar üçün savaşar, ölərlər. Bu səbəbdən də bütün ildırımlara başlarını dik tutarlar. Şairin dediyi kimi:

*Yerdən nə qəribə qəm keçər olsa qonar mənə*

*Bəla rəhində indi müəyyən mənzil oldum mən.*

---

*[31] (fr) Binaları ildırımın təsirindən qorumaq məqsədi ilə tikililərin üstünə qoyulan və bir ucu torpağa bağlanan cihaz.*

# ON BİRİNCİ MƏRHƏLƏ

## NƏZİR PROSESİNİN MEYVƏSİ: «MÜJDƏ»

Nəzir prosesi son keçidinə gəlimişdir. Prosesin meyvəsi yığılacaq.

Bu «gözəl bitki» İmran ailəsinin təmiz tarlasına əkilmişdir. Hələ torpaq altında ikən Hannə onu Rəbbinə nəzir demişdi. «Gözəl bitki» cücərər-cücərməz onun üçün hazırlanmış xüsusi bağçada Zəkəriyyə kimi bağbanın himayəsində yetişdirilmişdi. Artıq böyüyən bitkinin meyvə vermə zamanı yaxınlaşmışdı. «Nəsir prosesinin» qısa tarixi budur.

Nəticə? Nəticə «müjdə» idi. Allah ona «Müjdə» mənasını verən «Məsih» ləqəbini vermişdir (Təbəri). Həqiqətən də belə çətin bir prosesin sonu «qurtuluş» deməyə gələn bir «müjdə» idi:

«**Mələklər demişdi ki: Ey Məryəm, Allah səni özündən gələn bir kəlməylə müjdələyir. Adı Məryəm oğlu Məsihdir. Dünyada və axirətdə də şərəfli və (Allaha) yaxın olanlardandır!**»

Quran onun xüsusilə «kəlmə» olduğunu vurğulayır. Çünki o, kəlmənin övladıydı (Katade). Sözügedən kəlmə Allahın «Ol» (kun) əmrindən başqası deyil. O, «ol» demişdi, o da olmağa başlamışdı. Allah Təala dövrünün bir çox bütünü onun əliylə yıxacaqdır.

Onun yıxdığı birinci büt patiarxal Roma cəmiyyətinin tanrılaşdırdığı erkəkdir. O, atasız doğulmaqla bu cəmiyyət bütünü yerlə bir etmişdir. Allahın bu sosial natarazlığa olan qəzəbinə baxın ki, Qurandakı bununla əlaqəli ayələrdə  və bu ayədə bir kişini, həm də bir çox fövqəladə qabiliyyətlər verilmiş bir erkəyi, bir qadına istnad edərək anır:

**«Məryəm oğlu İsa…»**

Həm də bunu israrla, üzərində vurğu vuraraq edir. İlahi lisanda «Məryəm» adı olmadan «İsa» adı çəkilmir. Allahın yaratdıqlarını siniflərə ayıran bütün sinifçilərə, irqçilərə, millətçilərə, torpaqçılara, cinsiyyətçilərə və növ-növ tərəfdarlıqlara qarşı bundan daha gözəl etiraz olardımı?

Onun yıxdığı ikinci büt Yəhudi bütü idi. Allah tərəfindən İlahi mesajı sahiblənməklə vəzifələndirilən İsrail oğulları onlara verilən əmanətə xəyanət etmişdilər. Sözügedən xəyanətlərinə rəğmən özlərini hələ «seçilmiş millət» olaraq görməyə davam edirdilər. Əmanətin onların əllərindən alınıb layiq olana veriləcəyini qəbul etmək istəmirdilər. İrqçiliyi elə müqəddəsləşdirmişdilər ki, heç bir iltimasın keçərli olmadığı axirətdə belə yəhudi olmağı imtiyaz vəsiləsi zənn edir, buna görə də nə qədər azğınlıq etsələr də, cəza günündə onlara veriləcək cəzanın üç-beş gündən çox olmayacağına inanırdılar:

**«Cəhənnəm odu bizə bir neçə gündən artıq əzab verməz»** (2/80)

Bir büt halına dönmüş bu millətçiliyi Allah yenə də içlərindən biri olan Hz. İsanın əli ilə yıxırdı.

Ayədə keçən "adı Məryəm oğlu İsa Məsih" cümləsi eyni zamanda, gələcəkdə ortaya çıxacaq hər cür bütləşdirməyə də köklü etiraz idi. Hz.İsanın mesajını qısa zamanda təhrif edəcək olan Xristiyanlar onu tanrılaşdıraraq – "Allahın oğlu" deyəcəklərdi. Quran daha başından onun "Məryəmin oğlu" olduğunu vurğulayaraq, həqiqəti gizlətməyə çalışanlara doğru ünvanı bildirmişdir.

Hz.İsanın "dostlarının" ona olan zülmünü bu şəkildə rədd edən Allah, onun "düşmənlərinin" ona olan zülmünü və iftirasını yenə həmin ayədəki "O dünyada da, axirətdə də şərəfli və Allaha yaxın olanlardandır" cümləsi ilə rədd edəcək.

Biri sözdə "dostlardan", digəri "düşmənlərdən" gələn bu əks qütblü və iki yönlü müsibət, əsasən cəmiyyətin öndərlərinin hamısını gözləyən potansial iki növ təhlükədir.

Birincilər ilahlaşdıraraq onu olmadığı bir məqama ucaldaraq, ikincilər isə ona iftira və çirkab ataraq məqamından aşağı çəkməyə çalışaraq ona zülm edirdilər. Həqiqətdə isə bu iki zümrənin etdikləri arasında nəticə etibarı ilə elə böyük bir fərq də yoxdur. Həticədə hər iki tərəf zülm edənlərdir. Allah Rəsulu cəmiyyətlərin bu əzəli zəifliyini bildiyi üçün: "Mənə Xristiyanların Məryəm oğlu İsaya dediklərini deməyin, mənə Allahın qulu və Rəsulu deyin!" buyurmuşdur.

Yəhudilər də, Xristiyanlar da sözügedən tövrləri ilə əslində öz

nəfslərinə zülm edirdilər. Belə ki, birincilərin zülm vasitəsi “sevgiləri” olduğu halda, digərlərinin zülm vasitəsi “nifrətləri” idi.

Nəticədə “müjdə”nin yolunu davam etdirmə vəzifəsi ifrat artırma və ifrat azaltmaları səbəbilə sözügedən iki zümrəyə də verilmədi. Onlardan fərqli, insanı və əşyanı hikmətlə tanıyan, Allahın əziz qıldığını zəlil, zəlil qıldığını da əziz etməyə çalışmayan bir inamın mənsublarına - Müsəlmanlara verildi.

Əmanət verilən müsəlmanlar da “qəzəbə uğrayanlar” kimi azaraq “yəhudiləşir” və ya da “azmışların” yolunu təqib edərək “xristianlaşır”larsa, əlbəttə onların içərisindən seçilib bu bəlalardan qorunmuş olan, Kitabı oxuyan, anlayan, yaşayan və yaşadan sağlam bir zümrə hər zaman var olacaq:

**“İçinizdən xeyrə çağıran, mərufu əmr edib, münkəri qadağan edən bir topluluq olsun!** (3/104)

Bu yolu davam edən və Quranın da “içinizdə olsun” dediyi o seçilmişlərdən olmaq, hətta onların içindən də seçilib öndər ola bilmək yollarından biri olan bu “nəzir qissəsi” Allahın ixlaslı qullarına verdiyi bir TARİX SİRRİ idi.

# TƏTİMMƏ[32]

[redacted]

**“Qurandan endirdiklərimiz möminlər üçün bir şəfa və rəhmətdir. Zalımların isə qəzəbini artırmaqdan başqa bir şey deyil”** (17/82)

Bitməz bir şəfa qaynağıdır Quran. Günəş kimi: dağ və daş, qurd və quş, quru və yaş deməz, aydınlığını comərdlər kimi paylayar.

Baharların qaynağıdır o, göylərin əli ilə insanlağın başına qoyulmuş bir səadət tacıdır.

O, insanı axtarar, insan da onu. O, insanlığı axtarar, insanlıq da onu. Eynən suyun torpağı axtardığı, torpağın toxumu, irmağın dənizi, körpənin anasını, Yaqubun Yusifi, Məcnunun Leylini axtardığı kimi.

O, hər kəs üçün bir şəfa və rəhmətdir. İnsandakı dünyanın və dünyadakı insanın ardı arası kəsilməyən maddi-mənəvi xəstəliklərinin şəfasıdır. Dəvadır özünə, nurdur gözünə və könlünə. Və rəhmətdir susuz səhralardan betər hala gətirilən qəlbinə və ağlına.

O, toplumlar üçün bir şəfa və rəhmətdir. Onun gerçəkdən hakim olduğu toplum səadət toplumu, o toplumun yaşadığı dövr səadət dövrü olur.

O, istənilən sahədə bənzərsiz və təkdir. Heç bir kitab onun qədər yayılmış və uzunömürlü olmaq şansını əldə edə bilməmişdir. Heç bir kitab onun gördüyü diqqətə sahib olmamış və olmayacaqdır. Heç bir Kitab həqiqət meyarı olaraq və mühafizə edilməkdə onun topuğuna belə çata bilməmiş və çata bilməyəcəkdir.

Heç bir bir Kitab ona inananları onun coşdurduğu, arxasınca yüyürtdüyü, tətmin[33] və xoşbəxt etdiyi qədər coşdurub, arxasınca apara bilməmiş, tətmin və xoşbəxt etməmişdir.

Onun uğruna qurban olunduğu qədər heç bir Kitabın uğruna qurban olunmamışdır. Uğrunda ölən digər kitablar gün gəlmiş ki,

---

[32] *(ər) tamamlayan, əlavə olunan.*
[33] *(ər) Xatircəmlik vermək, təminat vermək.*

ona inanacaq, qoyduğu qanunlar uğrunda vuruşacaq və can verəcək bir insan belə tapa bilməyib muzeylərdə məhv olmuşlar. Lakin onun müdafiə etdiyi ölümsüz və sabit dəyərləri uğrunda dünən olduğu kimi bu gün də insanlar qanlarını sevə-sevə vermək üçün yarışırlar. Dünya durduqca da qanlarını sevə-sevə verməyə davam edəcəklər.

O, 15 əsr əvvəl, eynən bir dirilik suyu kimi ölü toplumları dirildib ayağa qaldıraraq müdafiə etdiyi əqidələr uğruna bütün dünyaya qarşı meydan oxuyacaq bir iradə aşılamışsa və nazil olduğundan 15 əsr sonra da eyni təzəlik və səmimiliklə toplumları müdafiə etdiyi əqidələr uğrunda ayağa qaldırır, dünyaya meydan oxudursa, kimsənin şübhəsi olmasın ki, dünyanın nə qədər ömrü varsa, bundan neçə min beş yuz il sonra da sözügedən canlılığından heç bir şey itirmədən toplumlara təsir etməyə davam edəcək.

Quran bütün bu keyfiyyətlərinə baxmayaraq hər kəs üçün bir şəfadırmı?

Bu suala özü cavab versin:

**“Qurandan endirdiklərimiz möminlər üçün bir şəfa və rəhmətdir. Zalımların isə qəzəbini artırmaqdan başqa bir şey deyil”** (17/82)

Bəli, o zalımlar üçün bir şəfa deyil. Necə günəş və su, hər kəs və hər şey üçün, hər zaman bir həyat qaynağı deyilsə, əksinə bəziləri üçün bir fəlakət, bir son, bir yanğı, bir boğulmadırsa, Quran da zalımlar üçün elədir.

Bu səbəbdəndir ki, tarix boyunca Quran hökmlərinin ən zalım düşmənləri saxtakarlar, namussuzlar, soyğunçular, möhtəkirlər, xüsusilə zülmün hər növünü işləyən zülmkarlar olmuşlardır. Onlar belə yaşamaqla həm başqalarına, həm də nəfslərinə zülm etmişlər.

O, cəmiyyətinə zülm edənlər üçün, iqtidarda olub, cəmiyyətini insan səadətinin təminatı olan əhkamdan uzaq tutanlar üçün bir şəfa deyildir.

Xalqlarının kürəyinə bir gənə kimi yapışıb onun qanını soran idarə edənlər üçün hakim siyasi, iqtisadi, dini siniflər, xüsusilə sömürdükcə piylənən, piyləndikcə sömürən hər bir zalım kafirlər və günahkarlar üçün o, bir şəfa deyil.

Əksinə, onların qəzəbini artırır, eynən mömininin imanını

artırdığı kimi. Qəzəbini artırır, çünki o zalımları atəşlə müjdələyər və deyər ki:
**«İnkarınıza əvəz olan əzabı dadın...»** (3/106)
**«Dadın o əzabı ki, əllərinizlə qazandınız»** (7/39)
**«Dadın əzabı yalanladıqlarınıza əvəz olaraq»** (9/35)
**«Dadın inkar etdiyiniz atəş əzabını»** (34/42)
**«Dadın bu gün zalımların heç bir yardımçısı da yoxdur...»** (35/37)

Elə bu səbəbdən Qurana düşməndir onlar, həm də ən qəddar düşmən. Quranın hökmünə qarşı heç bir şeyə duymadıqları kini duyarlar. Heç bir şey onları Quran hakimiyyətinin rahatsız etdiyi qədər rahatsız edə bilməz. Günəşdən rahatsız olan qaranlıq quşları, yarasalar kimi onlar qaranlıqlarına, dəbdəbəli mağaralarına qaçarlar. Günəşə, onun işığına qarşı xalqlarından qəsb etdikləri imkanlarıyla, medialarıyla, işğallarıyla, ordularıyla savaş açarlar. Bacara bilməyəndə, qanadlarıyla onun işığını örtməyə çalışırlar. Onu da bacarmayanda, gözlərini yumarlar.

Aydınlığa düşmən olmaları səbəbsiz deyil. Onlar qaranlıqların, qaranlıq işlərin adamıdırlar. Onların həyatlarını fırıldaq, hiylə, intriqa, hiyləgərlik, oyun, saxtakarlıq, talan, oğurluq və s. bu kimi «məlum» kəlmələr ifadə edir. Onlar qaranlığın yetişdirmələridir. İçində üzdükləri bər-bəzəyin və dəbdəbənin qaynağı qaranlıq işlərdir. Elə bu səbəbdən sevərlər qaranlığı, bu səbəbdən düşmən olarlar aydınlığa və onu təmsil edən hər kəsə.

Onların dərdi inam, fikir, ideologiya filan deyil. Onlar düşmənin ən iyrənc tipləridir. Gerçəkdə namuslu bir düşmən belə ola bilməzlər, eynən namuslu bir dost ola bilmədikləri kimi. Onlar nəfslərinin, şeytanlarının, xüsusilə mənfəətlərinin dostlarıdır. Və onlar dünyəvi mənfəətlərinə toxuna bilən hər şeyin düşmənidirlər.

Quran onların zülmünü kökündən kəsəcək bir həyat nizamı qurduğu üçün düşməndirlər ona. Məzlumların qanlarını sormasına yol vermədiyi üçün düşməndirlər.

Ətrafına bir bax, Quranın hökmlərinə ən çox düşmən olanların talançı və soyğuncu zalımlar olduğunu görərsən. Bir millətin başına qanla, ölümlə, dar ağacı ilə oturanlar və onların davamçılarını görərsən.

Onların talanına və soyğununa, əxlaqsızlıq və namussuz-

luqlarına, içki və nəşələrinə toxunmasaydı, sizi əmin edirəm ki, Qurana və onun hökmlərinə bu düşmənçiliyi bəsləməzlərdi. Hətta onlar şəriətçi belə olardılar. Bundan heç şubhəniz olmasın.

Onlar zülmlərinə səs çıxarmayacaq, soyğunlarına, çalıb-talamalarına, rəzalət və fənalıqlarına qarışmayacaq bir kitabdan, belə bir dindən yerdən göyə qədər razıdırlar. Fəqət Quran buna müsaid bir kitab, islam buna müsaid bir din deyildir. Onu yadellilərin bu qədər cəhdi, yerlilərin xəyanəti və müsəlmanların cəhalət və zəlalətinə baxmayaraq, heç bir zaman Tövrat və İncilə bənzədə bilməyəcəklər. Allah tərəfindən qorunmuş olan bu Kitabı təhrif edə bilməyəcəklər. Buna görə də onların bu Kitaba olan düşmənçiliyi bitməyəcək.

Zalımlar zülmlərindən vaz keçmədikləri müddətdə Qurana düşmən olaraq qalacaqlar və onlar var olduğu müddətdə də Quran onların qəzəbini artırmağa davam edəcək.

Quranı həyat qaynağı günəşə bənzətmişdik. Bu günəşin həyat qaynağı ola bilməsi üçün insanın gözünü, könlünü və zehnini ona açması vacibdir. Əgər pərdələrini sıx örtmüsənsə, deməli sənin üçün günəş doğmayıb. Quran günəşinin aydınlığından faydalana bilmək insanın duyğu və düşüncə zindanlarının divarlarını yıxıb, ağıl və qəlb pərdələrini aralaması ilə mümkündür. Gözlərini yüman dünyanı özünə zindan etdiyi kimi, qəlbini və ağlını bağlayan da Quranın şəfa və rəhmətindən istifadə edə bilməz.

Quranın tarixin tozlu dəhlizlərindən çıxardıb bizə təqdim etdiyi nümunələrin yerdən çıxmadığına, bunların İlahi hikmətə tabe olaraq bəlli bir qanunauyğunluqla seçildiyinə daha əvvəl toxunmuşduq. Beləliklə, bu seçim İlahi nümunədən biri olan nəzir qissəsi üçün də keçərlidir. Rəbbimizin bu qissə ilə vermək istədiyi nəsihəti qədimlərin təbiri ilə desək «əfradını cami, ağyarını mani»[34] şəklində izah edə bilməyimizi asanlaşdırmaq məqsədilə qələmə aldığımız bu risalə bəhs edildiyi müəyyən ayələr çərçivəsində bu gün içində olduğumuz hala bənzər hallara diqqət çəkməkdədir.

---

[34] *Gərəkli bütün ünsürləri ehtiva edən gərəkli olmayanı kənara qoyan, tam, mükəmməl.*

Bunların maddələr halında xülasəsini versək:

## 1. QURANIN ANLAŞILMASI PROBLEMİ

Quranın təhrifdən İlahi zəmanətlə qorunmuş bir Kitab olması insanlıq və möminlər üçün həqiqətən böyük bir nemətdir. Belə ki, bu neməti əldə saxlamaq Müsəlmanların təhrif və təğyirin hər növündən qorunmuş və mühafizə olduqları mənasına gəlmir. Quranın mətnini təhrif edə bilməyən Quran düşmənləri, ona inanıb, anlayb, yaşayacaq olan insanların duymaq və düşünmək qabiliyyətlərini məhv etməyə meylləndilər.

Bu gün Quranın mətninin təhrif edilmədiyi nə qədər dəqiq və sevindirici bir həqiqətdirsə, ona varis edilən Müsəlmanların düyğu və düşüncələrinin dəhşətli dərəcədə təhrif olması da ən az o qədər dəqiq və kədərləndirici haldır. Və bu proses dəhşətli dərəcədə artmaqdadır. Bu vəziyyətdə Quranın qorunmuş olmasının Müsəlman fərdlər üçün praktiki bir qiyməti qalmır. Fərz etsək ki, onun təhrifi zamanı nəticə nə olacaqdırsa, bu ikinci halda da nəticə eyni olacaqdır. Amma əldə qorunmuş bir Kitabın olması hər zaman üçün mahiyyətə dönməyi mümkün edən potensial bir güc olaraq Müsəlmanların önündə durur.

Bu vəziyyətdə Müsəlmanın üzərinə düşənlər bunlardır: Quranı doğru anlaya bilmək üçün təhrif edilmiş və pozulmuş qəlbini və ağlını düzəltmək, belə bir təxribata məruz qalmış beyinlərin məhsulu olan və Quranın İncilləşdirilməsi anlamına gələn açıqlamalara qarşı ayıq olmaq. Bununla bərabər, Quranın həyatdan xaric olunması üçün rəsmi-dini ya da rəsmi-elmi qurumlar və müəssisələr tərəfindən dəstəklənib fəna halda bir oryentalist surəti olan çevrələr tərəfindən «elm» pərdəsi altında başladılan «xidmət» görünüşlü hücumlara qarşı durmaq. Bunun üçün də zamanlar və zəminlərüstü Qurani anlayışın dinamikasını, «həyat» modellərini və ölümsüz örnəklərini toplumun istifadəsinə təqdim etmək və bunu geniş kütlələrə çatdırmaq.

## 2. ÖNDƏRLİK PROBLEMİ VƏ BU PROBLEMİN HƏLLİNDƏ QURANİ ALTERNATİVLƏR

Müasir islami hərəkatların əsas problemlərindən biri olan öndərlik probleminin kamil mənada həlli üçün Qurani örnəklərdən istifadə ilə alternativlər inkişaf etdirmək. Bu sahədə inkişaf etdirilən bir günlük və ucuz, tarixin qanunlarına və Qurani örnəklərə əhəmiyyət verməyən zəhmətsiz və məşəqqətsiz vasitələr yerinə daha tutarlı və sünnətullaha uyğun vasitələrə diqqət çəkmək.

Təbii ki, sıxışdırıldıqları mühasirədən bir an əvvəl xilas olmaq istəmək müsəlmanların haqqıdır. Onlar bunu istəməklə qınana bilməzlər. Necə ki, «Təki, bir an əvvəl xilas olum, kimin öndərliyində, hansı üsul və ya üslubla olur olsun» - deyə bilməzlər. Hər hansı bir hərəkat özü üçün belə düşüncəsiz və mənfəətçi vasitələri mənimsəyə bilər, lakin İslami hərəkat əsla. Müsəlmanlar biləcəklər ki, sıxışdırıldıqları mühasirədən tam mənada xilas olmaq bədəl[35] istəyən bir işdir. O bədəli gözünü qırpmadan ödəyən fədakar mənsublar yetişdirmədiyi müddətdə də islami hərəkat bir aldanışdan digərinə sürüklənib gedəcək.

Sözügedən bədəlin nə olduğu, bu bədəlin hansı bir üsul və ya üslubla ödənəcəyi kimi suallara Quranı nəzərdən qaçıraraq dolğun cavablar tapmaq mümkün deyil. Bu nöqtədə həyat kitabı olduğu tez-tez və şüar olaraq söylənən Kitabın, həyatımızın bu sahəsində önümüzə sərilən problemləri həll etməkdə bizə necə asanlıq təmin edəcəyini bilmək lazımdır. Yoxsa onun həyat Kitabı olması sözdə qalacaq. O, özünə müraciət etməyənin və nəsihət etdiyi həyatı yaşamayanların həyatının Kitabı deyil. Onun mücərrəd həyat kitabı olması isə qəlib bir sözdür və kimsəyə bir şey qazandırmaz.

Elə bu nöqtədə «həyat kitabı» olan Quranın təklif etdiyi vasitələrdən biri olan adayış prosesini başlamaq problemlərimizdən birinin həllində bizə asanlıq təmin edəcək.

Doğum evinin qapısında həyəcanla gözləyən ata namizədlərdən neçədən neçəsi övladlarının səsini elə ilk eşitdikləri məqamda İmranın Zövcəsinin göstərdiyi «kişiliyin» mində birini göstərərək «Ya Rəbbi, bunu sənə nəzir verdim, məndən qəbul et!»

---

[35] *(ər) Əvəz, dəyər, qiymət*

deyə bilərlər?

Allahın üç, beş, yeddi övlad verdiyi Müsəlman atalar, hər birini öz yoluna xərclədiyi bu qədər övladdan birini belə O-nun yoluna, qəlblə, ixlasla bağışlaya bilmir. «Əti də sümüyü də Sənin, Sənin dininin, ya Rəbbim» deyə bilmirsə, üstəlik ən dindar ata-analar belə İslami həssaslığına şübhə etmədikləri övladlarının bir axşam evə gec gəlməsi qarşısında gözləri hədəqəsindən çıxır, yerində dura bilmirlərsə, şəhadətdən söz edən övladlarına «Aman, o necə sözdür? Allah qorusun!» deyirlərsə, Allahı sevdiklərinə kimi inandıra bilərlər və dinin yerlərdə sürünən bayrağı necə ucalar?

Bənzətmədə bir xəta olmasın: «Ata oğluna bir bağ bağışlamış. Oğul ataya bir salxım üzümü çox görmüş» məsəlinə bənzəyən bu vəziyyətdə o insanların qədəri saxta öndərliklərin və öndərciklərin əlində oyuncaq olmaq deyilmi?

Bir çox müsəlman və «patriarxal» ailədə «İslami tərbiyə ilə böyütmə» adı altında mütləq bir ata monarxiyasının maddi və/ və ya mənəvi təzyiqi altında müəyyən bir yaşa qədər əldə tutulan gül kimi övladlarımızın, bu yaşdan sonra eynilə boşalmış qapı yayı kimi ələ-ovuca sığmaz, həşərat, üsyankar, şeytan ordusunun potensial bir namizədi olmaq yolunda əmin addımlarla irəliləyən biri olub çıxmalarında, Kitabın verdiyi örnəklərdən bixəbər olmaqları ilə nə edəcəklərini bilməyən ustadların, müsəlman aydınların, hacı əfəndilərin, hoca əfəndilərin, şeyx əfəndilərin, şagirdlərin, xadimlərin, dəvətçilərin, bir sözlə, hər kəsin və hər biri də «bizim» olan, İslamın bu torpaqlardakı varlıq «zəmanəti» hesab olunan müsəlman ailə başçılarının məgər heç rolu yoxdurmu?

Ətrafınıza baxın! İnsanlara Din'i öyrətmə və anlatma məqamında olanların övladlarının ürək ağrıdan halına baxın. Dara düşəndə sarıldıqları Adəm və Nuh peyğəmbərlərin oğulları Qabil və Kənan nümunələri, ya da Nuh əleyhissələmın qadını və Lut əleyhissələmın qızları onları qurtarmağa yetərmi və Allah qatında məşru bir səbəbdirmi? Üstəlik, Allah Kitabında şiddətli bir üslubla bu fərmanı bildirdiyi halda:

**«Ey inananlar, nəfsinizi və əlinizin altındakıları atəşdən qoruyun!..» (66,7)**

Müsəlman ailələr özlərinə səbəb tapmadan əvvəl Quranın bu

mövzudakı əzəmətli reseptlərini öyrənsələr və tətbiq etsələr, yəni «sahibiyik» dediyi şeylərin həqiqətən sahibi olsalardı, əlbəttə övladları xatırlandığı zaman üzləri qızaracaq halda olmayacaqlar, onları Allaha tərbiyə etdirmə şüurunda davranacaqlar.

Bu torpaqlardakı İslamın gələcəyini cəmiyyətin toxumları olan Müsəlman ailələrin yetişdirəcəkləri övladlarda görən və onlara ümid bağlayanlar, umduqları dağların püskürüb həm öz başlarına, həm də toplumun başına lavalar yağdırdığını gördükçə ümidsizliyə qapılmaqdadırlar. Bu ümidsizlik də onları sonu ziyan olan bir laqeydliyə və nəməlazımçılığa aparacaq.

Bu acınacaqlı vəziyyəti ötüb yenə də beynində, adını «İslami tərbiyə» qoyduğu və (əksər halda evdə mütləq hakim, qüdrətli kişi rolunu oynayan atanın şüuraltındakı) İslamiləşdirilmiş patriarxallıq düşüncəsiylə övladlarını yetişdirənlər, bəlkə onları min bir səylə, beyninə yeritdiyi «xidmət(!) ediləcək yüksək bir mövqe» yə yerləşdirirlər, lakin ondan sonra da hesabda Allah üçün tərbiyə etdikləri övladlarını Allaha və onun dininə verməyə qıya bilməyib, hətta onu Allahdan qısqanıb onun üzərindəki mütləq avtoritetlərini – zövqlə - ömür boyu sürdürürlər. O, övlad «atasının sözəbaxan övladı» olmasının nemətlərini yaxşı bir təhsil, çevrə, məqam və mənsub sahibi olmaq şəklində dadırsa da, bir ömür boyu öz ayaqları yerinə başqasının – lap elə bu başqası atası olsun - ayaqları üzərində durduğu üçün «şəxsiyyət» ola bilmir. Üzərindəki mübahisə edilməz qul siyasətinin bədəli olaraq şəxsiyyətini özünə himayə edən o ölümlü qullara artıqlaması ilə ödəyir. Təbii, nəticədə əlində Allaha verəcək bir şeyi qalmır. Bu tip ailələrin vəziyyəti bu adamın vəziyyətinə bənzəyir: Adam Allaha qurban vermək üçün bir quzu alır. Onu sözügedən niyyətlə bəsləyib böyüdər. Quzu böyüdüyü zaman bir baxar ki, can alan bir qoyun olmuş. Söz verdiyi qapıya təslim etməyə onu qıya bilmir, «heç olmazsa, südünü paylaşaq» üzsüzlüyü ilə əhdindən qaçar.

Bütün bu yanlışlar, aldanmalar xoşniyyətli olsa da bir çoxu cəhalətdən qaynaqlanmaqdadır və heç biri Müsəlmanların istər fərdi, istər cəmiyyət məsələlərinə bir həll ola bilmir, heç ola da bilməyəcək... Ta ki Qurani modellərə etibar edilənə qədər.

## 3. MÜSƏLMAN QADININ MƏQAMI

İslami cəmiyyətlərin toxumu mislində olan Müsəlman ailə modelinin məhvəri «ana» nın təşkil etdiyi inkar edilməyəcək bir gerçəkdir. Müsəlman toplumlarda ən çox önəmsənilməyənlər siyahısının başında Müsəlman qadının durduğu da...

Bu nədən belədir? Bunun tarixi qədim və səbəbləri çox müxtəlif. Məgər Quranda qadının önəmsənilməməsinə əlverişli bir sıra hökmlərmi mövcuddur? Bax, elə bunu kimsə iddia edə bilməz. Əksinə, Quran Müsəlman qadına İslam cəmiyyətində önəmli bir yer seçmiş və onu layiq olduğu məqama, yəni «sevgili» və «ana» olmaq kimi ica bir mərtəbəyə qaldırmışdır.

Qadın Quranda da, sünnətdə də ən çox «analıq» keyfiyyəti ilə önə çıxarılmaqdadır. Necə də çıxarılmasın ki? Onun təbiəti, fiziologiyası, psixologiyası hər zaman bu ülvi vəzifəni əskiksiz yerinə yetirə bilməsi üçün lazım olan şeylərlə təchiz olunmuşdur.

Qadın bir güzgünün önünə keçib fiziologiyasını araşdırsın. Fiziologiyası ona «Sən anasan!» deyəcək. Qadın könül aynasının qarşısında ruhunu və hislərini araşdırsın. Sevəcənliyi, şəfqəti, ürəyi yumşaqlığı, incəliyi, qeyrəti, xidməti, himməti[36] ilə könlü ona «Sən anasan!» deyəcək.

Əgər qadın bir sıra xarici təsirlərlə bu uca məqamından uzaqlaşdırılır ya da uzaqlaşırsa, fitrətindən və əsl vəzifəsindən, yəni Allahın onu yerləşdirdiyi cəbhədən qaçır, qorunması üçün özünə verilən qalxandan imtina edir - deməkdir. Öz vəzifəsinə önəm vermir, işindən qaçır - deməkdir. Hər kəsin bildiyi bir həqiqət: Üzərinə borc olmayan işlərlə çalışanlar üzərlərinə borc olan işləri axsadarlar. Qadın ona verilən ilahi sahəni tərk edib onun olmayan sahələrə təcavüz edərsə, o cəmiyyətdə, əlbəttə, tarazlıq pozulacaq, iş bölgüsü alt-üst olacaq, vəzifələr axsayacaq.

İlahi nizamın ən böyük özəlliyi hər şeyi yerli yerində qılması (hikmət)dır. İlahi nizam atın önünə əti, itin önünə otun qoyulmadığı bir nizamdır. Bəşəri sistemlər gəlmişlər, hər bir şeyin təbiətinə və fitrətinə zidd davranaraq «ata ət, itə ot vermək» şəklində xüsusiləşdirə biləcəyimiz bir yanlışlığa düşmüşlər. Hətta

[36] *(ər.) Çalışma, çabalama, səy, cəhd, comərdlik*

bütün imkanlarını səfərbər edərək atı ət, iti də ot yeməyə, mətbuat və kütləvi informasiya vasitələrini istifadə edərək inandırmışlar. Bu şəkildə əşyanın təbiətinə müdaxilə etmək kimi bir cürətə sahiblənmişlər. İslam əşyanın təbiətini qorumağın o biri adıdır.

Çağdaş qadın–kişi münasibətləri də bundan fərqlənmir. Qadınların kişiləşdiyi bir dünyada əlbəttə, kişilər də qadınlaşacaq. Lakin nə qədər kişiləşirsə kişiləşsin, ya da kişiləşdirilsin, fiziologiyası, təbiəti, psixologiyası ilə qadın qadındır və onu başqa bir şey olmağa zorlamaq həm ona, həm kişiyə, həm ailənin digər fərdlərinə, həm də topluma bir zülmdür.

Bu zülmün pəncəsinə düşməkdən Müsəlman ailələr belə qorunmaz oldu. İslami keyfiyyətlərə sahib idealist gənc qızlarımız «analıqdan» başqa hər şeyə çox həvəslidirlər. Hətta aralarında özünü «Zeynəb» elan edib, yanına bir də «Hüseyn» alaraq «qiyama» hazırlananlar belə var. Və nəticədə bir sıra üzücü, kədərli hadisələr, depressiya, ümidlərlə oynayanlar, ümidləriylə oynadanlar...

Bunun belə olmasında Müsəlman kişinin, vəzifəsini yerinə yetirməyən Müsəlman kişinin rolu heç yoxdurmu? Əlbəttə, günahın böyük ağırlığı Müsəlman kişinin çiyinlərindədir. Səlahiyyətini yerinə yetirməkdə aciz olan erkəklər diyarında hərkəsin başının bəlaya düşməsi təbii haldır. Üstəlik əməlləri elm və bəsirət yönləndirməyəndə, onları hiss və duyğular yönləndirir.

Heç şübhəsiz ki, İslami toplumun yetişdirilməsində ən böyük rol Müsəlman qadınındır. Kütləvi informasiya vasitələrinin körpələrimizin mənəvi qətllərinin baş verdiyi bir zamanda Müsəlman qadın onları necə diqqətsiz buraxa bilər. Özünü və tərbiyəsi ilə məsul olduğu körpələrini göz görə-görə televiziya adlı bir canavarın vəhşi qollarına necə təslim edə bilər?

Əgər Müsəlman bir ailədə qadın: «Yoldaşıma və körpəmə qarşı vəzifəmi tam icra edim» deyərsə, 24 saat ona ancaq yetər. Bu səbəblə Müsəlman qadını özünü əlavə bir işə versə, bizcə bu əsl vəzifəsini və işini axsatması anlamına gəlir. Problem Müsəlman qadının işləyib, işləməyəcəyi problemi deyil. Problemə yanlış ad verilir. Məgər Müsəlman qadın «işsiz-gücsüz», bekardırmı ki, kimsə onun işləyib, işləməyəcəyini özlərinə dərd edir? Əgər Müsəlman qadın vəzifəsini bilir, məsuliyyətlərindən xəbərdardırsa,

bir dəqiqəsinin belə boş olmadığını anlayacaq. Kimsə özünə «iş» axtara bilər, amma Müsəlman qadın əsla. Onun işi başından aşır. Müsəlman ailə yeməklərin restoranda yeyildiyi, uşaqların bağçalarda böyüdüldüyü, evin iki nəfərlik otel ya da pansion kimi istifadə edildiyi  ailə deyil ki....

Yuxarıda təsvir etdiyimiz tipdə bir «ailə» olması mümkündür, fəqət bu ailə İslami toplumun çəyirdəyi ola bilməz və o ailədə yetişən övladdan da xeyir gəlməz. Çünki, Quranın təklif etdiyi ailə modelinə əhəmiyyət verilməmiş, çeynənmişdir. Bir tam əmələ gətirən modeli təşkil edən parçalarından sadəcə biri:

“Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz şılın, zəkat verin, Allaha və Onun Rəsuluna itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tər-təmiz etmək istəyir. Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. (33/33,34)

Əlbəttə, Quranın Müsəlman qadına təqdim etdiyi proqram sadəcə bu qədər deyil. O, bir çox yerdə, Müsəlman qadına birbaşa, ya da dolaysıyla müraciət edərək fitrətinə uyğun olan vəzifələri xatırladır.

Beləliklə, bunlardan biri də bu risalədə ələ aldığımız «adayış qissəsi»dir.

Bu qissə və onun Hannə, Eyşa və Məryəm kimi qadın qəhrəmanları qulluğunun şüurunda olan Müsəlman qadın üçün bir imkandır. Həm də necə imkan...

Əgər o, bu imkanı dəyərləndirə bilərsə, həm özünün, həm ailəsinin, həm də cəmiyyətinin xilasına vəsilə olacaq əzəmətli bir prosesi başlada bilər.

Adayanlar və adananların çox olduğu bir toplumu heç bir zalım güc əzə bilməyəcəkdir. Və o toplum bəxtəvər və azad insanların toplumu olacaqdır.

Nə bəxtəvərdir Hannə kimi adayanlar!

Nə bəxtəvərdir Məryəm kimi adananlar!

Nə bəxtəvərdir Zəkəriyya (ə) kimi bağbanlar!

Nə bəxtəvərdir Yəhya və İsa (mənəvi qurban) (ə) kimi qurbanlar!

**«Yer üzündə hər şey yox olacaq, yalnız əzəmət və kərəm sahibi Rəbbinin üzü (rizasi) əbədi qalacaq»** (55/26,27)

# MÜƏLLİFİN İSTİFADƏ ETDİYİ QAYNAQLAR

QURANİ KƏRİM

Beydavi, (Əl-Kadi) Nasirüddin əbu Səid Abdullah b. Ömər əş-Şirazi; ƏNVARUT-TƏNZİL MƏ ƏSRƏRUT-TƏVİL, Darul-Kütübil-İlmiyyə, BEYRUT 1998.

Cəlaleyn, Cəlalüddin Muhamməd b.Əhməd əl- Mahalli və Cəmalüddin əs- Süyuti, TƏFSİRU CƏLALƏYN, Məktəbətul –Halebuni, DİMEŞK.

El-Beqavi, əl- İmam əbu Muhamməd əl – Hüseyn b. Mesud; TEFSİRUL –BEGAVİ, Darul – Marife, BEYRUT 1997.

El-Cemel, Süleyman b.Ömer el-Acil; el-FÜTÜHATÜL – İLAHİYYE, Matbaatu İsa Babı el-Halebı, MİSİR

el- Ferra, ebı Zekeriyya Yahya b. Ziyad; MEANİL-QURAN, el-Heyetül-Mısrıyyetül-Amme, MİSİR 1972.

el-Meragi, Əhməd Mustafa; TEFSİRÜL-MERAGİ, Matbaatu Mustafa el- Babi el-Halebi, MİSİR 1982.

et-Taberi, Cəfər Muhammed b.Cerır; CAMİUL-BEYAN AN TEVİL-İ AYİL-QURAN, Matbaatu Mustafa el-Babi el-Halebi, MİSİR

İbn Hişam, Ebı Muhamməd Abdulməlik; SİRATÜN-NEBI, Mektebetu Darut-Türas, QAHİRƏ

İbnül-Esir, el-Cezeri; el-KAMİL FİT-TARİH, Darul-Kitabil-Arabı, BEYRUT 1986.

Kurtubi, Ebu Abdillah Muhamməd b. Ahməd; EL-CAMİLİ-AHKAMİL-QURAN, Darul-Kütübil-İlmiyye, BEYRUT 1988.

Razi, el-İmam Fahrüddin; El-TEFSİRUL-KEBİR, Darul-Kütübil-İlmiyye, BEYRUT 1990.

Seyyid Kutub; Fİ ZİLALİL – QURAN, Daruş-Şuruk, MİSİR 1987.

Zemahşeri, Ebil-Qasım Carullah Mahmud b. Ömər; EL_KEŞŞAF, Darul- Marife, BEYRUT

Zirikli, Hayrüddin; EL-ALAM, Darul-İlm Lil-Melayin, BEYRUT 1989.

# TƏRCÜMƏÇİLƏRİN İSTİFADƏ ETDİYİ QAYNAQLAR

Allahın yardımı.
Allahın təqdiri
Böyük türkcə sözlük. D. Mehmet Doğan. Ülke Yayın Haber. 1994.
Azərbaycan dilinin izahlı lüğəti. 4 clddə, Bakı, 1964.
Ərəb –fars sözləri lüğəti. Bakı, Yazıçı 1985.

# MÜƏLLİFİN ÇAP OLUNMUŞ DİGƏR KİTABLARI:

DÜŞÜNCƏ

1. **Ürək dövləti** (İç dünyamızın təmir və inşası haqqında)
2. **Ürək fəthi** (İslami fəthlərin təbiətinə dair)
3. **Həyatın yenidən inşası üçün** (Həyatı kim, necə və nə üçün təmir etdi? Həyatı təkrar kim, necə inşa edə bilər?)
4. **Nə etməli - Necə etməli - Kiminlə etməli** (Həyatı inşa etmək üçün nəyi, necə, kiminlə etməli)
5. **Həcc risaləsi** («Möhtəşəm ibadət»ə dair möhtəşəm bir kitab)

ARAŞDIRMA

1. **İman** (Kəlamın əqidələşməsi, əqidənin kəlamlaşması və hər yönü ilə səhih iman)
2. **Üç Muhamməd** /İki təsəvvür bir gerçək

(Bir-birinə qarşı iki peyğəmbər təsəvvürü və Quranın tanıtdığı gerçək Peyğəmbər)

3. **Yəhudiləşmə təmayülü** (Son sözü «Yəhudilərdən deyil, Yəhudiləşməkdən qorxun» olan bir araşdırma)
4. **İslami diriliş hərəkatları** (Vəhhabilik, İhvani Müslimin, Cemaat-i İslami və digərləri)

TARİX

1. **İmamlar və Sultanlar** (İslam tarixinin ilk 150 ili və İmam Əzam Əbu Hənifənin mücadiləsi)
2. **İslami Hərəkətlər və qiyamlar tarixi** (Osmanlıdan Cumhuriyyətə 700 ilin alternativ bir tarix oxuması)

**GƏNCLİK – TƏRBİYƏ**

1. Tövsiyyələr I (Hər səviyyədən insana xitab edən bir kitab)
2. Tövsiyyələr II (Ailə tərbiyəsi və ər–arvad münasibətləri)

**SEÇMƏ MƏQALƏLƏR**

1. Dağarcıq
2. Savaş kəsməyən sözlər
3. Yoxluğunda düşülmüş notlar
4. Yerlilər və yersizlər
5. Ayələrin işığında
6. Sözün gücümü, gücün sözümü?

ŞER

1. Divan

# MÜNDƏRİCAT


TƏRCÜMƏÇİLƏRDƏN 3

TƏQDİM 5

BİRİNCİ BÖLÜM 7

İKİNCİ BÖLÜM
AYƏLƏRİN İŞIĞINDA
ÜÇ NƏSİLDƏ ADAYIŞ PROSESİ 31

TƏTİMMƏ 93

MÜƏLLİFİN İSTİFADƏ ETDİYİ
QAYNAQLAR 104

TƏRCÜMƏÇİLƏRİN İSTİFADƏ ETDİYİ
QAYNAQLAR 105

MÜƏLLİFİN ÇAP OLUNMUŞ DİGƏR
KİTABLARI: 105

Şərti çap vərəqi: 6,75
Formatı: 60x84 $^{1}/_{16}$ Tiraj: 600.

Kitablar satış üçün nəzərdə tutulmayıb. Hədiyyədir.